RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 23 (9190) 2 FEVRAL 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




◆ 2 Fevral Azərbaycan Gəncləri Günüdür



# Zəfər gəncləri

**Millətin, dövlətin ən böyük qüruru, sərvəti, gələcəyi onlar - dünyada baş verən mütərəqqi dəyişikliklərə, elmi-texniki tərəqqiyə meyilli, sürətlə inkişaf edən müasir dövrün tələblərinə cavab verən, eyni zamanda soy-kökünə bağlı olan, əmanət kimi ona ötürülən milli-mənəvi dəyərləri qoruyan, yaşadan, düzgün tərbiyə almış, təhsilli, öz biliyi, bacarığı daxilində hər hansı bir peşəyə yiyələnmiş, zəkalı, bacarıqlı, sağlam gənclərdir.**

Onların isə ən böyük gücləri arzularının sonsuzluğunda, ümidlərinin tükənməzliyindədir. Bu mənəvi güclə maneələri dəf etmək, bəzən mümkünsüz görünənləri də gerçəkləşdirmək əzmində, iradəsindədirlər.

Əslində, ömürlərinin gənclik coşqulu çağlarını yaşayan gənclərə elə gəlir ki, nəinki bütün günlər, aylar, illər, hətta bütün dünya onlarındır. Ancaq təqvimimizdə bir gün var ki, adına Azərbaycan Gəncləri Günü deyirik. Ümummilli Lider Heydər Əliyevin 1997-ci il fevralın 1-də imzaladığı Sərəncama əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib.

Həmin vaxtdan bu əlamətdar gün respublikamızda təntənə ilə qeyd olunur. Ötən il fevralın 2-də Bakıda Azərbaycan Gənclərі Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirildi. Forumda çıxış edən Prezident İlham Əliyev dedi: "İyirmi beş il bundan əvvəl Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Azərbaycanda Gənclər Günü təsis edildi və o gündən bu günə qədər fevralın 2-də biz bu günü qeyd edirik. Ondan bir il əvvəl isə Heydər Əliyevin təşkilatçılığı və təşəbbüsü ilə Azərbaycanda Birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər gənclər siyasəti daim dövlətin prioritetləri sırasında idi. O gündən bu günə qədər bir nəsil dəyişdi və bu gün bu salonda oturan gənclər o vaxt ya hələ dünyaya gəlməmişdi, ya da balaca uşaqlar idi. Bir nəsil dəyişdi və Azərbaycan dəyişdi".

İllər keçdi. Ermənistanın işğal etdiyi torpaqlara ayaq basmayan, görməyən Azərbaycan övladları böyüdülər. Ancaq harada yaşamasından, boya-başa çatmasından asılı olmayaraq Vətən torpağı əzizdir, onun hər qarışı müqəddəsdir. Azərbaycan xoşbəxt ölkədir ki, bütün guşələrində bu ruhda gənclər yetişir. Onlar həyatı, yaşamağı çox sevsələr də, bəxtəvər olmaq, istəklərini reallaşdırmaq üçün zamanları çox olsa da, müqəddəs amalları, idealları uğrunda bir an belə tərəddüd etmədən bunlardan vaz keçə bilirlər.

→ 12



# Azərbaycan terror aktını hərtərəfli araşdırır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşün videokonfrans formatında keçirilməsinə səbəb Türkiyə nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Mahmut Özerin və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünün ölkəmizə səfərinin önəminə toxundu və bu səfərin əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

→ 2



# Prezident gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən şəxsləri təltif etdi

→ 6

# Parlamentin yaz sessiyası öz işinə başladı



**Fevralın 1-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib. Milli Məclisin Sədri sessiyanı açıq elan etdikdən sonra əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Spiker yaz sessiyasının başlaması münasibətilə təbriklərini çatdırıb və sessiyanın işinə uğurlar arzulayıb.**

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, yanvar ayının 27-də Azərbaycanın İrandakı səfirliyinə qarşı terror aktı törədilib. Səfirliyin və səfirlik əməkdaşlarının mühafizəsini təmin edərkən mühafizə xidmətinin 1 əməkdaşı həlak olub, digər 2 əməkdaşı yaralanıb. Milli Məclis bu xain hücuma münasibətini bildirərək, onu şiddətlə qınayıb, terror aktının hərtərəfli və dərindən araşdırılmasını, bu qanlı cinayətin törədilməsində əli olanların hamısının müəyyən edilməsini və ən sərt şəkildə cəzalandırılmasını tələb edib. Eləcə də Milli Məclisin deputatları kütləvi informasiya vasitələrində çıxışlar edərək səfirliyimizə qarşı törədilmiş terroru qətiyyətlə pisləyiblər. Spiker həlak olmuş şəhidimiz Orxan Əsgərova bir daha Allahdan rəhmət diləyib, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralanmış səfirlik əməkdaşlarının tezliklə sağalmalarını arzulayıb.

→ 7

# Terrorçu rejimin sonu yaxınlaşır

İran terrorçularının əsas hədəfi əsasən səfirliklər olub. İndiyə kimi dünyanın bir sıra ölkələrində yerləşən diplomatik korpuslarda törədilən terror aktlarında İranın adı keçir. Xüsusilə ABŞ-nin müsəlman dövlətlərində olan elçiliklərində törədilən terror hadisələrində İranın adı daha çox hallanır. Molla rejimi öz ölkəsində olan bütün diplomatik korpusun nümayəndələrini özünün potensial girovu hesab edir. Ortada olan faktlar sübut edir ki, İranın maraqlarına uyğun olmayan istənilən dövlətin diplomatlarının təhlükəsizliyinə bu ölkədə təminat yoxdur. Necə ki aylarladır İranın "ruhaniləri", yüksəkrütbəli zabitləri ölkəmizi açıq təhdid etməkdən çəkinmirdilər. Nəticə də göz qabağındadır.

İranın ölkəmizə olan düşmənçilik münasibəti zatən hər kəsə bəllidi. Uşaqdan-böyüyə hamı bilir ki, bu ölkənin xüsusi xidmət orqanları İrana səfər edən azərbaycanlılarla "fərdi söhbət"lər aparır, onlardan "informator" kimi istifadə edib özünün burada geniş casus şəbəkəsini yaradır.

→ 13




# Azərbaycanın Rus İcmasının və Rus Gəncləri Assosiasiyasının üzvləri Laçın yolunda ekofəallara qoşulublar

→ 14

# Ermənistanda hər 3 nəfərdən biri yoxsuldur

İqtisadçılar 2023-cü ilin də Ermənistan üçün yaxşı heç nə vəd etmədiyini bildirirlər. Məsələ bundadır ki, bu ölkədə ötən il sosial-iqtisadi vəziyyətdə müsbətə doğru heç bir dəyişiklik olmayıb. Ermənistanın rəsmi statistikasına görə, ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə, bu göstərici Ermənistanda hər 3 nəfərdən birinə aiddir. Rəsmi statistikaya əsasən həm də hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

Bütün sahələrdə iflasa uğrayan Ermənistanda işsizlik böhranı da yaşanır. Ölkədə gənclərin 42 faizi işsizdir. Həkimlər, tibb bacıları, mühəndislər, müəllimlər, digər peşə və sənət adamları arasında işsizlik hallarına daha çox rast gəlinir. Daha bir maraqlı məqam işsizlərin arasında qadınların sayının getdikcə artmasıdır.

→ 14

# Azərbaycan terror aktını hərtərəfli araşdırır

*Əvvəli 1-ci səh.*

Təhsil sahəsində əməkdaşlıqda böyük nailiyyətlərin əldə olunduğunu bildirən Prezident İlham Əliyev iki ölkənin dövlət başçılarının razılaşdırdığı kimi Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını dedi.

Mahmut Özer Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Mahmut Özer Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı zamanı mühafizə xidmətinin rəhbəri Orxan Əsgərovun həlak olması ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev səfirliyin digər mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğuladı. Dövlətimizin başçısı hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev vurğuladı ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.



İkinci Qarabağ müharibəsində Azərbaycanın zəfəri münasibətilə bir daha təbriklərini çatdıran qonaq bildirdi ki, xalqlarımız ən çətin dövrlərdə həmişə bir-birinin yanında olub.

Təhsil sahəsində əlaqələrimizin son illərdə çox sürətlə inkişaf etdiyini deyən Mahmut Özer Türkiyənin bu sahədə ölkəmizlə təcrübəsini bölüşməkdən məmnunluq hissi keçirdiyini bildirdi.

Görüşdə Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən Zirvə toplantısında təşkilat yanında müşahidəçi statusunun alınması prosesində üzv dövlət kimi Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlıq ifadə olundu.

## Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 12-ci, 13-cü, 15-ci, 20-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298, № 11, maddə 2190; 2019, № 1, maddə 14, № 3, maddə 368, № 5, maddə 814, № 8, maddə 1375; 2020, № 6, maddə 670, № 7, maddə 832; 2021, № 8, maddə 894; 2022, № 2, maddə 91) aşağıdakı məzmunda 110.6-cı maddə əlavə edilsin:

"110.6. Mənzil-tikinti kooperativinin üzvünün payının özgəninkiləşdirilməsi ilə əlaqədar əqdlər notariat qaydasında təsdiqlənməlidir.".

**Maddə 2.** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 116; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 737; 2003, № 1, maddə 1; 2006, № 3, maddə 225; 2007, № 6, maddə 562, № 12, maddə 1216; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1168; 2016, № 3, maddə 423; 2017, № 5, maddə 741, № 7, maddə 1291; 2018, № 5, maddə 847; 2019, № 1, maddə 30, № 3, maddə 387; 2021, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 14-1-ci maddənin adından və 14-1.2-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

2.2. 14-1.1-ci maddəyə "sərvətlərinin" sözündən sonra "və milli valyutanın" sözləri, "olunmuş" sözündən sonra "məlumat və" sözləri əlavə edilsin, həmin maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddədə "məlumatı" sözü "məlumat və sənədləri" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017, № 11, maddələr 1323, 1335; 2021, № 12, maddə 1312; 2022, № 8, maddə 827) 15.9.3-cü maddəsindən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın, həmin maddəyə "orqanına," sözündən sonra "nəzarət orqanlarına," sözləri əlavə edilsin və həmin maddədə "monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8, № 11, maddə 1206, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 16.1.9-cu, 16.2.7-ci və 31.1-ci maddələrdən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddələrdə "Azərbaycan Respublikası Qanununun" sözləri "və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının" sözləri ilə əvəz edilsin;

4.2. 25.1.4-cü maddədə "və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri ", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının" sözləri ilə əvəz edilsin;

4.3. 25.1.7-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddədə "sistemini" sözü "proqramını" sözü ilə əvəz edilsin;

4.4. 37.1-ci maddənin üçüncü abzasından "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

4.5. 39.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"39.2. Banklar ölkədaxili və transsərhəd əməliyyatlara dair bütün məlumat və sənədlərin, müştəri uyğunluğu tədbirləri çərçivəsində əldə edilmiş məlumat və sənədlərin, işgüzar yazışmaların, hesablara, habelə aparılmış hər hansı təhlilin nəticələrinə dair məlumat və sənədlərin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində qeyd olunan müddətdə saxlanılmasını təmin etməlidirlər.";

4.6. 42-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 42. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması**

42.1. Kredit təşkilatları cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı monitorinq olunmalı əməliyyatlar barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim edir, özünün daxili nəzarət proqramını hazırlayır və tətbiq edir, Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş digər tədbirləri həyata keçirirlər.

42.2. Kredit təşkilatları qanunla müəyyən olunmuş hallarda və qaydada müştəriyə, benefisiar mülkiyyətçiyə və səlahiyyətli nümayəndəyə münasibətdə müştəri uyğunluğu tədbirləri tətbiq etməli, məlumat və sənədlərin saxlanılması tələblərinə əməl etməlidirlər.

42.3. Uydurma adlarla bağlı və ya anonim hesabların açılmasına, sənədlərin və əmlakın uydurma adlar istifadə edilməklə və ya anonim olaraq saxlanca qəbul edilməsinə (xüsusi otaqlarda və ya seyf qutularında saxlanılmasına), anonim depozit sertifikatlarının buraxılmasına və anonim bank kitabçalarının təqdim edilməsinə yol verilmir.

42.4. Bu Qanunun 42.1-42.3-cü maddələrində göstərilən tələblərdən başqa digər tələblər "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunları, həmçinin digər normativ hüquqi və normativ xarakterli aktlarla müəyyən edilir.";

4.7. 47.1-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddədə "Azərbaycan Respublikası Qanununun və" sözləri "və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının, həmçinin" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 470; 2007, № 10, maddə 934; 2009, № 1, maddə 7; 2010, № 3, maddə 173; 2013, № 11, maddə 1273; 2017, № 5, maddə 710; 2018, № 5, maddə 840) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 5.8-ci maddədən "pul vəsaitlərinin və ya digər" və "dövlət orqanlarının və qurumlarının fəaliyyətini əlaqələndirmək," sözləri çıxarılsın;

5.2. 7.11-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın.

**Maddə 6.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12 (I kitab), maddə 2221; 2018, № 7 (I kitab), maddə 1392; 2019, № 1, maddələr 19, 33, 50, № 5, maddələr 793, 815, № 6, maddə 999, № 8, maddə 1362; 2020, № 7, maddələr 822, 830; 2021, № 6 (I kitab), maddə 558, № 8, maddə 896, № 11, maddə 1206, № 12, maddələr 1298, 1320) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6.2.9-cu maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

6.2. 13-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 13. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması**

13.1. Həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı monitorinq olunmalı əməliyyatlar barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim edir, özünün daxili nəzarət proqramını hazırlayır və tətbiq edir, Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş digər tədbirləri həyata keçirirlər.

13.2. Həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri qanunla müəyyən olunmuş hallarda və qaydada sığortalıya, sığorta olunana, faydalanan şəxsə, benefisiar mülkiyyətçiyə və səlahiyyətli nümayəndəyə münasibətdə müştəri uyğunluğu tədbirləri tətbiq etməli, məlumat və sənədlərin saxlanılması tələblərinə əməl etməlidirlər.

13.3. Bu Qanunun 13.1-ci və 13.2-ci maddələrində qeyd olunan tələblərdən başqa digər tələblər "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunları, həmçinin digər normativ hüquqi və normativ xarakterli aktlarla müəyyən edilir.";

6.3. 29.1.10.6-cı, 95.1.5-ci və 124.2-ci maddələrdən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddələrdə "Azərbaycan Respublikası Qanununun" sözləri "və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının" sözləri ilə əvəz edilsin;

6.4. 106.1.7-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddədə "Azərbaycan Respublikasının Qanununda" sözləri "və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında" sözləri ilə əvəz edilsin;

6.5. 123.2-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın, həmin maddədə "eyniləşdirilməsi və verifikasiyası" sözləri "müştəri uyğunluğu tədbirlərinə dair məlumat və" sözləri ilə, "10-cu" sözü "6-cı" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950; 2014, № 10, maddə 1161; 2015, № 11, maddə 1261; 2016, № 3, maddə 412, № 4, maddə 642, № 12, maddə 2002; 2017, № 11, maddə 1952, № 12 (I kitab), maddə 2225; 2018, № 7 (I kitab), maddə 1394; 2019, № 1, maddə 33, № 5, maddə 815, № 6, maddə 999; 2021, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 40.1.3-cü maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın, həmin maddədə "7.3-cü" sözü "9.5-ci" sözü ilə əvəz edilsin, həmin maddəyə "dövlətlərin" sözündən sonra "(ərazilərin)" sözü, "dövlətlərdə" sözündən sonra "(ərazilərdə)" sözü əlavə edilsin;

7.2. 41.2-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddədə "Azərbaycan Respublikasının Qanununda" sözləri "və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında" sözləri ilə əvəz edilsin;

7.3. 53-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 53. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması**

53.1. İnvestisiya fondu və bu fondun idarəçisi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı monitorinq olunmalı əməliyyatlar barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim edir, özünün daxili nəzarət proqramını hazırlayır və tətbiq edir.

53.2. İnvestisiya fondu və bu fondun idarəçisi qanunla müəyyən edilmiş hallarda və qaydada müştəriyə, benefisiar mülkiyyətçiyə və səlahiyyətli nümayəndəyə münasibətdə müştəri uyğunluğu tədbirləri tətbiq etməli, məlumat və sənədlərin saxlanılması tələblərinə əməl etməlidir.

53.3. Bu Qanunun 53.1-ci və 53.2-ci maddələrində qeyd olunan tələblərdən başqa digər tələblər "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunları, həmçinin digər normativ hüquqi və normativ xarakterli aktlarla müəyyən edilir.".

**Maddə 8.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813; 2016, № 3, maddə 411, № 11, maddə 1756, № 12, maddə 2003; 2017, № 2, maddə 159, № 5, maddə 712, № 12 (I kitab), maddə 2222; 2018, № 5, maddə 893, № 7 (I kitab), maddə 1395; 2019, № 1, maddələr 33, 50, № 2, maddə 189, № 5, maddələr 807, 815, № 6, maddə 999, № 7, maddə 1184; 2021, № 12, maddə 1298) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 28.3-cü maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin maddədə "monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

8.2. 62.4.4-cü maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın, həmin maddədə "7.3-cü" sözü "9.5-ci" sözü ilə əvəz edilsin, həmin maddəyə "dövlətlərin" sözündən sonra "(ərazilərin)" sözü, "dövlətlərdə" sözündən sonra "(ərazilərdə)" sözü əlavə edilsin;

8.3. 63.5-ci maddədən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın.

**Maddə 9.** "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053; 2017, № 7, maddə 1288; 2019, № 1, maddə 28; 2020, № 5, maddə 527, № 11, maddə 1333; 2021, № 12, maddə 1310; Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 687-VIQD nömrəli Qanunu) 3.4.13-cü maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4.14-3.4.16-cı maddələr əlavə edilsin:

"3.4.14. daşınmaz əmlakın alqı-satqısı üzrə, mənzil-tikinti kooperativinin üzvünün pay haqqı üzrə və bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən yaşayış və qeyri-yaşayış sahələrinin alınması ilə bağlı həyata keçirilən ödənişlər;

3.4.15. qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər;

3.4.16. rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakın alqı-satqısı üzrə (avtomobil satışı istisna olmaqla) ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər.".

**Maddə 10.** Bu Qanun 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2022-ci il*

## "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 785-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 785-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 785-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2023-cü il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 617-VIQD və 620-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 122.1-ci maddədə "346.3" rəqəmləri "346" rəqəmləri ilə əvəz edilsin.

2. 122.4-cü maddədə "346.3-cü" sözü "346-cı" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2022-ci il*

---

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 694-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 22 noyabr tarixli 24 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2020-ci il 10 iyul tarixli 1104 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 694-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666; 2001, № 7, maddə 459; 2003, № 10, maddələr 546, 571; 2004, № 8, maddə 617, № 12, maddə 1005; 2006, № 9, maddə 743; 2008, № 8, maddə 719; 2009, № 4, maddə 226, № 8, maddə 630; 2010, № 7, maddə 606; 2011, № 6, maddə 510; 2012, № 5, maddə 423, № 11, maddə 1079; 2014, № 9, maddə 1043; 2015, № 2, maddələr 110, 140, № 6, maddə 707, № 10, maddə 1116; 2016, № 3, maddə 456, № 4, maddələr 662, 666, № 6, maddə 1062, № 11, maddə 1839; 2017, № 5, maddə 758, № 8, maddə 1521; 2018, № 2, maddələr 169, 197, № 4, maddə 677, № 6, maddə 1241, № 7 (I kitab), maddələr 1466, 1493; 2019, № 1, maddə 96, № 3, maddə 420, № 7, maddə 1228, № 8, maddələr 1402, 1406; 2020, № 5, maddə 561, № 7, maddə 885; 2021, № 4, maddə 316; 2022, № 8, maddə 860) 2.37-ci bəndində "346-1.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsi istisna olmaqla, həmin Qanunun 85-ci maddəsinin 10-cu bəndində nəzərdə tutulmuş digər hallar üzrə" sözləri "346-1.2-ci, 346-1.3-cü və 346-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsi halları ilə bağlı" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1952 nömrəli, 2023-cü il 12 yanvar tarixli 1964 nömrəli və 14 yanvar tarixli 1978 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.52-ci bənddən "həmin Məcəllənin 346.1-ci və ya 346.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxs nəqliyyat vasitəsinin yanında olmadığı və həmin nəqliyyat vasitəsinin yol hərəkəti və piyadaların hərəkətinə maneə yaratdığı hallara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Bakı Nəqliyyat Agentliyi, habelə" sözləri çıxarılsın;

2.2. 5.1-ci bəndə "345," rəqəmlərindən sonra "346," rəqəmləri əlavə edilsin;

2.3. 5.33-1-ci bənddən "346," rəqəmləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 1890, 1892 nömrəli, 15 dekabr tarixli 1904 nömrəli və 30 dekabr tarixli 1952 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci və 2.2-ci bəndlərdən "346," rəqəmləri çıxarılsın və həmin bəndlərə "345," rəqəmlərindən sonra "346," rəqəmləri əlavə edilsin;

3.2. 2.3-cü bənddə "346.3 (Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanılan iş üzrə icraatla bağlı)" sözləri "346" rəqəmləri ilə və "elektron protokoldan (qərardan) Məcəllənin 122.7 və 122.8-ci maddələrində qeyd olunan vəsatət (şikayət)" sözləri "elektron qərardan Məcəllənin 122.7-ci maddəsində qeyd olunan şikayət" sözləri ilə əvəz edilsin;

3.3. 2.4-cü bənddən ", 346-cı" sözləri çıxarılsın və həmin bəndə "344," rəqəmlərindən sonra "346," rəqəmləri əlavə edilsin;

3.4. 17.0-cı bənddən "346-cı," sözləri çıxarılsın.

4. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyul tarixli 1104 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 884) 2-ci hissəsi ləğv edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 694-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

---

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 13-cü və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, №12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 617-VIQD və 620-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 393-1.4-cü maddəyə "mülkiyyətçisi" sözündən sonra ", o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsinin kirayəçisi" sözləri əlavə edilsin.

2. 393-1.6-cı maddəyə "mülkiyyətçilərinə" sözündən sonra ", o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsinin kirayəçilərinə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

---

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 759-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 759-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 393-1.4-cü və 393-1.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 393-1.4-cü və 393-1.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1952 nömrəli, 2023-cü il 12 yanvar tarixli 1964 nömrəli və 14 yanvar tarixli 1978 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bəndə "354.0.8," rəqəmlərindən sonra "393-1.4, 393-1.6," rəqəmləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.54-1-ci bənd əlavə edilsin:

"4.54-1. həmin Məcəllənin 393-1.4-cü və 393-1.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 759-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

---

# "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 750; 2009, № 6, maddə 399; 2017, № 7, maddə 1253) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.3-cü maddədə "kütləvi informasiya vasitələri nümayəndələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 20.1-1-ci və 21-1-ci maddələr əlavə edilsin:

"20.1-1. Dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həlli məsələlərinə məsul olan etik davranış üzrə müvəkkil təyin edilir.";

**"Maddə 21-1. Etik davranış üzrə müvəkkil**

21-1.1. Rəhbər vəzifələr üzrə 3 (üç) ildən az olmamaqla, 5 (beş) ildən çox dövlət qulluğunda inzibati vəzifələrdə qulluq keçən və yüksək mənəvi keyfiyyətlərə malik şəxslər etik davranış üzrə müvəkkil ola bilərlər.

21-1.2. Etik müvəkkil:

21-1.2.1. bu Qanunla müəyyən edilmiş etik davranış qaydalarına əməl olunması vəziyyətini öyrənir, etik davranış qaydalarının pozulmasına şərait yaradan halları təhlil edir və onların aradan qaldırılması ilə bağlı dövlət orqanının rəhbərinə təkliflər və tövsiyələr verir;

21-1.2.2. dövlət qulluqçularından və digər şəxslərdən etik davranış qaydalarının pozulması ilə bağlı daxil olan müraciətlərə baxır;

21-1.2.3. daxil olan müraciətlərdən irəli gələn məsələlərin həlli üzrə dövlət orqanının rəhbərinə təkliflər, tövsiyələr və təqdimatlar verir;

21-1.2.4. dövlət qulluqçularının etik davranış qaydaları ilə bağlı maarifləndirilməsi üçün tədbirlər görür, o cümlədən etik davranış qaydalarının tətbiqi ilə bağlı təlim proqramlarını hazırlayır və təlimlərin təşkilində iştirak edir;

21-1.2.5. etik davranış qaydalarının pozulmasının qarşısının alınması istiqamətində profilaktik tədbirlər görür, etik davranış qaydalarının pozulması faktları üzrə dövlət orqanının rəhbərinə məlumat verir;

21-1.2.6. dövlət qulluqçularının etik davranış qaydaları ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verir.".

3. 23.3.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 23.3.3-cü maddə əlavə edilsin:

"23.3.3. bu Qanunun müddəalarının dövlət qulluqçusu tərəfindən pozulmasının etik davranış üzrə müvəkkil tərəfindən müəyyən edilməsi.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2022-ci il*

## Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 217; 2003, № 12 (I kitab), maddə 671; 2006, № 5, maddə 386; 2008, № 8, maddə 697; 2009, № 6, maddə 399; 2011, № 2, maddə 71) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci maddədən ", Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyənləşdirir" sözləri çıxarılsın.

2. 2-ci maddə üzrə:

2.1. maddənin adı və 2.1-ci maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"ll. Şuranın fəaliyyət istiqamətləri";

"2.1. Şuranın fəaliyyət istiqamətləri aşağıdakılardır:";

2.2. 2.1.2-ci, 2.1.4-cü və 2.1.5-ci maddələrdən "hakimiyyəti" sözü çıxarılsın;

2.3. 2.1.6-cı maddədə "dövlət qulluqçularının şikayətlərinə" sözləri "şikayətlərə" sözü ilə əvəz edilsin.

3. 3-cü maddə üzrə:

3.1. 3.1-ci maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Şura:";

3.2. 3.1.1-ci, 3.1.2-ci və 3.1.3-cü maddələrdən "hakimiyyəti" sözü çıxarılsın;

3.3. 3.1.6-cı maddədə "dövlət qulluqçularının şikayətlərinə" sözləri "şikayətlərə" sözü ilə əvəz edilsin və həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.7-ci maddə əlavə edilsin:

"3.1.7. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qulluqçularının qulluq stajının hesablanması, onlara ixtisas dərəcələrinin verilməsi, habelə xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı olaraq uyğunlaşdırılması ilə əlaqədar yaranmış mübahisələrə dair dövlət qulluqçuları və ya dövlət orqanlarının, habelə dövlət qulluğuna xitam verilmiş şəxslərin müraciətlərinə baxır.";

3.4. 3.3-cü maddə üzrə:

3.4.1. birinci cümlədə "mütəmadi olaraq, lakin iki ayda bir" sözləri "ildə iki" sözləri ilə əvəz edilsin;

3.4.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu Əsasnamənin 3.4-cü maddəsində nəzərdə tutulmuş Reqlamentlə müəyyən edilmiş qaydada Şuranın növbədənkənar iclasları çağırıla bilər.";

3.5. 3.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"3.5. Şuranın fəaliyyətinin təşkilini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan Katiblik həyata keçirir. Katibliyin işini Şuranın iclasında Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilən katib təşkil edir.";

3.6. aşağıdakı məzmunda 3.5-1-ci maddə əlavə edilsin:

"3.5-1. Şuranın katibi Şuranın iclaslarının keçirilməsi ilə bağlı təşkilati məsələlərin həlli, Şuranın müzakirəsinə çıxarılacaq məsələlər üzrə sənədlərin hazırlanması və Şuranın qərarlarının icrası ilə əlaqədar kargüzarlıq və digər işlərin aparılması üzrə fəaliyyəti həyata keçirir.".

3.7. aşağıdakı məzmunda 3.6-1-ci maddə əlavə edilsin:

"3.6-1. Şuranın qəbul etdiyi qərarlar icra edilməsi üçün 3 (üç) iş günü müddətində müvafiq dövlət orqanlarına göndərilir. Dövlət orqanlarının rəhbərləri tərəfindən həmin qərarın icra vəziyyəti barədə hesabat 30 (otuz) gün müddətində Şuraya təqdim edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2022-ci il*

---

## "Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 787-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 787-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"nin 3.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 3.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 584; 2003, № 8, maddə 441; 2005, № 11, maddə 1009; 2009, № 6, maddə 419; 2010, № 3, maddə 183; 2013, № 12, maddə 1506; 2015, № 2, maddə 120; 2020, № 12 (I kitab), maddə 1480; 2021, № 3, maddə 221, № 8, maddə 906) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın 16-cı hissəsinə "və ya dövlət qulluqçusunun" sözlərindən sonra ", habelə dövlət qulluğuna xitam verilmiş şəxsin" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 787-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

---

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691, № 12, maddə 1891; 2020, № 7, maddə 829, № 12 (I kitab), maddə 1451; 2021, № 7, maddə 709, № 8, maddələr 893, 899, № 12, maddə 1332; 2022, № 6, maddə 583, № 8, maddə 829; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 627-VIQD nömrəli və 9 dekabr tarixli 679-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.3-cü maddədə "sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

2. 25-ci maddədə "məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə verilən sənədlə təsdiq olunur" sözləri "bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan qayda ilə müəyyən edilir" sözləri ilə əvəz edilsin.

3. 31.2-ci maddənin birinci və ikinci cümlələrində "siyahısı əmək pensiyasını təyin edən orqan tərəfindən" sözləri "bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan qayda ilə" sözləri ilə əvəz edilsin.

4. 31.2-1 və 34.2-ci maddələrdə "31.2-ci maddəsində göstərilən" sözləri "5.3-cü maddəsində nəzərdə tutulan qayda ilə müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2022-ci il*

---

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376; 2020, № 5, maddə 521, № 7, maddələr 827, 847, № 12 (I kitab), maddə 1425; 2021, № 4, maddə 305, № 6 (I kitab), maddə 543, № 8, maddə 897; 2022, № 8, maddə 831; Azərbaycan Respublikasının 2022-ci il 18 oktyabr tarixli 611-VIQD nömrəli Qanunu) 27-ci maddəsinin II hissəsinin 1-ci bəndinə "və daha çox," sözlərindən sonra "yaxud" sözü, IV hissəsinin 4-cü bəndinə və XIV hissəsinə "nömrələri" sözündən sonra ", habelə rəngi" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun dərc edildiyi gündən 6 ay sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2022-ci il*

---

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 695-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 695-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326; 2008, № 6, maddə 495, № 11, maddələr 969, 980; 2013, № 6, maddə 656; 2014, № 10, maddə 1176; 2016, № 2 (II kitab), maddə 243, № 3, maddə 457, № 8, maddə 1376; 2017, № 8, maddə 1521; 2018, № 2, maddə 208, № 9, maddə 1840; 2020, № 9, maddə 1140; 2021, № 1, maddə 38; 2022, № 5, maddə 469, № 8, maddə 845) ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"nın 2-ci hissəsinə "və daha çox," sözlərindən sonra "yaxud" sözü əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 695-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərmanın 1-ci hissəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 695-VIQD nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

---

## Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298; 2018, № 11, maddə 2190; 2019, № 1, maddə 14, № 3, maddə 368, № 5, maddə 814, № 8, maddə 1375; 2020, № 6, maddə 670, № 7, maddə 832; 2021, № 8, maddə 894; 2022, № 2, maddə 91) aşağıdakı məzmunda 29.5-ci maddə əlavə edilsin:

"29.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsi kirayəçinin istifadəsinə verildiyi tarixdən kirayə hüquq münasibətlərinə xitam verilənədək bu Məcəllənin 38-ci, 43-47-ci və 119-145-ci maddələri üzrə çoxmənzilli binanın sahə mülkiyyətçisinə məxsus hüquq və vəzifələr həmin kirayəçiyə verilir. Kirayəçi bu Məcəllənin 43.2.1-43.2.3-cü və 125.2.6-cı maddələri ilə müəyyən edilmiş sahə mülkiyyətçisinə məxsus hüquq və vəzifələri, o cümlədən bu Məcəllənin 125.2.12-ci, 125.2.13-cü və 125.3-cü maddələri ilə müəyyən edilmiş ümumi əmlaka sərəncam verilməsinə dair sahə mülkiyyətçisinin səlahiyyətlərini yalnız yaşayış sahəsinin mülkiyyətçisinin yazılı razılığı əsasında həyata keçirə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

---

## "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 760-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 760-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 29.5-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 29.5-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 629; 2012, № 11, maddə 1085; 2013, № 5, maddə 496; 2017, № 7, maddə 1341; 2019, № 5, maddə 820, № 8, maddə 1400) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "49.6-cı" sözlərindən əvvəl "29.5-ci maddəsinin birinci cümləsində," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Məcəllənin 29.5-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 760-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 5-ci, 6-cı, 14-cü, 16-cı və 17-ci bəndlərini rəhbər tutaraq, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1681-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203; 2022, № 6, maddə 582; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 626-VIQD və 629-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 17-1-ci maddə əlavə edilsin:

**"Maddə 17-1. Uşaqlarla müntəzəm təmasla əlaqədar işlərin görülməsinə qoyulan məhdudiyyətlər**

Uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər uşaqlarla müntəzəm təmasla əlaqədar işə qəbul (təyin) və ya cəlb edilə bilməzlər.".

**Maddə 2.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, №12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11, № 6, maddə 580, № 8, maddə 828) 64.0.7-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 64.0.8-ci maddə əlavə edilsin:

"64.0.8. uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətdikdə.".

**Maddə 3.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD nömrəli və 29 noyabr tarixli 641-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 99-4.5-ci maddədə "170-171-1" rəqəmləri "170-171-2" rəqəmləri ilə əvəz edilsin;

3.2. 149-cu maddə üzrə:

3.2.1. 149.2.3-cü və 149.3.2-ci maddələr ləğv edilsin;

3.2.2. aşağıdakı məzmunda 149.2-1-ci maddə əlavə edilsin:

"149.2-1. Eyni əməllər:

149.2-1.1. yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə;

149.2-1.2. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

3.2.3. 149.3.3-cü maddənin dispozisiyasından "təqsirkar şəxs üçün aşkar surətdə" sözləri çıxarılsın, sanksiyasında "on ildən on beş" sözləri "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on beş ildən iyirmi" sözləri ilə əvəz edilsin;

3.2.4. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 152.2 - 152.4-cü maddələrində nəzərdə tutulmuş əməllər on iki yaşına çatmayan şəxs barəsində və ya ona qarşı edilən hərəkətlərin xarakterini və mahiyyətini başa düşməyən yetkinlik yaşına çatmayan digər şəxs barəsində törədildikdə, həmin əməllər bu Məcəllənin müvafiq olaraq 149.3.3-cü və ya 150.3.3-cü maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.";

3.3. 150-ci maddə üzrə:

3.3.1. 150.1-ci maddənin sanksiyasında "üç ildən beş" sözləri "dörd ildən səkkiz" sözləri ilə əvəz edilsin;

3.3.2. 150.2.3-cü və 150.3.2-ci maddələr ləğv edilsin;

3.3.3. 150.2-ci maddənin sanksiyasında "səkkiz" sözü "on" sözü ilə əvəz edilsin;

3.3.4. aşağıdakı məzmunda 150.2-1-ci maddə əlavə edilsin:

"150.2-1. Eyni əməllər:

150.2-1.1. yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə;

150.2-1.2. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

3.3.5. 150.3.3-cü maddənin dispozisiyasından "təqsirkar şəxs üçün aşkar surətdə" sözləri çıxarılsın, sanksiyasında "səkkiz ildən on beş" sözləri "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on beş ildən iyirmi" sözləri ilə əvəz edilsin;

3.4. 152-ci maddə üzrə:

3.4.1. 152.1-ci maddənin dispozisiyasında "On altı" sözləri "On dörd yaşına çatmış, lakin on altı" sözləri ilə əvəz edilsin;

3.4.2. 152.1-ci maddənin sanksiyasına "üç ilədək" sözlərindən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ildən" sözləri əlavə edilsin;

3.4.3. 152.2-ci maddənin dispozisiyasına "on dörd" sözlərindən əvvəl "on iki yaşına çatmış, lakin" sözləri əlavə edilsin;

3.4.4. 152.2-ci maddənin sanksiyasına "üç ildən" sözlərindən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə" sözləri əlavə edilsin;

3.4.5. aşağıdakı məzmunda 152.4-cü maddə əlavə edilsin:

"152.4. Bu Məcəllənin 152.2 və ya 152.3-cü maddələrində göstərilən əməllər:

152.4.1. təkrar törədildikdə;

152.4.2. iki və ya daha çox şəxsə qarşı törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə altı ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

3.5. 153-cü maddə üzrə:

3.5.1. adında "Əxlaqsız" sözü "On altı yaşına çatmayan şəxsə qarşı əxlaqsız" sözləri ilə əvəz edilsin;

3.5.2. 153.1-ci maddənin dispozisiyasına "hərəkətlər törətmə" sözlərindən sonra ", habelə həmin şəxsi cinsi zorakılıq hərəkətləri və ya seksual fəaliyyəti müşahidə etməyə cəlbetmə" sözləri əlavə edilsin;

3.5.3. 153.1-ci maddənin sanksiyasına "iki ilədək müddətə islah işləri və ya iki" sözləri "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç" sözləri ilə əvəz edilsin;

3.5.4. 153.2-ci maddənin sanksiyasında "bir ildən iki ilədək müddətə islah işləri və ya bir ildən üç" sözləri "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş" sözləri ilə əvəz edilsin;

3.5.5. 153.3-cü maddənin sanksiyasında "iki ildən dörd" sözləri "üç ildən altı" sözləri ilə əvəz edilsin;

3.5.6. aşağıdakı məzmunda 153.4-cü maddə əlavə edilsin:

"153.4. Bu Məcəllənin 153.2 və ya 153.3-cü maddələrində göstərilən əməllər:

153.4.1. təkrar törədildikdə;

153.4.2. iki və ya daha çox şəxsə qarşı törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən doqquz ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

3.6. 171-ci maddə üzrə:

3.6.1. adında "və ya" sözləri ", pornoqrafiya tamaşalarında iştirak etməyə və ya digər" sözləri ilə əvəz edilsin;

3.6.2. 171.1-ci maddənin dispozisiyasına "fahişəliyə" sözündən sonra ", pornoqrafiya tamaşalarında iştirak etməyə" sözləri, sanksiyasına "üç" sözündən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə" sözləri əlavə edilsin;

3.6.3. 171.2.1-ci maddəyə "hədəsi ilə" sözlərindən sonra "və ya digər məcburetmə vasitələri ilə" sözləri əlavə edilsin;

3.6.4. 171.2.3-cü maddənin sonunda tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 171.2.4-cü maddə əlavə edilsin:

"171.2.4. on altı yaşına çatmayan şəxs barəsində törədildikdə -";

3.6.5. 171.2-ci maddənin sanksiyasına "dörd" sözündən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə" sözləri əlavə edilsin;

3.7. 171-1.2.5-ci maddədən "təqsirkar şəxs üçün aşkar surətdə" sözləri çıxarılsın;

3.8. aşağıdakı məzmunda 171-2-ci maddə əlavə edilsin:

**"Maddə 171-2. Seksual xarakterli məqsədlərlə uşaqların təqib edilməsi**

Yetkinlik yaşına çatmış şəxs tərəfindən on dörd yaşına çatmayan şəxslə cinsi əlaqədə olma, seksual xarakterli hərəkətlər etmək və ya uşaq pornoqrafiyasının istehsalı məqsədilə həmin şəxsin on dörd yaşına çatmadığını bilə-bilə ona informasiya və kommunikasiya texnologiyaları vasitəsilə görüş təklif etməklə bu görüşün baş verməsi üçün praktiki hərəkətlər edildikdə -

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.".

**Maddə 4.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; 2022, № 5, maddələr 428, 436, № 8, maddə 828; Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 642-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 7.0.33-1-ci və 7.0.33-2-ci maddələr əlavə edilsin:

"7.0.33-1. yetkinlik yaşına çatmayan şəxs (uşaq) - 18 yaşına çatmayan şəxsdir;

7.0.33-2. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaq - Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 149.2-1.1, 149.3.3, 150.2-1.1, 150.3.3, 152, 153, 171, 171-1-ci və 171-2-ci maddələrində göstərilən cinayətlərdən zərərçəkmiş və cinayətin törədilməsi anınadək yetkinlik yaşına çatmamış şəxsdir;";

4.2. 27.1-ci maddəyə "ailə sirlərinin" sözlərindən sonra ", yetkinlik yaşına çatmayan şəxslərin maraqlarının" sözləri əlavə edilsin;

4.3. aşağıdakı məzmunda 123-2-ci maddə əlavə edilsin:

**"Maddə 123-2. Uşaqların hüquqlarının müdafiəsi üçün tədbirlər**

123-2.1. Cinayət prosesini həyata keçirən orqanlar tərəfindən uşaqların hüquqlarının müdafiəsi üçün aşağıdakı tədbirlər görülməlidir:

123-2.1.1. uşaqların qanuni nümayəndələrinə onların şikayətləri ilə bağlı görülən tədbirlər, habelə cinayət təqibinin gedişatı barədə məlumat verilməsi;

123-2.1.2. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqların qanuni nümayəndələrinə uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə tutulmuş, həbs edilmiş və ya məhkum edilmiş şəxsin azad edilməsi barədə məlumat verilməsi;

123-2.1.3. uşaqların hüquq və mənafelərinin təmin edilməsi məqsədilə onlara yardım göstərilməsi;

123-2.1.4. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqların, onların ailələrinin və şahidlərin təhlükəsizliyinin təmin edilməsi;

123-2.1.5. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaq və ya onun qanuni nümayəndəsi tələb etdikdə pulsuz hüquqi yardım göstərilməsi üçün uşaqlarla iş üzrə daha təcrübəli vəkilin iştirakının təmin edilməsi;

123-2.1.6. uşaqların valideynlərinin və ya digər qanuni nümayəndələrinin maraqlar toqquşmasına görə cinayət prosesində iştirak etməyə buraxılmadığı hallarda, qəyyumluq və himayəçilik orqanının uşaqlar üçün qanuni nümayəndə qismində təyin edilməsi;

123-2.1.7. uşaqlara verilən məlumatların onların yaşına və psixi inkişafı səviyyəsinə uyğun qaydada və onların başa düşdükləri dildə təqdim olunması;

123-2.1.8. uşağın mənafeyi, yaxud cinayət-prosessual fəaliyyətin məqsədləri üçün belə təmasın tələb olunduğu hallar istisna olmaqla, cinayət prosesinin istənilən mərhələsində uşaqla şübhəli və ya təqsirləndirilən şəxs arasında təmasın olmamasının təmin edilməsi.

123-2.2. Uşaqlardan ifadə alınarkən aşağıdakılar təmin edilir:

123-2.2.1. cinayət haqqında cinayət təqibi orqanlarına məlumat daxil olduqdan sonra uşağın mənafeyi tələb etdiyi hallar istisna olmaqla, hər hansı gecikdirməyə yol verilmədən uşaqdan ifadə alınır;

123-2.2.2. uşaqdan ifadənin alınması bu məqsədlə ayrılmış yerlərdə və ya yaradılmış xüsusi şəraitdə həyata keçirilir;

123-2.2.3. uşaqdan ifadənin alınması cinayət prosesini həyata keçirən orqanın bu məqsədlə xüsusi hazırlıq keçmiş əməkdaşları tərəfindən həyata keçirilir;

123-2.2.4. mümkün olduğu hallarda uşaqdan təkrar ifadənin alınması eyni şəxs tərəfindən həyata keçirilir;

123-2.2.5. uşaqdan ifadələr iş üçün əhəmiyyətli hallarda və mümkün qədər az sayda alınmalıdır;

123-2.2.6. mümkün olduğu hallarda uşaqdan bütün ifadələr videoçəkiliş aparılmaqla alınır.

123-2.3. Uşaq müvafiq istəyini bildirdikdə və ya onun mənafeyi nəzərə alınmaqla, uşağın məhkəmə zalında iştirak etmədən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə ifadə verməsi təmin olunur.

123-2.4. Uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət üzrə məhkəmə iclası qapalı keçirilir.";

4.4. 194-cü maddə üzrə:

4.4.1. adında "və ölmüş" sözləri ", ölmüş" sözü ilə əvəz edilsin və "vəkilin" sözündən sonra ", habelə cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşağa xidmət göstərən vəkilin" sözləri əlavə edilsin;

4.4.2. aşağıdakı məzmunda 194.1-2-ci maddə əlavə edilsin:

"194.1-2. Cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqlara bu Məcəllənin 123-2.1.5-ci maddəsinə uyğun olaraq göstərilən pulsuz hüquqi yardımın ödənilməsi, məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla, Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına təmin edilir.";

4.4.3. 194.2-ci maddəyə "hüquqi varisi qismində" sözlərindən sonra ", yaxud cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqlara dövlət hesabına" sözləri əlavə edilsin;

4.5. aşağıdakı məzmunda 197.1.5-2-ci maddə əlavə edilsin:

"197.1.5-2. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqlara bu Məcəllənin 123-2.1.5-ci maddəsinə uyğun olaraq pulsuz hüquqi yardım göstərildikdə vəkilə ödənilməli olan haqqın məbləği;";

4.6. 198.1-ci maddəyə "197.1.5-1," rəqəmlərindən sonra "197.1.5-2," rəqəmləri əlavə edilsin;

4.7. aşağıdakı məzmunda 228.5-ci maddə əlavə edilsin:

"228.5. Yetkinlik yaşına çatmamış şahid dindirilərkən bu Məcəllənin 123-2.2-ci maddəsində nəzərdə tutulmuş tələblərə də riayət olunmalıdır.";

4.8. 231-ci maddənin mətni 231.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 231.2-ci maddə əlavə edilsin:

"231.2. Cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan 14 yaşından yuxarı uşağın tələb etdiyi hallarda onun dindirilməsi qanuni nümayəndəsinin, yaxud onun seçimi əsasında müəllimin, psixoloqun və ya həkimin iştirakı ilə aparılır.";

4.9. aşağıdakı məzmunda 330.6-cı maddə əlavə edilsin:

"330.6. Uşaqların dindirilməsi bu Məcəllənin 123-2-ci və 228-ci maddələrində nəzərdə tutulmuş qaydada aparılır.".

**Maddə 5.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9, № 11, maddə 1684, № 12, maddələr 1881, 1908; 2020, № 6, maddə 670, № 7, maddə 827, № 11, maddə 1332; 2021, № 8 maddə 897) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 4-cü maddənin ikinci hissəsinin birinci cümləsində "və prokurorluq orqanları" sözləri ", prokurorluq və digər hüquq mühafizə orqanları, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman)" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 28-1-ci maddə əlavə edilsin:

**"Maddə 28-1. Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi**

28-1.1. Təhsil, səhiyyə, sosial müdafiə, məhkəmə, hüquq-mühafizə, idman, mədəniyyət və istirahət sahələrində uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşaqların müdafiəsi və onların hüquqları barədə məlumatlılığın artırılması, həmin şəxslərin cinsi istismara və cinsi zorakılığa məruz qalmış uşaqların müəyyən edilməsi vasitələri barədə təlimatlandırılması üçün dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və vəzifəli şəxslər tədbirlər görürlər. Uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşağın cinsi istismar və ya cinsi zorakılıq qurbanı olması barədə əsaslar olduqda konfidensiallığa əməl etməklə, uşaq hüquqlarını müdafiə edən orqanlara məlumat verilməsi imkanları barədə təbliğat və təşviqat işləri aparılır.

28-1.2. Uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər uşaqlarla müntəzəm təmasla əlaqədar işə qəbul (təyin) və ya cəlb edilə bilməzlər.

28-1.3. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmuş uşaqlar insan alverinin qurbanı olmuş uşaqlar üçün nəzərdə tutulmuş hüquqlardan və təminatlardan istifadə edirlər.".

**Maddə 6.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148, № 11, maddə 2194, № 12 (I kitab), maddə 2487; 2019, № 4, maddə 580, № 12, maddə 1884; 2020, № 7, maddə 856; 2021, № 12, maddə 1308; 2022, № 8, maddə 831) 20-ci maddəsinin I hissəsinin üçüncü cümləsi dördüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmuş və cinayət prosesində öz hüquqlarını müstəqil həyata keçirən və pulsuz hüquqi yardım göstərilməsini tələb edən uşaqlara xidmət göstərən vəkilə ödənilməli olan haqq, məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla, dövlət büdcəsinin vəsaiti hesabına təmin edilir.".

**Maddə 7.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830, № 11, maddələr 1329, 1335, № 12 (I kitab), maddə 1420; 2021, № 2, maddə 108, № 6 (I kitab), maddə 547, № 11, maddə 1209; 2022, № 6, maddə 589) aşağıdakı məzmunda 11.3-1-ci və 36-1.2.5-ci maddələr əlavə edilsin:

"11.3-1. Ümumi təhsil müəssisələri tərəfindən yetkinlik yaşına çatmayanların öz inkişaf səviyyələrinə uyğun cinsi istismar və cinsi zorakılıq təhlükələri, habelə özünümüdafiə vasitələri barədə məlumat almaları təmin edilir. Bu zaman onlara cinsi tərbiyəyə dair ümumi məlumat verilir, təhlükəli vəziyyətlərə, xüsusilə yeni informasiya və kommunikasiya texnologiyalarından istifadədən irəli gələn hallara xüsusi diqqət yetirilir. Belə məlumatların təqdim edilməsinə yetkinlik yaşına çatmayanların valideynləri və ya digər qanuni nümayəndələri cəlb edilə bilərlər.";

"36-1.2.5. uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər.".

**Maddə 8.** "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191; 2019, № 11, maddə 1685; 2020, № 7, maddə 831; 2021, № 8, maddə 895) aşağıdakı məzmunda 7.1.6-1-ci maddə əlavə edilsin:

"7.1.6-1. uşağın cinsi istismar və ya cinsi zorakılıq qurbanı olması;".

**Maddə 9.** "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1670; 2019, № 4, maddə 594) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.0.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.12-ci maddə əlavə edilsin:

"1.0.12. uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət - Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 149.2-1.1, 149.3.3, 150.2-1.1, 150.3.3, 152, 153, 171, 171-1-ci və 171-2-ci maddələrində göstərilən əməl.";

9.2. 14.1.1-ci maddəsinə "əleyhinə cinayət" sözlərindən sonra ", o cümlədən uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət" sözləri əlavə edilsin.

**Maddə 10.** "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789; 2020, № 6, maddə 664, № 7, maddə 851, № 11, maddə 1335; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 548; 2022, № 6, maddə 588, № 8, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

10.1. aşağıdakı məzmunda 13.12-1-ci maddə əlavə edilsin:

"13.12-1. Ümumi təhsil müəssisələri tərəfindən yetkinlik yaşına çatmayanların öz inkişaf səviyyələrinə uyğun cinsi istismar və cinsi zorakılıq təhlükələri, habelə özünümüdafiə vasitələri barədə məlumat almaları təmin edilir. Bu zaman uşaqlara cinsi tərbiyəyə dair ümumi məlumat verilir, təhlükəli vəziyyətlərə, xüsusilə yeni informasiya və kommunikasiya texnologiyalarından istifadədən irəli gələn hallara xüsusi diqqət yetirilir. Belə məlumatların təqdim edilməsinə yetkinlik yaşına çatmayanların valideynləri və ya digər qanuni nümayəndələri cəlb edilə bilərlər.";

10.2. 27.2.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 27.2.5-ci maddə əlavə edilsin:

"27.2.5. uşaqlara qarşı cinsi istismar və ya zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2022-ci il*

## "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922, № 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1938 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1.1-ci yarımbənd üzrə:

1.1. 3-cü abzasa "doğub" sözündən sonra ", övladlığa və (və ya) qəyyumluğa götürüb onları" sözləri və "tərbiyə etmiş" sözlərindən sonra "və böyütmüş" sözləri əlavə edilsin;

1.2. 4-cü abzasdan "18 yaşınadək" sözləri çıxarılsın;

1.3. 5-ci abzasa "növbəti" sözündən əvvəl "və ya əlilliyi müəyyən edilmiş uşağını" sözləri əlavə edilsin.

2. 5.2.2-ci yarımbənd üzrə:

2.1. 8.1-ci bəndə "doğub" sözündən sonra ", övladlığa və (və ya) qəyyumluğa götürüb onları" sözləri və "tərbiyə etmiş" sözlərindən sonra "və böyütmüş" sözləri əlavə edilsin;

2.2. 8.2-ci bənddən "18 yaşınadək" sözləri çıxarılsın;

2.3. 8.3-cü bəndə "növbəti" sözündən əvvəl "və ya əlilliyi müəyyən edilmiş uşağını" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

## "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 aprel tarixli 2813 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 aprel tarixli 2813 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 592) 1-ci hissəsində "İqtisadiyyat" sözü "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında neft və qaz sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 29-da Əlcəzair şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında neft və qaz sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Əlcəzair Xalq Demokratik Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

## "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Finlandiya Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il avqustun 5-də Bakı şəhərində və dekabrın 12-də Helsinki şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Finlandiya Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Finlandiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

## Gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə **qərara alıram:**

Dövlət gənclər siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Babayev Fuad Muxtar oğlu
Bayramova Şəfəq Zaqif qızı
Əkbərov Qadir Xalis oğlu
Ərəbov Orxan Namiq oğlu
Qədimbəyova Günay Rüfət qızı
Qədirov Mübariz Yusif oğlu
Niftəliyeva Vüsalə Sahib qızı

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Həsilov Elvin Bəxtiyar oğlu
İsaqov Natiq Cankişi oğlu
Paşayeva Nisə Fazil qızı
Rzayeva Cəmilə Ramiz qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

## 2023-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2023-cü il Gənclər üçün Prezident mükafatları verilsin:

Axundova Ülviyyə Süleyman qızı
Əliyev Kamran Əbülfəz oğlu
Əliyeva Adilə Həbib qızı
Həşimov Orxan İlqar oğlu
Hüseynli Cabbar Rasim oğlu
İslamov Bəxtiyar Qabil oğlu
Məsimov Nicat Rafiq oğlu
Nağıyeva Mehriban Vidadi qızı
Zəkəryəzadə Tural Namiq oğlu

**birgə fəaliyyətə görə:**

Xəlilov Şahin İlqar oğlu
İmanzadə Günay Fikrət qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

# Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti Fəxri xiyabanı, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət edib



Fevralın 1-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabanı, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət edib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı üzərinə tər güllər düzüblər.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Abidənin önünə gül dəstələri qoyulub.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında görüş keçirilib

Fevralın 1-də Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin bütün dünya üçün nümunə olduğunu vurğulayıb. Azərbaycan və Türkiyə arasındakı münasibətlərin Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd edən komitə sədri bildirib ki, Türkiyənin Azərbaycanın İrandakı səfirliyinə qarşı edilən terror aktını ilk qınayan ölkə olması da dediklərimizi bir daha təsdiqləyir.

Əhliman Əmiraslanov ölkələrimiz arasındakı münasibətlərin daha da dərinləşdirilməsində Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın müstəsna rolu olduğunu diqqətə çatdırıb. O, qeyd edib ki, hər iki lider ümumbəşəri siyasət yürüdür və regionda sülhün və sabitliyin tərəfdarıdırlar.

Türkiyənin yeni prezident seçkiləri ərəfəsində olduğunu bildirən komitə sədri seçkilərdə qardaş ölkəyə uğurlar arzulayıb.

TBMM-in Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım qırılmaz tellərlə bir-birinə bağlı olan Türkiyə və Azərbaycan əlaqələrindən danışıb və Ulu Öndər Heydər Əliyevin iki ölkə arasındakı münasibətlərin daha da genişləndirilməsində rolunu vurğulayıb.

Azərbaycanın regionda sülh və sabitlik istədiyini deyən TBMM-in Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Laçın-Xankəndi yolundakı aksiyaya da münasibət bildirib. O vurğulayıb ki, Azərbaycan ekoloqları və fəalları etiraz aksiyası keçirməkdə haqlıdırlar. Çünki ölkənin sərvətləri talanır. O, dostluq qrupu olaraq Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında səylərini bundan sonra da əsirgəməyəcəklərini vurğulayıb.

Söhbət zamanı Şamil Ayrım Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycanda və Türkiyədə keçiriləcək tədbirlərdən də danışıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatları Fəzail Ağamalı, Vahid Əhmədov, Sadiq Qurbanov, Hicran Hüseynova və TBMM-in deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Tülay Kaynarca iki ölkə arasındakı dostluq və qardaşlıq əlaqələri barədə fikirlərini bölüşüblər.

Görüşdə Milli Məclisin deputatları Eldar İbrahimov, Eldar Quliyev, Fazil Mustafa, Məlahət İbrahimqızı, Anar Məmmədov, Nizami Səfərov, Əminə Ağazadə, Jalə Əliyeva, Azay Quliyev, Ramin Həsən də iştirak ediblər.

***"Azərbaycan"***

# Türkiyənin Gəncədəki yeni baş konsulu ADAU-da olub

Türkiyənin Gəncəyə yeni təyin olunmuş baş konsulu Rəcəp Öztop Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olub.



Universitetin rektoru vəzifəsini icra edən Zəfər Qurbanov qonağı yeni təyinatı münasibəti ilə təbrik edib. ADAU ilə Türkiyənin ali təhsil müəssisələri arasındakı sıx əlaqələrdən və həyata keçirilən layihələrdən danışan Z.Qurbanov bu münasibətlərin inkişaf edəcəyinə əminliyini ifadə edib, ADAU-nun maddi-texniki bazası, tədris-təcrübə təsərrüfatı və beynəlxalq əlaqələri barədə diplomata ətraflı məlumat verib.

Baş konsul iki qardaş ölkənin ali təhsil müəssisələri arasında həyata keçirilən layihələrdən məmnunluğunu vurğulayaraq bildirib ki, ADAU ilə baş konsulluğun sıx əməkdaşlıq əlaqələri bundan sonra da davam edəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Milli Məclisin iclasında

# Parlamentin yaz sessiyası öz işinə başladı






*Əvvəli 1-ci səh.*

Sonra Sahibə Qafarova bildirib ki, ötən il Milli Məclisin fəaliyyətinin bütün istiqamətlərində uğurlu nəticələr əldə edilib. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün lazımi tədbirlər görülüb. Spiker xatırladıb ki, o, ötən sessiyanın son iclasında ilin yekunları barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, tətil olmasına baxmayaraq, Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyalar arasındakı dövrdə də davam edib. Yanvar ayının 9-10-da Milli Məclis Sədrinin başçılığı ilə nümayəndə heyəti Türkiyənin Antalya şəhərində işgüzar səfərdə olub, Asiya Parlament Assambleyasının (APA) 13-cü plenar sessiyasında iştirak edib. Sahibə Qafarova qeyd edib ki, o, sessiyada etdiyi çıxışda bir sıra məsələlər barədə fikirlərini bölüşərək qeyd edib ki, müasir çağırışlar şəraitində biz yalnız səylərimizi birləşdirərək mürəkkəb problemlərin həlli yollarını tapa bilərik. O, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri kimi bildirib ki, Parlament Şəbəkəsi ümumi məqsədlərə çatmaq üçün Asiya Parlament Assambleyası ilə əməkdaşlıq etməyə hazırdır.

Spiker APA-nın 13-cü plenar sessiyasında Azərbaycan ərazilərinin 30 ilə yaxın Ermənistanın işğalı altında qalmasının nəticələri barədə danışarkən bir sıra faktları diqqətə çatdırıb. O bildirib ki, tarixi xəritələr və sənədlər müasir Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradıldığını və azərbaycanlıların bu torpaqlarda əsrlərboyu yaşadığını sübut edir. Milli Məclisin Sədri sessiyadakı çıxışında onu da vurğulayıb ki, tarixi şəhərimiz İrəvan 1918-ci ildə Ermənistana verilib, 1920-ci ildə isə sovet hökumətinin qərarı ilə Zəngəzur Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilib.

Spiker qeyd edib ki, o, sessiyada XX əsrdə Ermənistan ərazisində azərbaycanlılara qarşı törədilən düşmənçilik hərəkətləri barədə də geniş məlumat verib. Soydaşlarımızın ata-baba yurdlarından qovulmasının son mərhələsinin 1988-1991-ci illərdə həyata keçirildiyini bildirib. O vurğulayıb ki, vaxt gələcək qərbi azərbaycanlıların hüquqları bərpa olunacaq və onlar ata-baba yurdlarına dönəcəklər. Spiker APA-nın 13-cü sessiyasındakı çıxışında həmçinin Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülh və sabitlik yaradılması üçün Azərbaycanın göstərdiyi səylər və Ermənistanın sülh prosesinə mane olan fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat da verdiyini diqqətə çatdırıb.

Sonra Sahibə Qafarova bildirib ki, yanvar ayının 28-dən 30-dək Milli Məclis Sədrinin rəhbərliyi ilə nümayəndə heyəti Əlcəzairə işgüzar səfər edib. Səfərdə məqsəd İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqı Konfransının 17-ci sessiyasında iştirak etmək idi. Toplantıda "İslam dünyası: modernləşmə və inkişaf çağırışları" mövzusunda müzakirələr aparılıb. Spiker konfransdakı çıxışından danışaraq deyib ki, o, müasir dövrdə İslam aləminin qarşılaşdığı problemlər barədə fikirlərini bölüşərək bildirib ki, bu çağırışların öhdəsindən gəlmək üçün İslam dünyasının birliyə ehtiyacı var. Tədbirdə İslam həmrəyliyinin möhkəmləndirilməsi üçün Azərbaycanın irəli sürdüyü təşəbbüslər və təkliflər, həyata keçirdiyi tədbirlər barədə də ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, Parlament İttifaqı Konfransının 17-ci sessiyası çərçivəsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə Parlament İttifaqı yanında, Parlament İttifaqına isə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yanında müşahidəçi statusunun verilməsi məsələsi müzakirə olunub və bu məsələ üzv parlamentlər tərəfindən dəstəklənib.

Sonra Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri ilə Parlament İttifaqının baş katibi tərəfindən bu iki qurum arasında əməkdaşlıq haqqında memorandumun imzalanması mərasimi keçirilib. Spiker bildirib ki, beləliklə, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi birinci konfransdan sonra, yəni 6 ay ərzində artıq sayca ikinci beynəlxalq təşkilatda müşahidəçi statusu əldə edib.

Milli Məclisin Sədri Əlcəzairdə keçirdiyi bir sıra ikitərəfli görüşlər barədə də məlumat verib. O bildirib ki, Əlcəzair Milli Xalq Assambleyasının sədri İbrahim Bouğali, Malayziya Nümayəndələr Palatasının sədri Cohari Abdul, Oman Şura Məclisinin sədri Şeyx Xalid bin Hilal Al Mavali ilə danışıqlarda dövlətlərarası münasibətlərin parlament ölçüsünün inkişaf yolları və bir sıra digər məsələlər müzakirə edilib.

Spiker qeyd edib ki, o, həm Parlament İttifaqı Konfransının 17-ci sessiyasında etdiyi çıxışda, həm də ikitərəfli görüşlərdə, o cümlədən İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf ilə qeyri-rəsmi görüşdə Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı yanvarın 27-də törədilmiş terror aktı barədə münasibətimizi ifadə edərək bildirib ki, Azərbaycan bu terror aktının obyektiv və hərtərəfli araşdırılmasını tələb edir.

Milli Məclisin Sədri hər iki səfərdə iştirak edən deputat həmkarlarına təşəkkürünü bildirib.

Sonra Sahibə Qafarova diqqətə çatdırıb ki, yanvar ayında bir sıra nümayəndə heyətləri, o cümlədən Səudiyyə Ərəbistanı parlamentinin Azərbaycanla dostluq qrupunun 8 üzvü Milli Məclisin qonağı olub. Hazırda isə Türkiyə Böyük Millət Məclisinin 8 deputatı və İndoneziya parlamentinin 12 deputatı Milli Məclisin qonağıdırlar. Milli Məclisin deputatları üzv olduğumuz beynəlxalq parlament təşkilatlarının fəaliyyətində yanvar ayında da yaxından iştirak ediblər və xarici ölkələrdə işgüzar səfərlərdə olublar. Avropa Şurası Parlament Assambleyasında 12 deputatımız təmsil olunub, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında 2 həmkarımız iştirak edib. Çilidə 1, Türkiyədə 2, İtaliyada 1 nəfər deputatımız səfərdə olub və Avropa İttifaqı-Azərbaycan parlament əməkdaşlığı komitəsinin 4 üzvü Strasburqa ezam olunub.

Milli Məclisin Sədri xatırladıb ki, yanvar ayının 19-da Avropa Parlamentində Azərbaycana qarşı növbəti çirkin siyasi aksiya təşkil edilib, yalan və saxta məlumatlar üzərində qurulan bir qətnamə qəbul olunub.

Bununla əlaqədar Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin və Avropa İttifaqı-Azərbaycan parlament əməkdaşlığı komitəsinin Azərbaycandan olan üzvləri bəyanat qəbul ediblər.

Bəyanatda Avropa Parlamentinin qətnaməsinin qeyri-obyektiv və qərəzli xarakter daşıması tutarlı faktlarla sübut edilib.

O da bildirilib ki, bilik və təcrübə mübadiləsi, həmçinin dövlət qulluqçularının peşə bacarıqlarını artırmaq məqsədlə yanvar ayının ortalarında Milli Məclis Aparatının 10 əməkdaşı Ankara şəhərinə ezam olunub və Türkiyə Böyük Millət Məclisi Aparatının fəaliyyəti ilə yaxından tanış olublar.

Spiker çıxışında Milli Məclisin indiyədək əldə etdiyi uğurlarını bu sessiyada da davam etdirəcəyinə və daha da artıracağına əminliyini ifadə edib. O deyib ki, yaz sessiyasında bizi çox işlər gözləyir.

Milli Məclisin Sədri deyib ki, bu sessiya və il ərzində fəaliyyətimizin ən mühüm mövzusu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı tədbirlər olacaq. Heydər Əliyev Azərbaycan xalqının minillik tarixi ərzində yetişdirdiyi ən böyük siyasi və dövlət xadimlərindən biridir.

Azərbaycanın ən yeni tarixinin otuz ildən artıq bir dövrü bu böyük şəxsiyyətin fəaliyyəti ilə sıx bağlıdır. Onun xidmətləri sayəsində xalqımız əvvəlcə siyasi və iqtisadi müstəqilliyinin möhkəm təməlini yaratmış, daha sonra isə müstəqil dövlətini qurmaq, qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bilmişdir. Bugünkü qüdrətli Azərbaycan Ulu Öndərin xalqa məhəbbətinin, Vətən yolunda fədakarlığının parlaq nişanəsidir. Artıq həm Milli Məclisin, həm də komitələrin yubileylə bağlı tədbirlər planları hazırlanıb.

Spiker qeyd edib ki, parlamentin Ulu Öndərin əziz xatirəsinə həsr olunan xüsusi iclası keçiriləcəkdir. Yubiley münasibəti ilə bir sıra önəmli tədbirlərin təşkil edilməsi də nəzərdə tutulur.

Milli Məclisin yaz sessiyasının qanunvericilik işləri planı barədə danışan Sahibə Qafarova diqqətə çatdırıb ki, işlər planı hazırlanıb və iclasda müzakirə olunacaq. Bu sessiyada biz qanun layihələrini müzakirə etməklə yanaşı, konstitusiyanın tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatını dinləyəcəyik.

Bundan əlavə, Milli Məclisin iclaslarından birində 2022-ci ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Həmçinin sessiyada Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun illik hesabat, məlumat və məruzələri də dinləniləcək.

Bildirilib ki, Milli Məclisin beynəlxalq əlaqələrini daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün lazımi tədbirlər görüləcək. Bu məqsədlə üzv olduğumuz beynəlxalq təşkilatlarda fəaliyyətimiz yenə də ardıcıl olaraq davam etdiriləcək, bir sıra xarici səfərlər həyata keçiriləcək, xarici ölkələrin parlament sədrləri və nümayəndə heyətləri isə Bakıda qonaq olacaqlar.

Çıxışının sonunda Milli Məclisin Sədri parlamentin yaz sessiyasının yüksək səviyyədə keçəcəyinə əminliyini ifadə edib və deputat həmkarlarına uğurlar arzulayıb.

Sonra iclasın gündəliyi təsdiqlənib və cari məsələlərin müzakirəsinə başlanılıb. Komitə sədri Zahid Oruc, deputatlar Kamran Bayramov, Nizami Səfərov, Elnur Allahverdiyev, Əminə Ağazadə, Elşən Musayev, Afət Həsənova, Elman Nəsirov, Vüqar Bayramov, Fəzail Ağamalı yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş terror aktı barədə fikirlərini açıqlayıblar. Deputatlar bu xain terror aktını qətiyyətlə pisləyərək, onun obyektiv şəkildə araşdırılmasını və təqsirkarların müəyyən edilərək cəzalandırılmasını tələb ediblər. Qeyd edilib ki, bu hadisə beynəlxalq hüquq normalarının pozulması kimi qiymətləndirilməlidir. Deputatlar Azərbaycan səfirliyinə olan hücumun ikitərəfli münasibətlərə ciddi təsir etdiyini və bu hadisəyə görə İran dövlətinin məsuliyyət daşıdığını söyləyiblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasda 21 məsələ müzakirə olunacaq. Əvvəlcə Milli Məclisin 2023-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi müzakirə olunub. Məsələ ilə bağlı müzakirələrdə çıxış edən komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlardan Qüdrət Həsənquliyev, Fazil Mustafa, Jalə Əliyeva,Vahid Əhmədov, Əliabbas Salahzadə, Bəhruz Məhərrəmov, Etibar Əliyev, Əziz Ələkbərov yaz sessiyasının qanunvericilik işləri planı haqqında fikirlərini açıqlayıblar. Yekunda Milli Məclisin 2023-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova 2-ci məsələ ilə əlaqədar bildirib ki, Daxili Nizamnamənin 41-ci maddəsinə uyğun olaraq, Milli Məclisin İntizam komissiyası yenidən yaradılmalıdır.

İntizam komissiyasının yaradılması haqqında qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri 3-cü məsələ ilə bağlı qeyd edib ki, Daxili Nizamnamənin 40-cı maddəsinə əsasən, Milli Məclisin Hesablayıcı Komissiyası da yenidən yaradılmalıdır.

Hesablayıcı komissiyanın yaradılması haqqında qərar layihəsi də səsə qoyularaq qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məzahir Əfəndiyev "İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında qanun layihəsini təqdim edib. Qeyd edilib ki, İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Tədqiqat Mərkəzinin Nizamnaməsi 2021-ci il martın 4-də keçirilmiş 14-cü Zirvə Toplantısı zamanı imzalanıb. O, Tədqiqat Mərkəzinin yaradılmasının Azərbaycanda "Heydər Əliyev İli"nə təsadüf etməsinin xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Qeyd edib ki, 2002-ci ildə təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının İstanbulda keçirilmiş zirvə görüşündə Bakı şəhərində Tədqiqat Mərkəzinin yaradılmasına dair təklif məhz Ulu Öndər Heydər Əliyev tərəfindən səsləndirilmişdir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə bu komitənin müsbət rəyini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra "GUÖAM iştirakçısı olan dövlətlər arasında azad ticarət zonasının yaradılması haqqında Sazişə dair malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları barədə Protokol"un təsdiq edilməsi haqqında və Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenası haqqında" 155 nömrəli Konvensiyasının təsdiq edilməsi barədə və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri təsdiq edilib.

Milli Məclisin Sədri nəzərə çatdırıb ki, müvafiq Konstitusiya qanununun tələbinə əsasən, gündəliyin 8-ci, 9-cu və 10-cu məsələləri bir oxunuşda qəbul ediləcək.

Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən "Tibbi sığorta haqqında" qanunda edilməsi nəzərdə tutulan dəyişiklik icbari tibbi sığortada müştərək maliyyələşmənin tətbiqinin 2024-cü ilin yanvarın 1-nə qədər təxirə salınması ilə bağlıdır. Bu qanunun 15-28.3 və 15-28.4-cü maddələrinə əsasən, sığortaolunan ilkin tibbi-sanitariya yardımına müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə və ya icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə etmək məqsədilə yönləndirildiyi tibbi ərazi bölməsindən kənar yerləşən dövlət tibb müəssisəsinə müraciət etdikdə müştərək maliyyələşmə məbləği ödəməlidir. Əhalinin tibbi xidmətlərə əlçatanlığı və icbari tibbi sığorta üzrə işlərin görülməsi və sistemin formalaşdırılması məqsədilə layihədə qanunun qeyd olunan müvafiq maddələrinin tətbiqinin 2024-cü il 1 yanvar tarixinə kimi təxirə salınması nəzərdə tutulub.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, cari ilin əvvəlində Prezidentin müvafiq fərman və sərəncamları ilə ölkə üzrə 4-cü dərin sosial islahatlara start verilib. Bütün kateqoriyalardan olan vətəndaşların pensiyalarının sığorta hissəsi artırılıb. Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda vahid tarif cədvəli üzrə çalışanların, habelə özəl sektorda çalışan 450 mindən çox insanın da əməkhaqları artırılıb. Komitə sədri diqqətə çatdırıb ki, qanun layihəsində təklif edilən dəyişikliyə əsasən, əmək pensiyasının minimum məbləği 2023-ci il fevralın 1-dən 280 manat məbləğində müəyyən olunur. Dəyişiklik ölkə Prezidentinin sosial islahatlarının vahid tərkib hissəsidir və vətəndaşlarımızın sosial rifahının gücləndirilməsinə xidmət edəcək.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Qısa fasilədən sonra Milli Məclis işini davam etdirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd olunub ki, adı çəkilən qanunun 2-ci maddəsində nəzərdə tutulan yoxlamalar istisna olmaqla, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2023-cü il yanvarın 1-dək dayandırılmışdır. Dəyişikliyə əsasən, həmin müddətin 2024-cü il yanvarın 1-dək uzadılması nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sahibə Qafarova bildirib ki, gündəlikdəki növbəti 11 qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirilib ki, dəyişikliklərə əsasən, "Fövqəladə vəziyyət haqqında" qanuna sosial xarakterli fövqəladə mühit rejiminin hüquqi əsaslarını müəyyən edən yeni fəslin əlavə edilməsi nəzərdə tutulub. Layihədə sosial xarakterli fövqəladə mühitin, həmçinin sosial xarakterli fövqəladə mühit rejiminin anlayışları verilib. Müəyyən olunur ki, sosial xarakterli fövqəladə mühit Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində əhalinin həyat fəaliyyəti şəraitinin pozulmasına, o cümlədən insanların ölümünə, əhalinin sağlamlığına, əmlaka və ya ətraf mühitə əhəmiyyətli dərəcədə zərərin vurulmasına səbəb olan və ya səbəb ola bilən fövqəladə halların nəticəsində yaranan, lakin fövqəladə vəziyyətin tətbiq edilməsinə əsas hesab edilməyən mühitdir. Sosial xarakterli fövqəladə mühit rejimi isə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi məhdudlaşdırılmadan belə, fövqəladə mühitin aradan qaldırılması ilə bağlı dövlət orqanları tərəfindən təxirə salınmadan və qarşılıqlı əlaqəli şəkildə tədbirlərin həyata keçirilməsini təmin edən xüsusi hüquqi rejimdir. Sosial xarakterli fövqəladə mühit rejimi müvafiq icra hakimiyyəti orqanının normativ-hüquqi aktı ilə Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində tətbiq edilir.

Bu tədbirlərin təxirəsalınmadan və qarşılıqlı əlaqəli şəkildə həyata keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət komissiya yaxud qərargah yaradılır.

Layihə qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla üç qaydanın təsdiq edilməsi nəzərdə tutulur. Bunlar sosial xarakterli fövqəladə mühitin aradan qaldırılması üzrə komissiyanın, yaxud qərargahın fəaliyyət qaydası, sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqi zamanı həmin fövqəladə mühitin aradan qaldırılması üzrə tədbirlərin növləri və həyata keçirilməsi qaydası və dövlət ehtiyatlarının yaradılması, istifadə edilməsi və bərpası qaydasıdır.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, qanun layihəsi Azərbaycan Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"da nəzərdə tutulan məqsədlərin həyata keçirilməsinə xidmət edir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim edib. Bildirilib ki, hər iki sənəd "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2021-ci il 15 iyul tarixli fərmanının icrası çərçivəsində kənd təsərrüfatı təyinatlı torpaqlardan, o cümlədən örüş, otlaq və biçənək üçün torpaq sahələrindən istifadə sahəsində mövcud problemlərin aradan qaldırılması, torpaqların icarəyə və istifadəyə verilməsi mexanizminin təkmilləşdirilməsi və bu sahədə nəzarətin gücləndirilməsi məqsədilə hazırlanıb.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrinə dair məlumat verib. Bildirilib ki, qanun layihələri ölkəmizdə nəqliyyat sahəsinin daha da təkmilləşdirilməsi və bu istiqamətdə dövlət siyasətinin aparılması üçün hədəflərə çatmaqda yeni alətlərin yaradılmasını və mühitin təkmilləşdirilməsini özündə ehtiva edir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda daha sonra "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə mülki hüququn institutu olaraq borc müqaviləsi və onun tərkib hissəsi olan kredit müqaviləsi üzrə münasibətlərin mülki qanunvericilik çərçivəsində tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi, xüsusilə bu sahədə borcalanların hüquqlarının qorunmasının təmin edilməsi, habelə məcəllənin əqdlərlə və öhdəliklərlə bağlı bəzi normalarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Kredit ittifaqları haqqında", "Tütün və tütün məmulatı haqqında", "Banklar haqqında" və "Bank olmayan kredit təşkilatları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb. Qeyd olunub ki, "Kredit ittifaqları haqqında", "Tütün və tütün məmulatı haqqında", "Banklar haqqında" və "Bank olmayan kredit təşkilatları haqqında" qanunlara müvafiq uyğunlaşdırıcı müddəa əlavə edilir. Ailə Məcəlləsində isə dəqiqləşdirmə xarakterli düzəliş edilərək "kredit idarələri" ifadəsi "kredit təşkilatları" ifadəsi ilə əvəz olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri sarsılmazdır



**Fevralın 1-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Türkiyə arasında olan qardaşlıq münasibətlərindən danışıb. O bildirib ki, dövlət başçılarımızın yüksəksəviyyəli dostluğu sayəsində bu gün biz həyatın bütün sahələrində yaxın əməkdaşlıq əlaqələri qurmuşuq. Səməd Seyidov qarşılıqlı səfərlərin bu münasibətlərin möhkəmlənməsinə xidmət etdiyini deyərək, səfərin əlaqələrimizin daha da genişlənməsinə öz töhfəsini verəcəyinə inamını bildirib.

Komitə sədri Azərbaycan və Türkiyə arasında parlamentlər səviyyəsində də əməkdaşlığın yüksək səviyyədə olduğunu, parlamentarilərimizin beynəlxalq təşkilatlarda bir-birilərini dəstəklədiyini qeyd edib. O, İrandakı səfirliyimizə qarşı törədilmiş terror aktı ilə bağlı Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında bəyanat yayarkən, Azərbaycan nümayəndə heyətinə Türkiyə millət vəkillərinin yaxın dəstəyini qeyd edib. Səməd Seyidov Azərbaycan və Türkiyə müttəfiqliyinin, xarici siyasət sahəsində əməkdaşlığının qlobal və regional miqyasda sülhün qorunması üçün əhəmiyyətini vurğulayıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycana səfəri çərçivəsində keçirdiyi görüşlər, xüsusən Prezident İlham Əliyev ilə keçirilən görüş barədə xoş təəssüratlarını bölüşüb. O, Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması xəbərini böyük sevinc hissi ilə qarşıladıqlarını dilə gətirib. Şamil Ayrım Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin və Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illik yubileyinin üst-üstə düşməsini əlamətdar hadisə kimi dəyərləndirib, Ümummilli Liderlə bağlı xatirələrini bölüşüb.

Görüşdə Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva, komitə üzvləri Asim Mollazadə, Tural Gəncəliyev, Ramin Məmmədov, Nigar Arpadarai, Rasim Musabəyov, Nəsib Məhəməliyev, Elman Nəsirov, Kamran Bayramov, TBMM-in millət vəkilləri Yaşar Karadağ, Orhan Erdem, Yunus Kılıç, Tülay Kaynarca, Uğur Bayraktutan iki ölkə arasında dinamik inkişaf edən dostluq və əməkdaşlıq münasibətləri barədə fikirlərini bölüşüblər. Deputatlar ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini vurğulayıblar, bu əməkdaşlığın regionda və dünyada sülhün möhkəmləndirilməsinə verəcəyi töhfələrlə bağlı fikirlərini səsləndiriblər.

Söhbət zamanı Türkiyə və Azərbaycan arasında müttəfiqlik münasibətlərinin sarsılmaz olduğu bildirilib, iki ölkə arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan və İsrail müdafiə nazirləri arasında telefon danışığı olub





Fevralın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantın təşəbbüsü ilə telefon danışığı olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan-İsrail əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayan Y.Qallant ölkələrimiz arasında mövcud münasibətlərdən məmnunluğunu ifadə edib. General-polkovnik Z.Həsənov Y.Qallantı İsrail Dövlətinin müdafiə naziri təyin olunması münasibətilə təbrik edərək ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın genişlənəcəyinə əminliyini bildirib.

Danışıq zamanı tərəflər regional təhlükəsizlik məsələlərini, eləcə də ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

# Azərbaycanın və Uqandanın xarici işlər nazirləri telefonla danışıblar





Fevralın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Uqanda Respublikasının xarici işlər naziri Odonqo Cece Abubakar arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan ilə Uqanda arasında ikitərəfli münasibətlərin perspektivləri və Qoşulmama Hərəkatı (QH) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Nazir Ceyhun Bayramov iki ölkə arasında Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalar çərçivəsində səmərəli əməkdaşlıq gündəliyinin mövcudluğuna məmnunluqla istinad edib. Bu xüsusda cari ilin mart ayında Bakıda keçiriləcək Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşü formatında iclasına dair hazırlıq işləri barədə qarşı tərəfə ətraflı məlumat verilib. Azərbaycanın 2019-cu ildən bəri hərəkata uğurla sədrlik etməsi, habelə təşkilatın inkişafına töhfə verilməsi istiqamətində göstərdiyi qlobal təşəbbüslər məmnunluqla xatırlanıb. Bu xüsusda Azərbaycanın təşkilata uğurlu sədrlik təcrübəsinin hərəkatın növbəti sədri qismində Uqanda ilə bölüşülməsinin vacibliyi qeyd olunub.

Tərəflər eyni zamanda 2023-cü ilin dekabrında Uqandanın Kampala şəhərində keçirilməsi nəzərdə tutulan Qoşulmama Hərəkatının 19-cu Zirvə Görüşünə hazırlıq məsələlərini müzakirə ediblər.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Azərbaycan-Macarıstan tərəfdaşlığı: gündəmdə birinci enerjidir*

## Prezident İlham ƏLİYEV: "Macarıstan Azərbaycan qazının təkcə istehlakçısı deyil, eyni zamanda Azərbaycan qazını digər Avropa ölkələrinə tranzit edən ölkə kimi fəaliyyət göstərəcək"

Azərbaycanla Macarıstan arasında hərtərəfli əlaqələr getdikcə genişlənir və bunların sırasında iqtisadi münasibətlər xüsusi yer tutur. Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri həmin əməkdaşlığın inkişafına yeni bir təkan verdi. Bunu səfər çərçvəsində iqtisadi sahələri də əhatə edən bir sira mühüm sənədlərin imzalanması bir daha təsdiqləyir.

Məlum olduğu kimi, dövlətimizin başçısı və Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışlar. Daha sonra müvafiq nazirliklərin rəhbərlərinin imzaladığı sənədlər sırasında təbii qaz əməkdaşlığı haqqında anlaşma memorandumu özünə yer almışdır. Eləcə də iki ölkə arasında bitki karantini və bitki mühafizəsi sahəsində, dinc məqsədlərlə kosmik tədqiqat və kosmik fəaliyyətlərdə əməkdaşlıq haqqında anlaşma memorandumları imzalanmışdır.

Hələ Macarıstan Prezidenti xanım Katalin Novak ilə geniş tərkibdə görüş zamanı dövlətimizin başçısı bildirmişdir ki, enerji məsələri gündəlikdə birinci yerdədir və imzalanacaq anlaşma memorandumu qaz təchizatı sahəsində əməkdaşlığa başlamaq üçün mühüm addımdır. İmzalanmadan sonra mətbuata bəyanatında da dövlətimizin başçısı bunu bir daha vurğulamışdır: "Uzun illər ərzində apardığımız uğurlu siyasət, birgə addımlar bu gün enerji sahəsində əməkdaşlıq üçün də çox güclü zəmin yaratdı. Cənab Baş nazir xatırlatdı ki, vaxtilə NABUKKO layihəsi üzərində böyük işlər aparılmışdı. Ancaq maliyyə mənbələri müəyyən edilmədiyi üçün NABUKKO layihəsi icra edilmədi. Buna baxmayaraq, Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə iki il bundan əvvəl "Cənub qaz dəhlizi" icra edildi. Bu, çox müasir enerji infrastrukturudur, uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır. Keçən il Avropa Komissiyası ilə imzaladığımız sənədə əsasən, biz qaz təchizatımızı iki dəfə, bəlkə, ondan da çox artırmağı planlaşdırırıq. Bunun üçün resurslar da var, siyasi iradə də var və tərəfdaşlarımızla təmaslar da var".

Azərbaycan qazının ixrac marşrutlarının şaxələndirilməsi vaxtilə həyata keçirilə bilməyən NABUKKO-nu da indi bir növ canlandırır. Yəni qaz interkonnektorlar vasitəsilə Bolqarıstana, sonra Rumıniyaya, Macarıstana və buradan da digər Avropa ölkələrinə çatdırılacaq. Beləliklə, Macarıstan təkcə Azərbaycan qazının istehlakçısı deyil, eyni zamanda onu tranzit edən ölkə kimi də fəaliyyət göstərəcək.

Aydın məsələdir ki, bu gün enerji təhlükəsizliyi bütün dünyada xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın zəngin karbohidrogen ehtiyatları imkan verir ki, təbii qazla bağlı ən azı yüz il bundan sonra Avropa ilə tərəfdaş olsun. Ölkəmizin bu istiqamətdə gördüyü işlərə görə Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı məhz etibarlı tərəfdaş adlandırır .

İndi artıq "yaşıl enerji" üzrə geniş əməkdaşlığa start verilib və Macarıstan da bir sira ölkələr kimi bu məsələnin mərkəzindədir. Keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması buna aydın misaldır. Təbii ki, hər hansı bir ixrac layihəsinin həyata keçirilməsi öncədən genişmiqyaslı işlərin görülməsini, infrastrukturun yaradılmasını tələb edir. Elektrik enerjisinin ötürülməsinin də özünəməxsus çətinlikləri və spesifik cəhətləri var. Belə ki, bərpaolunan enerjinin inteqrasiya edilməsi üçün münasib interkonnektorlara ehtiyac yaranır. Buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

Prezident İlham Əliyev bu il yanvarın 30-da Budapeştdə həmin məsələ barədə demişdir: "Yaxın keçmişdə aşkarlanan böyük "yaşıl enerji" potensialı da Azərbaycanın önəmini daha da artırır. Əlbəttə ki, "yaşıl enerji" ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək... Keçən ay imzalanmış sazişə əsasən, Azərbaycan "yaşıl enerji"sini Avropaya çatdıracaq və bu gün bu məsələlər bir daha müzakirə edildi. Bir neçə gündən sonra Bakıda keçiriləcək birinci rəhbər komitədə bu layihədə cəmləşən ölkələr - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya bir araya gələrək gələcək fəaliyyətin konsepsiyası üzərində işləməyə başlayacaqlar".

Bunun böyük sərmayə tələb edən layihə olduğu da vurğulanmışdır. Əslində, bu həm "yaşıl enerji"nin istehsalı, ötürülməsi, bazarlara çatdırılması, həm də Qara dənizin dibi ilə kabelin çəkilməsi layihələrini əhatə edir. Odur ki, ciddi koordinasiya tələb olunur. Bakıda keçiriləcək toplantıda məhz bu istiqamətdə ilkin addım atılacaq .

Dövlətimizin başçısı Macarıstanla əməkdaşlığın böyük hissəsinin enerji məsələlərinə həsr olunmasını qeyd etməklə yanaşı, təkcə bu məsələlərlə məhdudlaşmadığını da vurğulamışdır. Belə ki, eyni zamanda nəqliyyat sahəsində böyük planlar həyata keçirilir. Dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlanıb. Bu layihənin də böyük potensialı var. Ölkəmizin nəqliyyat infrastrukturu - tankerlər, gəmilər, böyük dəniz ticarəti limanı, dəmir yolları müasirdir və bütün lazımi tələblərə cavab verir. Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkə olsa da, Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilə bilər. Odur ki, Avropa ölkələri ilə və xüsusilə ən yaxın tərəfdaşlarımızdan biri olan Macarıstanla əməkdaşlıq üçün geniş imkanlar var.

Əməkdaşlıq üçün vacib olan digər sahə minatəmizləmə ilə bağlıdır. Çünki ölkəmiz erməni vandallarının bəd əməlləri nəticəsində bu sahədə böyük problemlərlə üzləşib. Macarıstanın minatəmizləmədə təcrübəsi nəzərə alınaraq əməkdaşlıq üçün yaxşı imkanlar görünür. Düşmənin Qarabağ və Şərqi Zəngəzurdakı yaşayış məntəqələrimizi yerləyeksan etdiyi də artıq bütün dünyaya bəllidir. Macarıstanın şəhərsalma sahəsində böyük təcrübəsi olduğu üçün bu sahədə də əməkdaşlığa dair yaxın gələcəkdə konkret layihələrin müzakirəsinə başlanacaq.

Budapeşt görüşlərində Macarıstanın və Azərbaycanın iki dost və tərəfdaş ölkə kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklərinə, həm də təmsil olunduqları beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi bir-birindən əsirgəməyəcəklərinə bir daha inam ifadə olunmuşdur.

***Flora SADIQLI, "Azərbaycan"***

# XİN Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycanın sorğusu üzrə keçirilən dinləmələrlə bağlı məlumat yayıb

Yanvarın 31-də Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işi üzrə (Azərbaycan Ermənistana qarşı) əlavə müvəqqəti tədbirlərin müəyyən edilməsi məqsədilə Azərbaycanın sorğusu üzrə açıq dinləmələr keçirilib.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, dinləmələr Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki ərazilərində minaların və partlayıcı tələlərin qəsdən yerləşdirilməsinin davam etməsi nəticəsində "artan itkilərin qarşısını almaq üçün təcili tədbirlər görmək" məqsədilə Azərbaycanın məhkəməyə bu il yanvarın 4-də ikinci müraciəti ilə əlaqədar təşkil olunub. 2020-ci ildə münaqişə başa çatdıqdan sonra böyük əksəriyyətinin mülki şəxslər, o cümlədən 2 jurnalist olmaqla 282 nəfər azərbaycanlı mina və ya digər partlayıcı qurğuların qurbanı olub.

Azərbaycanın müraciətində Ermənistan tərəfindən 2021-ci ilin oktyabrında Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edilmiş məlumatlara zidd olaraq və hətta 2020-ci ilin noyabr ayında üçtərəfli Bəyanata əsasən bütün hərbi əməliyyatların dayandırılması ilə bağlı razılığa gəldikdən sonra belə Azərbaycan ərazisində minalar yerləşdirməyə davam etdiyini göstərən yeni sübutlar əks olunub. Azərbaycanda 2022-ci ilin avqustundan etibarən 2021-ci il Ermənistan istehsalı 2700-dən çox mina aşkar edilib. Ermənistanın davranışı İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın və digər beynəlxalq qanunlar üzrə öhdəliklərinin kobud şəkildə pozulmasıdır.

Azərbaycan ərazisinə qeyri-qanuni olaraq gətirilmiş bu minaların 1600-ü, həmçinin mina tələlər Ermənistanın etnik təmizləmə kampaniyası və Azərbaycan ərazilərinin qanunsuz işğalı nəticəsində 30 il əvvəl azərbaycanlıların qovulduğu mülki ərazilərə basdırılaraq, bu məcburi köçkün ailələrinin və icmaların öz evlərinə geri qayıtmasının qarşısını alıb.

Məcburi köçkünlərimizin öz evlərinə qayıtmasına imkan yaratmaq məqsədilə Azərbaycanın Laçın və Kəlbəcər rayonlarının və əvvəllər işğal olunmuş digər rayonlarının azərbaycanlı mülki şəxslərin qayıdacaqları şəhər, kənd və digər ərazilərində minaların, mina tələlərin və hər hansı bir digər partlayıcı qurğuların yeri, miqdarı, növü və xüsusiyyətləri barədə məlumat verməklə Azərbaycanın operativ, təhlükəsiz və effektiv şəkildə minalardan təmizlənməni həyata keçirməsi istiqamətində Ermənistan tərəfindən dərhal bütün lazımi addımlar atılması Beynəlxalq Ədalət Məhkəməsindən sorğu edilib.

Azərbaycan həmçinin Laçın yolundan istifadə etmək də daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, Azərbaycan ərazisində azərbaycanlı mülki vətəndaşların qayıdacaqları bu ərazilərdə mina və mina tələləri basdırmaq və ya onlara sponsorluq etmək və ya onların yerləşdirilməsini dəstəkləmək üçün hər hansı növbəti səyləri dərhal dayandırması və bundan imtina etməsi ilə bağlı Ermənistana göstərişin verilməsini məhkəmədən xahiş edib.

Bundan əvvəl, 7 dekabr 2021-ci il tarixdə məhkəmə Ermənistanın davam edən İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın pozuntularına qarşı qorunmaq üçün müvəqqəti tədbirlər haqqında Azərbaycanın ilk sorğusunu təmin edərək, azərbaycanlılara qarşı yönəlmiş irqi nifrətin qızışdırılmasının və təşviqinin qarşısını almaq üçün bütün lazımi tədbirləri görməyi Ermənistana tapşırmışdı.

# *Ombudsman:* "Avropa ölkələrində islamofobiyanın yayılmasından narahatıq"

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva İsveçin bərabərlik üzrə ombudsmanı Lars Arrheniusa Stokholmda Türkiyə səfirliyi qarşısında müqəddəs "Qurani-Kərim"in yandırılması ilə bağlı məktub ünvanlayıb.



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Səbinə Əliyeva Avropa ölkələrində islamofobiyanın yayılmasından narahatlıq duyduğunu ifadə edərək, törədilən əməlin müsəlmanların dini-etiqad azadlığını pozduğunu, həmçinin Avropada ayrı-seçkilik, dözümsüzlük və islamofobiya ilə mübarizənin arzuolunan səviyyədə olmadığını göstərdiyini bildirib.

Məktubda İslam dininə bu cür hörmətsizliyə qarşı İsveç polisinin etinasız münasibətinin qəbuledilməz olduğu vurğulanıb. Eyni zamanda insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud beynəlxalq sənədlərdə təsbit olunmuş vicdan və din azadlığı hüququnun təmini və müdafiəsi sahəsində dövlətlərin öhdəlik daşıdığı diqqətə çatdırılıb.

Yekunda Azərbaycan ombudsmanı belə hadisələrin gələcəkdə təkrarlanmaması və dini nifaq yaradan əməllər törədən şəxslərin ədalət mühakiməsinə cəlb edilməsi üçün İsveçin bərabərlik üzrə ombudsmanı tərəfindən lazımi addımların atılacağına ümidvar olduğunu qeyd edib.

# 2 Fevral Gənclər Günüdür



**"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir!"**



# Etibarlı gənclik ümid işığıdır

## Gənclər siyasətinin təməl prinsipləri tarixi kontekstdə

Ümummilli Lider Heydər Əliyevin gələcəyə hədəflənmiş bu fikirləri Azərbaycan dövlətinin gənclər siyasətinin ideoloji əsasını təşkil edir. Azərbaycan gəncliyi müstəqilliyimizin əbədi və dönməz olması üçün gələcək hədəflər haqqında düşünür, çalışır, vuruşur, yeri gəldikdə canından belə keçir. Bu cür vətənpərvər gənc nəslin yetişdirilməsi uzunmüddətli davamlı strateji siyasətin nəticəsidir.

### Gənclərə diqqət və qayğı nümunəsi

Azərbaycanda məqsədyönlü gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərə güvənib, onların cəmiyyətin bütün sahələrində inkişafına şərait yaradıb. Onun siyasi irsini öyrəndikcə Azərbaycan gəncliyinə necə böyük diqqət və qayğı göstərdiyinin şahidi oluruq. Bu siyasətin davamı olaraq müasir cəmiyyətimizdə elə bir sahə yoxdur ki, orada gənclər layiqincə təmsil olunmasınlar. Bu siyasətin təməli hələ sovet dönəmində qoyulmuşdur. Bütün dövrlərdə ölkələrin inkişafı onun təhsilli, savadlı və qabiliyyətli gəncləri ilə bağlıdır. Bu konteksdən baxanda görürük ki, Heydər Əliyevin təşəbbüsü ilə təhsil almaq üçün 1970-1985-ci illər ərzində SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilmişdir. Həmin dövrdə hərbi sahədə təhsilin inkişafına xüsusi olaraq diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü. Çünki dahi rəhbər bilirdi ki, gələcək kosmik inkişafla bağlı olacaqdır. Bu gün onun düşüncələrində nə qədər haqlı olduğunu görürük.

Bununla bağlı bir misalı xatırladım. Heydər Əliyev ötən əsrin yetmişinci illərində Mərkəzi Komitədə təhsillə bağlı müşavirə zamanı təhsil nazirini və ali məktəb rektorlarını dinlədikdən sonra, Ümumqoşun Komandirləri Məktəbinin rəisini çıxışa dəvət edir. Və ona sual verir ki, tələbələr içərisində yerli əhalinin nümayəndələri nə qədərdir? Aldığı cavabdan, yəni azərbaycanlıların hərbi təhsilə zəif cəlb olunmasından çox narazı qalan Heydər Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisini çox kəskin surətdə məzəmmət edir və ona konkret tapşırıqlar verir.

Bir müddətdən sonra eyni məzmunlu müşavirədə Heydər Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisini yenə xitabət kürsüsünə dəvət edərək bu mühüm işin gedişi, xüsusilə yerli əhalinin faizi ilə maraqlanır. Müəyyən irəliləyiş olmasına baxmayaraq, Ulu Öndər yenə narazı qaldığını bildirir və deyir: *"Yerli əhalinin nümayəndələrini təyyarəçilik məktəblərinə göndərmək lazımdır. Təyyarəçilər hazırlamaq lazımdır. Bu günlərdə kosmonavtlar dəstəsinin tərkibi ilə maraqlandım. Dəstəyə bir nəfər də olsun azərbaycanlının cəlb olunmamasından narazılığımı bildirdim. Mənə məlumat verdilər ki, kosmonavtlar dəstəsinə ancaq təyyarəçilik məktəblərini bitirənləri götürürlər. Bu məsələ ilə də maraqlandım. Aydın oldu ki, SSRİ-nin təyyarəçilik məktəblərində Azərbaycanın yerli əhalisinin bir nəfər də olsun nümayəndəsi təhsil almır. Bəs siz hara baxırsınız?!"*

Azərbaycanın gələcək inkişafına yönəlmiş strateji əhəmiyyətli bütün işlərə Heydər Əliyev şəxsən başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra müstəqillik dövründə müasir çağırışlara cavab verən yeni gənclər siyasətinin strateji hədəflərini və əsas prioritetlərini müəyyən etdi. Nəzərə alsaq ki, 1988-ci ildən 1993-cü ilə qədər gənclərin ictimai-siyasi proseslərdə fəal iştiraka cəhd etməsinə baxmayaraq, müəyyən səbəblərdən onların potensialı lazımınca qiymətləndirilmirdi. Ölkənin gənclər siyasəti demək olar ki, yox idi. Həmin dövrdə qeyri-sağlam ictimai-siyasi vəziyyət bütün sahələrdə olduğu kimi, təhsil sisteminin də yararsız hala düşməsinə gətirib çıxarmışdı. Gəncliyin başlı-başına buraxılması, onlardan həm iqtidar-müxalifət kimi, həm də müxtəlif maraqlı qrupların hakimiyyət uğrunda amansız mübarizələri fonunda potensialından sui-istifadə edilməsi halları gəncliyin mənəvi-psixoloji böhran vəziyyətinə düşməsinə və sabaha inam hissinin itirilməsinə səbəb olmuşdu. Lakin Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra bu vəziyyət kökündən dəyişdi. Ümummilli Liderimiz Heydər Əliyev ilk görüşlərindən birini məhz gənclərlə keçirdi. Ulu Öndər 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündə onlara dərin inam bəslədiyini ifadə etdi.

Ulu Öndər ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

Ulu Öndər Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfi deyil ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı.

Heydər Əliyev gənc nəslin düzgün tərbiyə edilməsində gənclər siyasətinin bir inzibati təsisat ətrafında birləşdirilməsinin zəruriliyini nəzərə alaraq 26 iyul 1994-cü ildə Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 26 yanvar 1996-cı il Ulu Öndər Heydər Əliyevin imzaladığı sərəncama əsasən, 2 fevral tarixində Azərbaycan gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil gənclərin qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsinə təkan oldu. Həmçinin Heydər Əliyevin 22 iyun 1996-cı il tarixli fərmanı ilə istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək məqsədilə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"nı və "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüdü təsis edildi.

### Ulu Öndərin yaratdığı əlamətdar tarix

Ulu Öndərin 2 fevral 1997-ci il tarixli fərmanı ilə fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən bu tarix MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

Gənclərə strateji siyasətin davamlılığı məqsədilə qanunvericilik bazasının möhkəmləndirilməsi ilə bağlı Ulu Öndər tərəfindən 29 iyul 1999-cu il tarixli "Dövlət gənclər siyasəti haqqında" fərman imzalanıb. 2002-ci ildə "Gənclər siyasəti haqqında" qanun qəbul edilib. Bununla da bu sahədə qanunvericilik bazası möhkəmləndirilib və dövlətin gənclər siyasəti daha da düzgün istiqamət alıbdı.

"Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir" - deyən Heydər Əliyev öz strateji məqsəd və hədəflərini aydın şəkildə göstərirdi. Dahi siyasətçi başqa bir kəlamında "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" söyləyirdi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Heydər Əliyevin gənclərə yönəlik siyasətini daha dinamik şəkildə davam etdirir.

### "Gənclər ili" töhfəsi

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda Gənclər Gününü təsis etdi, siyasi varisi İlham Əliyev tərəfindən 2007-ci il ölkədə "Gənclər ili" elan edildi. Bununla da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, gənclərin xidmətlərinin qiymətləndirilməsinə yönəlik siyasət daha da möhkəmləndi.

Prezidentin 2011-ci il 7 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Prezident İlham Əliyevin gənc idmançıların yetişdirilməsinə yönəlik siyasəti də öz uğurlu nəticələrini verməyə bilməzdi. Təsadüfi deyil ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə, 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bundan başqa, milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların əyani göstəriciləridir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafını, gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürüdülməsinin zəruriliyini nəzərə alan dövlət başçısı bu məqsədlə 26 yanvar 2015-ci il tarixdə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq etməklə bir daha diqqəti bu istiqamətə yönəltmişdir. Həmçinin Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair sərəncam imzalamışdır.

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan danışarkən 2 iyul 2013-cü tarixdə ölkədə ilk dəfə "Gənclər üçün Prezident mükafatı"nın təsis edilməsini qeyd etməmək mümkün deyil. Prezident mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10 min manat məbləğində verilməsi yaradıcı gəncliyə böyük dəstəkdir.

Gəncə şəhərinin 2016-cı ildə Avropa Gənclər Paytaxtı adına layiq görülməsini də gənclərlə bağlı uğurlu siyasətin nəticələrindən hesab etmək olar. Prezident İlham Əliyevin 24 fevral 2016-cı il tarixdə "Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında" sərəncam imzalaması sözügedən tədbirlərin layiqli keçirilməsinə dövlət dəstəyinin təzahürüdür.

Dövlət başçısının 26 iyul 2019-cu il tarixli sərəncamı ilə təsis edilən "Yüksəliş" müsabiqəsində intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi ölkədə kadr ehtiyatı bankının yaradılmasına gözəl bir töhfədir.

### Uğurlu siyasətin bəhrəsi

Hər bir siyasət öz nəticəsinə görə qiymətləndirilir. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın gənclər siyasəti möhkəm təməllər üzərində qurulub. "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" söyləyən Prezident İlham Əliyev gənclərlə özünün arasında qarşılıqlı etimadın olduğunu göstərir.

Hələ 2016-cı ildə cənab İlham Əliyev gənclərlə görüşündə deyirdi: "...1995-ci ildə artıq digər qruplaşma - xarici oriyentasiyadan olan qruplaşma yenə də dövlət çevrilişinə cəhd göstərmişdi. O cəhd də yatırıldı. Yenə də xalq küçələrə, meydanlara çıxıb hakimiyyəti, Heydər Əliyevi müdafiə etmişdir. 1996-cı il artıq sabitləşmə ili kimi tarixdə qalır. Təsadüfi deyil ki, 1996-cı ilin əvvəlində Gənclər Forumu keçirilmişdir. Mən bu tarixə nəyə görə qayıdıram? Çünki birincisi, bu, həqiqətdir. Dediyim sözlər və xüsusilə verdiyim qiymətlər ən diplomatik və yumşaq qiymətlərdir. Gənclər bunu bilmədidirlər ki, biz hansı vəziyyətdən çıxıb, hansı vəziyyətə gəlib çıxmışıq. Digər tərəfdən, əgər bu tarixi yaddan çıxarsaq, onda biz öz gələcək planlarımızı düzgün qura bilməyəcəyik. Biz bu gün güclü dövlət qururuq. O dövlət ki dünya miqyasında böyük hörmətə malikdir. Biz çalışmalıyıq və çalışırıq ki, inkişafımız dayanıqlı olsun. Buna nail olmaq üçün sadəcə güclü iqtisadiyyata malik olmaq kifayət deyil. Dayanıqlı inkişaf üçün gərək gələcəkdə ölkəmizi idarə edəcək insanlar da daim dövlətçiliyə, inkişafa töhfə versinlər. Siz gənclər gələcəkdə ölkəmizi idarə edəcəksiniz. Ölkəmizin taleyi sizdən asılı olacaqdır. Ona görə sizin fəaliyyətiniz, baxışlarınız və fikirləriniz gələcəkdə ölkəmiz üçün həlledici olacaq".

Danılmaz faktdır ki, bu gün Azərbaycan gəncləri cəmiyyətimizin ən fəal hissəsidir. Biz gənclərimizlə fəxr edirik. Onlar torpaq uğrunda, Vətən uğrunda vuruşaraq hərbi qələbəmizi şərtləndirdilər. Bu gün azad torpaqlarımızın cənnətə çevrilmə prosesində gənclər də fəal iştirak edirlər.

44 günlük Vətən müharibəsi ilə bağlı cənab Prezident deyib: "Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi". Bu fikirlər Azərbaycan gəncliyinin vətənsevər ruhda yetişdirilməsi istiqamətində aparılan siyasətin doğruluğunu təsdiq edir!

Azərbaycan gəncliyi gələcəyimizin təminatçısıdır! Yeni zirvələrdə sizləri görmək ümidi ilə Gənclər Gününüz mübarək!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Gənclər cəmiyyət həyatının bütün sahələrində təmsil olunurlar

Azərbaycanda hər bir sahədə həyata keçirilən dövlət siyasəti kompleks, ahəngdar və sistemli inkişafı uğurla təmin edərək respublikamızın yüksəlişinə yol açıb. Ölkəmizin sürətli yüksəlişinin əsas komponentlərindən biri insan kapitalının inkişafına xidmət edən addımlardır ki, bu sırada uğurla reallaşdırılan dövlət gənclər siyasətinin böyük rolu var. Fəxarət hissi ilə qeyd etməliyik ki, təməlləri 30 il əvvəl - 1993-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət möhtərəm Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Respublikamızın tarixindən bəlli olduğu kimi, müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qrupların səbatsızlığı gənclərlə iş sahəsindən də yan keçməmişdi. O illərdə neçə-neçə istedadlı gənc üzləşdiyi məhrumiyyətlər və diqqətsizlik ucbatından ölkəmizi tərk etmək məcburiyyətində qalıb. Ən ağrılısı da o olub ki, müstəqilliyimizin ilk illərində Azərbaycanı siyasi və iqtisadi böhranlara sürükləyənlər, düşmən dəyirmanına su tökənlər öz məqsədlərinə çatmaq üçün gənclərdən də bir vasitə kimi istifadə ediblər.

Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xalqın istək və arzusu ilə 1993-cü ildə siyasi hakimiyyətə gəlişindən sonra bu sahədə dönüş yaranmışdır. Təsadüfi deyil ki, Ulu Öndər 1993-cü ildə, hələ prezident seçilməmişdən əvvəl gənclərlə görüş də keçirmişdi. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan siyasi və iqtisadi böhranlardan, anarxiya girdabından qurtulduğu kimi, cəmiyyətin bütün zümrələrinin, o cümlədən gənclərin üzləşdiyi problemlərin həlli və gənc nəslin potensialından düzgün istifadə olunması dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Bu sahədə həyata keçirilən fəaliyyətin əlaqələndirilməsi, dövlət siyasətinin vahid mərkəzdən koordinasiya olunması məqsədilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldı.

1996-cı ildən başlayaraq isə gənclərin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə Azərbaycan Gənclərinin Forumu keçirilir. Bu forumun keçirilməsi təşəbbüsünü də 1995-ci ildə Heydər Əliyev irəli sürüb və ilk forum 2 fevral 1996-cı ildə keçirilib. Bu gün ilk forumun keçirilməsindən 27 il ötür. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını dəyərləndirərək 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında sərəncam imzalamışdır. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. İndiyə qədər Azərbaycan gənclərinin 9 forumu keçirilib və reallıq göstərir ki, hər bir forum gənclər hərəkatının daha da inkişafına böyük töhfələr verib.

Ümumiyyətlə, Azərbaycan dövləti gənclərin inkişafı, onların potensialının üzə çıxarılması, təhsili, cəmiyyət həyatında gedən proseslərə fəal cəlb olunması üçün hər zaman kompleks tədbirlər həyata keçirib. Hələ 2002-ci ildə qəbul edilən "Gənclər siyasəti haqqında" qanun ölkəmizdə gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, əsaslarını müəyyən edən, bu sahədə münasibətləri tənzimləyən mütərəqqi hüquqi bazadır. Gənc nəslin inkişafını xüsusi diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə isə dövlət gənclər siyasəti daha da təkmilləşdirilərək, məzmunca yeni mərhələyə qədəm qoyub. Ötən dövr ərzində ardıcıl şəkildə gənclərlə bağlı bir neçə proqramın qəbul edilməsi gənc nəslin problem və qayğılarının həllinə dövlətimizin diqqət və qayğısının təcəssümüdür. Bununla yanaşı, xaricdə təhsillə də bağlı dövlət proqramları qəbul edilib ki, bu da ölkəmizdə neft gəlirlərinin insan kapitalına çevrilməsi təşəbbüslərinin uğurla həyata keçməsindən xəbər verir. Prezident İlham Əliyev tərəfindən 2007-ci ilin ölkəmizdə "Gənclər ili" elan olunması isə gənclərin inkişafına yönəlmiş ali siyasi iradənin möhtəşəm təcəssümünə çevrildi. Bu faktın özü Prezident İlham Əliyevin gənc nəslin nümayəndələrinin layiqli vətəndaşlar kimi formalaşmalarına nə qədər diqqətlə yanaşdığını nümayiş etdirdi.

Gənclərin intellektual, fiziki və mənəvi inkişafı, onların respublikamızın siyasi, ictimai, iqtisadi, sosial və mədəni həyatına aktiv qoşulmalarını təmin etmək üçün Prezident İlham Əliyev 2015-ci ildə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı imzalayıb. Bu strategiya çərçivəsində ötən müddətdə həyata keçirilən dövlət gənclər siyasətinin qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsi təmin edilib. Regionlarda "Gənclər Evi"nin yaradılması, gənc ailələrin sosial qayğılarının dəstəklənməsi, gənclər üçün ipoteka şərtlərinin sadələşdirilməsi kimi məsələlər də gənc nəslin inkişafına və onların qayğılarının aradan qaldırılmasına xidmət edən mütərəqqi addımlardır.

Beləliklə, uğurlu dövlət siyasətinin nəticəsidir ki, indi gənclik cəmiyyət həyatının hər bir sahəsində fəal təmsil olunur. Bu gün Azərbaycan gənci siyasətçi, dövlət məmuru, alim, iş adamı, həkim, idmançı, hərbçi, dövlətimizi xaricdə layiqincə təmsil edən diplomatdır. Hansı sahəyə müraciət etsək, orada mütləq gənclərimizin imzasını tapmaq mümkündür. Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan gənci həm də vətənpərvərdir. Təsadüfi deyil ki, 2020-ci ilin Vətən müharibəsində əldə silah döyüşən oğullarımızın böyük bir hissəsini məhz gənclər təşkil edirdilər. O dövrdə döyüşlərdə iştirak etmək üçün səfərbərlik orqanlarına müraciət edənlər, əsasən, gənc nəslin nümayəndələri idi. Onlar Vətən müharibəsində öz qəhrəmanlıqları ilə Azərbaycan gəncinin vətən və torpaq sevgisini, fədakarlığını bütün dünyaya nümayiş etdirdilər. "Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir", - deyə Prezident İlham Əliyev ötən il fevralın 2-də Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər forumunda bildirib.

Azərbaycan dövləti gənclərin cəmiyyətdə gedən hər bir prosesdə fəal iştirakı, gənc nəsli düşündürən məsələlərin yoluna qoyulması üçün bütün addımları atır. Gənclik isə dövlət və cəmiyyət qarşısındakı milli və mənəvi borcunu, məsuliyyətini hər zaman düzgün dəyərləndirəcək, yaradılmış imkanlardan bəhrələnməklə yanaşı, hər bir ümummilli məsələyə özünün layiqli töhfəsini verəcək.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı, Naxçıvan Gənclər Fondunun icraçı direktoru***

2 Fevral Gənclər Günüdür



# Ümummilli Liderin gəncliyə mükafatı

**26 ildir ki, ölkəmizdə 2 Fevral Azərbaycan Gəncləri Günü kimi qeyd olunur. Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə 1997-ci ildən təsis olunan bu gün Azərbaycan gəncliyinə ərməğan edilmiş ən böyük mükafatdır. Bu gün həm də gəncliyimizin keçdiyi yolu, qazandığı nailiyyətləri və gələcəyə miras olaraq aparacağı dəyərləri xatırlaya biləcəyimiz tarixdir.**

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı və qısa zaman ərzində Azərbaycanı xaosdan çıxarması ilə çoxşaxəli inkişafa hesablanmış addımlar atılmağa başlandı. Təsadüfi deyil ki, ilk addımlardan biri də Azərbaycan gənclər siyasətinin əsasının qoyulması oldu. Gənclər və İdman Nazirliyinin təsis edilməsi, gənclərlə əlaqədar proqramların qəbul olunması, mütəmadi görüşlərin keçirilməsi, beynəlxalq standartlara uyğun təhsil proqramlarının qurulması - bütün bunlar gəncləri Azərbaycanın gələcəyi olaraq görən Ulu Öndərin müdrik siyasətinin əsas istiqamətləri idi.

Yaxın tarixə nəzər saldıqda ölkəmizdə sağlam gəncliyin formalaşmasına yönəlmiş addımların hələ Ümummilli Liderin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdən, 1969-cu ildən başlayaraq atıldığını görürük. 1982-ci ilə qədər olan bu dövrdə gənclərimiz SSRİ-nin ən nüfuzlu universitetlərində təhsil almağa göndərilir, güclü və müstəqil Azərbaycan üçün savadlı gənclər ordusu formalaşdırılırdı. Məhz Heydər Əliyevin bu siyasətinin nəticəsi idi ki, bu gənclər sonrakı illərdə ölkəmizin inkişafında aktiv rol oynadılar.

Ulu Öndər ölkənin tərəqqisini birbaşa olaraq gənclərin hərtərəfli inkişafına bağlayırdı. Elə bunun nəticəsi idi ki, gənclər bütün sferalarda iştirak edir, dinlənilir və ictimai-siyasi həyatda aktiv vətəndaş mövqeyindən çıxış edirdilər. Bütün bunlar gəncliyimizin sağlam dəyərlərlə formalaşmasında vacib rola malik idi. Vətənpərvərlik, dövlətçilik, milli kimliyinə bağlılıq kimi prinsiplər elə həmin illərdən başlayaraq Azərbaycan gəncliyinə aşılanırdı. "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" sözləri də Heydər Əliyevin Azərbaycan gəncliyinə olan baxışını, verdiyi qiyməti bir daha sübut etməkdə idi.

Azərbaycan gəncliyinin ən böyük xoşbəxtliyi isə Ulu Öndərin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində oldu. Bununla da dövlət gənclər siyasəti öz yeni mərhələsinə keçid etdi. Gənclərin fərdi inkişafı, ixtisaslaşmış mütəxəssisə çevrilməsi, müxtəlif sahələrdə öz potensiallarını aşkar etməsi, innovativ bacarıqlarının stimullaşdırılması üçün münbit şərait formalaşdırıldı. Dövlət başçısının sərəncamları ilə müxtəlif illərdə "Gənclər ili"nin, "Könüllülər ili"nin elan edilməsi isə gənclərimiz üçün əlavə motivasiya mənbəyinə çevrildi. Atılmış bu addımların nəticəsi olaraq Azərbaycan gənci ictimai-siyasi mühitin aktiv iştirakçısına çevrildi, elm, mədəniyyət, idman kimi sahələrdə həm ölkə daxilində, həm də beynəlxalq arenada möhtəşəm uğurlara imza atdı.

Ölkəmizdə bu istiqamətdə həyata keçirilən siyasət həm də Azərbaycan gəncliyinin dəyərlərini formalaşdırdı. Belə ki, həyata keçirilən hər bir təşəbbüs və layihə gənclərimizə vətənpərvərlik, dövlətçilik dəyərlərini aşılamağa, öz tarixinə, milli kimliyinə bağlı ruhda yetişməyi hədəfləyirdi.

Şübhəsiz ki, Ulu Öndərin başlatdığı, Prezident İlham Əliyevin yeni zirvələrə qaldırdığı bu siyasət həm də yeni vəzifələrin carçısı idi. Azərbaycan gənci ölkəmizin inkişafına xidmət etməyin, dövlətimizə qarşı yönəlmiş təsirlərlə mübarizə aparmağın, ən əsası isə tarixi torpaqlarımızın düşmən işğalından azad olunaraq ərazi bütövlüyümüzün bərpa edilməsinin ən müqəddəs vəzifələri olduğunu anlayırdı. Bu vəzifənin uğurlu icrası isə yalnız savadlı, vətənpərvər, intellektual gəncliklə mümkün idi.

2020-ci il Azərbaycan gənclər siyasətinin bariz nəticələrini görmək üçün də mühüm bir il oldu. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu misli görünməmiş zəfərə imza atdı, tarixi torpaqlarımızın mənfur düşmən tərəfindən işğalına son qoyuldu. Bu böyük qələbənin ən əsas iştirakçıları isə Azərbaycan gəncliyi oldu. Mütləq əksəriyyəti gənclərdən ibarət olan Azərbaycan Ordusu 30 illik həsrətə son qoydu. İnformasiya müharibəsində də ardıcıl qazanılan uğurlar məhz savadlı, intellektual gəncliyin fəaliyyəti idi. "Biz qəlbində güclü vətən sevgisi olan gənc nəsil yetişdirdik. Hətta torpaqlarını görməyən gənclər bir arzu ilə yaşayıb ki, ədalət bərpa olunsun və onlar öz doğma torpaqlarına qayıtsınlar", - sözləri də dövlət başçısının gənc nəslin öz dövlətinə, öz ölkəsinə olan bağlılığına verdiyi yüksək qiymətin göstəricidir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti Prezident İlham Əliyevin müdrikliyi və liderliyi ilə özünün ən uğurlu gənclər ordusunu formalaşdırdı. Bu gənclik üzərinə düşən tarixi vəzifəni uğurla icra etdi. Qalib ölkə və qalib xalq olmaq isə özü ilə yeni reallıqları gətirdi. Dünyadakı nüfuzunu daha da gücləndirən, regionun siyasi xəttini müəyyənləşdirən Azərbaycan yeni hədəflərin, yeni missiyaların daşıyıcısına çevrildi. Bu isə Azərbaycan gəncliyi üçün yeni vəzifələr, yeni məsuliyyətlər deməkdir. Müstəqilliyimizin qorunub saxlanılması, ölkəmizin daha da güclənməsi, ölkəmizə qarşı qüvvələrlə mübarizənin davam etdirilməsi, daşıyıcısı olduğumuz dəyərlərimiz və kimliyimizin gələcək nəsillərə ötürülməsi - bütün bunlar Azərbaycan gəncliyinin yeni reallıqlar mühitində əsas vəzifələridir.

Yeni vəzifələrin uğurla icrası isə güc, bilik, məsuliyyət tələb edir. Azərbaycan gəncliyi ona yaradılan şəraiti daim doğru qiymətləndirməli, vətənpərvər, savadlı olmaqla bərabər dövrün reallıqlarını yaxşı öyrənməli, innovativ düşünməyi bacarmalı, öz fəaliyyətində çevik və effektiv olmalıdır.

Bu gün Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə ən böyük mükafatlarından birinin - Azərbaycan Gəncləri Gününün tarixidir. Bu tarixdə qazandığımız uğurları xatırlamaqla qarşıda bizi gözləyən yeni nailiyyətlərə hazırlaşırıq. Azərbaycan gənci bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi altında yeni qələbələrə imza atacaq, yeni uğurların əsasını qoyacaqdır.

*Bəxtiyar İSLAMOV,*
*YAP Gənclər Birliyinin sədri*

# Xocalıdan dünyaya

## Uğur formulu

"Düz 20 il ailəlikcə Naftalanda məcburi köçkün düşərgəsində qışda soyuğundan, yayda istisindən qovrulduğumuz taxta bir evdə acınacaqlı vəziyyətdə yaşamağa məcbur olduq. Məndən yaşyarım böyük olan bacımla birgə çox şəraitsiz, ixtisas müəllimləri çatışmayan bir məktəbdə, qələm, dəftər, çanta yoxluğundan əziyyət çəkə-çəkə dərs oxumağa çalışdıq. Amma bütün bu çətinliklər həyat yolunda uğurla irəliləməyimizə, hazırda olduğumuz elm pilləsinə ucalmağımıza mane ola bilmədi..."



### Həyatın onun üçün biçdiyi boz dünyasını rəngarəng etmək öz əlində idi

Bu, xocalılı bir gəncin, həyat və uğur hekayəsidir...

O gənc ki, düz bir qərinə əvvəl, cəmi 52 günlük körpə ikən anasının qucağında Xocalını, Kərkicahanı tərk edərək yoxluqlar, mənəvi çətinliklər sınağı ilə dolu həyat girdabına atılmışdı.

O gənc ki, doğulduğu, kökləri ilə bağlı olduğu torpağını heç zaman xatırlaya bilmirdi... Hər zaman düşünürdü ki, "Görəsən, Kərkicahan necə bir yer olub, evimiz, bağ-bostanımız, gül-çiçəkli bağçamız indi də durururmu?!."

Eh... Bütün bunların heç birini bilmirdi. Doğma yurduna, od-ocağına sadəcə 1991-ci ilin o üzündəki xoşbəxt günləri ilə bağlı atası Tofiqlə anası Larisanın acı təbəssümlərlə anlatdıqları xatirələri qədər bələd idi...

O da yadındadır ki, kiçik olduğu zaman valideynlərinin Xocalıdakı, Kərkicahandakı xoş günləri ilə bağlı xatirələri hər zaman ona reallıq olmayan röya kimi görünərdi.

Axı o özünü anladığı andan bütün məcburi köçkün uşaqları kimi məhrumiyyətlərə sinə gərməyə öyrəşmişdi. Uşaq dünyası başdan-başa bomboz idi və bundan o yana rəngli bir dünya xəyal edə bilmirdi: "O zaman yaşadığımız boz dünyamızı rəngləndirməyimizin öz əlimizdə olduğunu anam təlqin edirdi bizə. Bacım Nərminə də, mənə də deyirdi ki, bütün bu çətinliklərdən qurtulmağın yolu yalnız təhsil almaqdan keçir. İndi düşünürəm ki, o zaman uşaq idik və bəlkə də çətinliklərdən usanardıq, amma anam daim bizi motivasiya edərək irəli getməyimizə, təhsildə, elə həyatda da uğur qazanmağımıza böyük vəsilə oldu..."

### Elm pillələri

"Uğur formulu" rubrikamızın budəfəki gənc qonağı hazırda Portuqaliyanın Porto Universitetində Maliyyə ixtisası üzrə doktorantura təhsili alan Anar Tofiq oğlu İbrahimovdur.

Anar İbrahimov 2008-ci ildə Xocalı şəhər 1 saylı orta məktəbini bitirib. 2008-2012-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq İqtisadi Münasibətlər fakültəsində "Beynəlxalq iqtisadi münasibətlər" ixtisası üzrə bakalavr təhsili alıb. Müddətli həqiqi hərbi xidmət keçdikdən sonra UNEC Biznes Məktəbinin MBA Proqramına qəbul olaraq, Maliyyə ixtisasından məzun olub.

2014-2016-cı illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Avropa Komissiyasının birgə layihəsi çərçivəsində Portuqaliya Respublikasının Porto Universitetində Maliyyə ixtisası üzrə magistr təhsili alıb.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi və bank sektorunda çalışıb. 2017-ci ildə UNEC-in İqtisadiyyat və biznesin idarə olunması kafedrasının müəllimi, UNEC Biznes Məktəbində Proqram meneceri olaraq çalışıb. 2022-ci ilin sentyabrınadək UNEC SABAH mərkəzinin rəhbər müavini və Beynəlxalq iqtisadiyyat (ingilis dilli) kafedrasının müəllimi olub, UNEC Biznes Məktəbində və SABAH mərkəzində ingilis dilində menecment iqtisadiyyatı, korporativ maliyyə, beynəlxalq maliyyə, Beynəlxalq İqtisadiyyat Məktəbində (ISE) idarəetmə analizi və maliyyə fənlərini tədris edib.

Harvard Biznes Məktəbinin maliyyə və iqtisadiyyat sahəsinə aid 14-dən çox kitabını Azərbaycan dilinə tərcümə edən və iki elmi məqalənin həmmüəllifi olan Anar İbrahimov hazırda Portuqaliyada təhsilini davam etdirir.

### Çətin yaşam

1991-ci ildə Xocalı rayonunun Kərkicahan qəsəbəsində anadan olub Anar İbrahimov... Dünyaya gəldikdən cəmi iki ay sonra doğma yurdları erməni işğalçılarının təcavüzünə məruz qalıb və onlar məcburən ev-eşiklərini tərk edərək Laçına, ata-babalarının yaşadığı rayona üz tutublar. Lakin erməni zülmündən burada da qurtula bilməyiblər və Laçının işğalı zamanı Tərtərə, qısa müddətdən sonra isə Naftalana gələrək orada məcburi köçkün düşərgəsində yaşamağa başlayıblar.

- Naftalanda yaşadığımız düşərgədəki evlər sovet dövründə taxtadan düzəldilmiş yay üçün sanatoriya evləri idi. Amma biz orada ilboyu yaşamağa məcbur olmuşduq. Yayda dəhşətli isti, qışda da dondurucu soyuq olurdu. Təhlükəsizlik səbəbindən içərisində soba yandırmağa icazə verilmirdi deyə, qışda bu evlərdə yaşamaq sözün əsl mənasında zülm idi, sümüklərimizə qədər donurduq.

Yaşadığımız evlərə korpus deyirdik, bir korpusda 8 ev var idi və 4 ailə yaşayırdı. Yadımdadır, bir dəfə yanğın olmuşdu və haradasa yarım saatın içərisində korpusun biri tamamilə yanıb külə dönmüşdü, həmin ailələr qışın günündə çox çarəsiz vəziyyətdə qalmışdılar.

Həmin korpuslardan bir neçəsini də məktəb üçün ayırmışdılar. Laçın, Xocalı, Kəlbəcər məktəbi var idi. Eynilə həmin məktəblərdə də şəraitsizlikdən, yayda istidən, qışda soyuqdan əziyyət çəkirdik. Dərs ləvazimatlarımız yox idi, ixtisas müəllimlərimiz çatışmırdı... Düzdür, sonradan Xocalı məktəbi yerli məktəbin günorta növbəsinə dəyişdirildi və bizim vəziyyətimiz nisbətən yaxşılaşdı, amma ümumilikdə bütün məcburi köçkünlər kimi bizim də yaşam şəraitimiz çox ağır idi.

Bizə verilən yardımların, bir də dövlətin adambaşına ayırdığı "çörəkpulu"nun sayəsində birtəhər yaşamağa çalışırdıq.

Düz 1992-ci ilin əvvəlindən başlayaraq 20 il ailəmiz Naftalandakı düşərgədə çətin vəziyyətdə yaşadı. 2012-ci ildə dövlət bizə Goranboy şəhərində ev verdi və ora köçdük.

### Tale sınağı

Xocalı hər bir azərbaycanlının qanayan yarası, millətimizin ortaq dərd ünvanlarından biridir. İbrahimovlar ailəsi də 1991-ci ilin dekabrında Kərkicahanı tərk edib Laçına pənah aparmasaydı və Xocalıya sığınsaydılar, kim bilir taleləri necə olacaqdı?!.

Amma görünür zalım tale o məqamda bu ailəyə rəhm etmişdi, amma sonrakı yaşamlarında da zülmünü əsirgəməmişdi.



2009-cu ildə - Anar 18, Nərmin 19 yaşında olarkən atalarını itirmişdilər. O zaman hər iki gənc Bakıda bakalavr təhsili alırdılar. Üzərindən cəmi bir neçə il keçdikdən sonra isə analarını da itirərək onlar da bu dünyada ata-anasız yaşamlarını davam etdirən xocalılı gənclərə çevrilmişdilər. Həmin vaxt Anar Portuqaliyada, Nərmin isə Amerikada magistr təhsili alırdı (Nərmin İbrahimova ABŞ-nin Vaşinqton Universitetinin məzunudur, İqtisad Universitetinin Beynəlxalq əməkdaşlıq departamentinin Layihələrin idarəolunması şöbəsinin müdiridir).

Anar danışır ki, valideynlərinin erkən itkisindən sarsılsalar da, gənclər həyat mübarizələrindən əl çəkmirlər və elm yolunda əzmlə irəliləməkdə davam edirlər.

- Orta məktəb illərində Xocalı məktəbində oxuyan zaman müəllimlərimiz əllərindən gələn qədər bizə təhsil verməyə çalışırdılar. Amma istənilən halda bizi təhsilə yönləndirənlər valideynlərimiz oldu, xüsusilə də anam. Anam ali təhsilli olmasa da, bizə kömək edirdi, motivasiya verirdi, həmişə deyirdi ki, bu düşərgədən çıxmağın yeganə yolu oxumaqdır, təhsildir. Biz də, necə deyərlər, həmişə bunu qulağımıza sırğa edib həvəslə oxuyurduq. Hazırda 31 yaşım var, bu günə qədər də oxuyuram.

Hələ 2013-cü ildə dövlət təqaüdü ilə Portuqaliyada ikillik magistr dərəcəsini qazanaraq oxumağa başladım. Bir ildən sonra isə Nərmin Amerikada magistr təhsili almağa yollandı. Həmin vaxt təqaüdümün yarıdan çoxunu bacıma göndərirdim, yəni mənim təqaüdümlə ikimiz dolanırdıq. Çalışırdım ki, Nərminə kömək edim, o da təhsilini başa vursun. Sonra bacım orada özünə iş axtarıb tapdı, kitabxanada, evlərdə təmizlik işində çalışdı, yavaş-yavaş vəziyyətini düzəltdi.

Yəni ilk vaxtlar çətinlik çəksək də, sonradan hər şey axarına düşdü, yaxşı oldu...

### Təhsil gücdür

- Hər zaman istifadə etdiyim bir şüar var, "təhsil gücdür". Təhsilli insan hər zaman güclü olur, öz ayağı üstündə durmağı bacarır. Tövsiyə edirəm ki, gənclərimiz çətinliklər qarşısında əzmkar olsunlar, mütləq təhsil alsınlar. UNEC-də müəllim kimi işlədiyim zamanlarda çalışmışam ki, tələbələrimizə Avropada gördüyüm təhsili ötürüm, onlara öz biliklərimi çatdırım. Eyni zamanda onlara maksimum şəkildə kömək etmişəm ki, xaricdə təhsil alsınlar və qayıdıb ölkəmizin inkişafına töhfələr versinlər. Çox şadam ki, tələbələrimdən artıq bir neçəsi xaricdə oxuyub qayıdıbdır, hazırda oxumağa gedənlər də var.

O da təqdirəlayiq haldır ki, dövlətimiz gənclərimizin xaricdə təhsili üçün mühüm proqramlar qəbul edib və bu istiqamətdə onlara geniş imkanlar yaradıb.

Bir vacib məqamı da vurğulayım ki, təhsil almaqla yanaşı, Azərbaycan gəncləri olaraq, hər birimizin ümdə vəzifəmiz xalqımızın milli mənafelərinin keşiyində durmaqdır. Hazırda Azərbaycandan kənarda olsam da, hər gün diqqətlə ölkəmizdə baş verənləri izləyirəm. Ötən ilin dekabrından Laçın-Xankəndi yolunda təbii sərvətlərimizin separatçılar tərəfindən istismarına qarşı ekofəallarımızın apardığı dinc etiraz aksiyası barədə mən də, hazırda digər ölkələrdə təhsil alan keçmiş tələbələrim də çalışırıq ki, reallığı ətrafımızdakı əcnəbi tələbələrə izah edək. Çünki, xüsusilə, Avropada erməni lobbisinin təsiri altında olan media orqanları dezinformasiyalar yayırlar.

Yanvarın 27-də İrandakı səfirliyimizə hücum zamanı təhlükəsizlik xidmətinin əməkdaşının qorxmadan əliyalın avtomatlı adamın üstünə getməsi, onu zərərsizləşdirməsi də göstərir ki, vətənpərvərlik bizim xalqın qanındadır.

Ümumiyyətlə, Azərbaycan xalqı yaşlısından, gəncindən asılı olmayaraq, vətənpərvərlik ruhunu 44 günlük müharibədə ən parlaq şəkildə nümayiş etdirdi. Vətən müharibəsində siyasi, etnik, dini mənsubiyyətindən asılı olmayaraq, xalqımızın Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"una çevrilməsi bizə qalibiyyət sevinci yaşatdı.

Müharibə dövründə Nərmin də, mən də informasiya müharibəsində aktiv iştirak edirdik. Hələ 2016-cı ildə Aprel döyüşləri zamanı mən Portuqaliyada magistr təhsili alırdım. O zaman da Azərbaycan həqiqətlərini əks etdirən bukletlər çap etdirib insanlara paylayırdıq.

Bir sözlə, Azərbaycan gəncləri dünyanın harasında olmasından asılı olmayaraq, daim dövlətinə dəstəkdir.

### "Bacımla birgə ana yurdumuza qayıdıb evimizin işığını yandıracağıq..."

- Həyatdakı ən böyük xoşbəxtliyini, qürur hissini Şuşada olanda yaşadım. Düzdür, Zəfər yolu ilə Şuşaya səfər edən zaman yolboyu erməni vəhşilərinin dağıtdığı yurdlarımızı gördükdə adamın bağrı yarılır, düşmənə nifrəti birəmin artır. Təsəvvür edin ki, insanlar vaxtilə öz əlləri ilə tikib-qurduqları evlərinə qayıdanda onu dağılmış görürlər. Ən dəhşətlisi isə odur ki, bir çox insanlar mina təhlükəsinə görə heç öz evlərinin dağılmış bünövrəsinə də yaxınlaşa bilmirlər. Olduqca ürəkparçalayıcı hisslərdir...

Amma Qarabağı və Şərqi Zəngəzuru böyük qəhrəmanlıqla işğaldan azad edən Azərbaycan dövləti tezliklə o yerlərə həyatı yenidən qaytaracaq, insanlar daha gözəl evlərdə xoşbəxt ömür sürəcəklər.

Soydaşlarımızın dədə-baba yurdla-




rında yenidən başlayacaqları o xoşbəxt həyatın mənzərəsi Şuşadan, Cıdır düzündən Xankəndiyə, Kərkicahana baxarkən bir daha gözlərimin önündən ötüb keçdi. Atama, anama qismət olmasa da, bacımla mən ana yurdumuza qayıdıb düşmənin söndürməyə gücü yetmədiyi evimizin işığını yandıracağıq, ocağını qalayacağıq...

### "Hələ qarşıda fəth edəcəyimiz daha böyük uğur zirvələri var..."

Bu, həyat sınaqlarından qalib çıxan xocalılı bir gəncin ömür, həm də uğur hekayəsi idi. Ömrünə düşən tale payını özü seçməsə də, qismətinə ağrı-acılı məcburi köçkünlük həyatı yaşamaq nəsib olsa da, bütün çətinliklərə rəğmən uğur hekayəsini özü yazmış, həyatın dolanbac yollarında müvəffəqiyyətlə irəliləməyi bacarmışdı.

Anar öz timsalında bir daha sübut etmişdi ki, Azərbaycanın əzmkar övladlarının gücü qarşısında bütün düşmənlər məğlub, çətinliklər acizdir: "Bilirsiniz, həyat çox enişli-yoxuşludur və zaman iradəmizdən asılı olmayan səbəblərdən bizi müxtəlif mürəkkəb, çətin vəziyyətlərə salır, yaxınlarımızın yoxluğu ilə sınağa çəkir, amma istənilən halda bütün bu çətinlikləri dəf etməyə özümüzdə güc tapmalıyıq. Eləcə də təhsil almaq üçün həmişə səbəbimiz olmalıdır. Şadam ki, bacım da, mən də keçmiş məcburi köçkün gəncləri olaraq özümüzdə bu iradə və gücü taparaq elm yolunda irəliləyərək hazırda olduğumuz pilləyə qalxa bilmişik və hələ bu da bizim üçün sonuncu pillə deyil. Hələ qarşıda fəth edəcəyimiz daha böyük uğur zirvələri var..."

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

2 Fevral Gənclər Günüdür

# Müzəffər Ali Baş Komandanın qəhrəman əsgəri

## 19 yaşında ən ali hərbi təltif alan Azər Abdullazadənin həyat yolu gənclər üçün əsl nümunədir

Vətən müharibəsində neçə-neçə gənclərimizin qəhrəmanlıqlarını gördük, eşitdik. Onların döyüşlərdə göstərdikləri şücaət, qorxmazlıq, düşmənə sinə gərərək hər qarış torpaq uğrunda qorxmadan irəli atılmaları qəhrəmanlıq dastanına döndü. Həmin gənclərin fədakarlığı müharibədən sonra dövlət başçısı tərəfindən yüksək qiymətləndirildi, onlar Vətən müharibəsindəki qələbə münasibətilə təsis edilən orden və medallarla təltif edildilər.

44 günlük müharibədə öz igidliyi ilə fərqlənən gənclərdən biri də Vətən Müharibəsi Qəhrəmanı Azər Abdullazadədir.



### Müharibəyə könüllü qoşulan gənc əsgər

Azər Abdullazadə 2001-ci il fevralın 18-də Tərtərin Cəmilli kəndində anadan olub. İlk təhsilini kənd tam orta məktəbində alıb. Məktəbi bitirdikdən sonra Tərtər Rayon Həbi Komissarlığından əsgərliyə yollanan Azər orada tankçı kimi xidmət edib.

Deyir ki, ordudan ehtiyata buraxılmasına bir neçə gün qalmış Vətən müharibəsi başlayıb. Həmin günləri belə xatırlayır: "Sentyabrın 27-də səhər saatlarında tankları təmizləyən vaxt hərbi hissədə "həyəcan" siqnalı verildi. Əvvəlcə bunun təlim üçün verilən siqnal olduğunu düşündük. Amma çox keçmədən Ermənistanın cəbhə xəttində hərbi təxribat törətdiyi və ordumuzun düşmənin hücumlarının qarşısını almaq üçün əks-hücum əməliyyatlarına başladığı xəbəri verildi. Əmrə əsasən, biz Füzuli istiqamətində irəliləməli idik. Müharibə, "həyəcan" siqnalı bizi qətiyyən qorxutmadı. Hamıda yüksək əhvali-ruhiyyə var idi. Hər kəs torpaqlarımızın işğaldan azad olunduğu günün artıq yetişdiyini, qisasımızı alacağımızı düşünürdü. Bu düşüncələrlə də döyüşlərə atıldıq. İlk saatlardan düşmənin onlarla ağır hərbi texnikasını və müxtəlif nəqliyyat vasitələrini məhv etdik, düşmənin ön xətt mövqelərini yardıq, çoxsaylı canlı qüvvəsini məhv etdik. Bir neçə gün Füzulinin kəndlərində döyüşdük. Sentyabrın 30-da isə Füzuli istiqamətində döyüşdə idarə etdiyim T-90 tankı minaatanla vuruldu və mən yaralandım".

Azər yaralansa da, döyüş tapşırığını sona qədər yerinə yetirməyi bacarıb. Axşam isə onu Füzuli rayonunun Əhmədbəyli kəndindəki hospitala aparıblar: "Cəmi bir gün hospitalda müalicə aldıqdan sonra öz istəyimlə yenidən hərbi hissənin arxa bölməsinə gəldim. Amma orada qala bilmədim və hərbi hissə komandirinin icazəsi ilə ərzaq maşını ilə ön xətdəki bölmələrimizin yanına qayıtdım".

Bölüklərin tank heyətləri tam komplektləşdirilsə də, əvvəlki uğurlu döyüşü nəzərə alınaraq Azəri hərbi hissənin ikinci bölüyünün tərkibinə salıblar. Yenidən döyüşlərə qatılan əsgərimiz növbəti dəfə Füzulinin bir neçə kəndi uğrunda gedən döyüşlərdə iştirak edib.

Azər həmin döyüşləri belə xatırlayır: "Ermənilər geri çəkilsələr də, arxadakı eşelonlarda mövqe tutmuşdular. Hərbi hissəmizin döyüş əmri həmin ərazilərdəki atəş nöqtələrini məhv etmək, piyada motoatıcı bölmələrimizin hücumlarını dəstəkləmək idi. Durmadan irəliləyirdik. İtkimiz olsa da, tanklarımız vurulsa da, düşməni qovur, canlı qüvvəsini və texnikasını məhv edirdik".



Uzun illər ərzində düşmən burada mürəkkəb müdafiə mövqeyi qurub, mühəndis-istehkam qurğularını möhkəmlətmişdi. Bu baxımdan müharibənin ilk günlərində müdafiə xəttini yarmaq olduqca çətin olsa da, ordumuz bu tapşırığı müvəffəqiyyətlə yerinə yetirir və düşməni qaçmağa məcbur edirdi. Bununla da düşmənin "keçilməz sədd" mifləri dağılırdı.

### Ali Baş Komandanın müraciətləri bizi ruhlandırırdı

Daha sonra Cəbrayıl uğrunda döyüşlərə qatılan Azər bir neçə kəndin azad edilməsində iştirak edib: "Xüsusi təyinatlı bölmələrlə birlikdə oktyabrın əvvəllərində Cəbrayıl şəhəri istiqamətində hücuma keçdik. Qrupumuz irəliləyərək rayonun Şükürbəyli kəndinin yaxınlığında mövqe tutdu. Kənddən bir yol Cəbrayıl şəhərinə gedirdi, digər yol isə Zəngilan və Qubadlıya aparırdı. Hər iki istiqamətdə gedən döyüşlər zamanı düşmənə sarsıdıcı zərbələr vurduq".

Onlara Cəbrayılda yerləşən düşmən alayının yerləşdiyi hərbi hissənin alınması tapşırığı verilir və bu tapşırığın da öhdəsindən uğurla gəlirlər. "Bizim tank hərəkət edərək yüksəklikdə mövqe tutdu. Ermənilər hərbi hissədə idilər. Ərazinin tam müşahidəsini həyata keçirdikdən sonra hərbi hissəni tank atəşinə tutmağa başladıq. Bu vaxt ermənilər gizlənmək üçün toplu şəkildə hərbi hissədəki binalara doluşdular. Həmin binaları yerləyeksan etdik. Bir neçə dəfə bizi hədəf almağa çalışsalar da, alınmadı. "Ural" avtomaşınına doluşan ermənilər qaçmaq istəyirdilər. Bu an sərrast atəşlə maşını əsgərlərlə birlikdə göyə uçurdum. Bu vaxt kənardan maşının vurulduğunu görən 30-a yaxın erməni bir qədər aralıdakı sığınacağa doluşdu. Növbəti atəşlə isə sığınacağı darmadağın etdik. Ümumilikdə, bu döyüşdə tankla ermənilərin bir zirehli texnikasını, iki "Ural" avtomaşınını və bir "UAZ" avtomobilini məhv etdik, 3 atəş nöqtəsini susdurduq. Məhv etdiyimiz erməni hərbçilərinin sayı çox idi. Döyüşçülərimiz hərbi hissəni ələ keçirdi. Biz isə geri qayıdaraq tanklara yeni mərmilər yüklədik. Bundan sonra Cəbrayıl şəhəri də azad edildi və mən düşmənin bir zirehli texnikasını qənimət götürdüm. Bütövlükdə, Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatını, döyüş və avtomobil texnikasını ələ keçirdik. Bu döyüşlərdə Cəbrayılın Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Decal, Mahmudlu, Cəfərabad, Horovlu, Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad edildi. Müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyə nəzarəti ələ keçirdik", - dedi Azər.

Qəhrəmanımızın sözlərinə görə, döyüşlər vaxtı televiziya verilişlərinə baxmaq, radionu dinləmək imkanları olmasa da, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərindən xəbərdar olmuşlar və bu, onları ruhlandırırmış, tapşırıqları daha inamla yerinə yetirməyə, daha da irəli getməyə sövq edirmiş.

### Mehriban xanım davamlı olaraq bizim vəziyyətimizlə maraqlanırdı

Oktyabrın 11-nə kimi bütün döyüşlərdə iştirak edən Azərin olduğu tank həmin gün Cəbrayılın Hacılı kəndi istiqamətində düşmən tərəfindən vurulur və o yaralanır.

"Bizim tankımızı düşmən vurdu. Sonra tankda yanğın başladı. Həmin an aldığım zərbədən və gözlərimə dolan qəlpədən görmə qabiliyyətimi itirdim. Hər iki gözümdə ağrı həddindən artıq çox idi, ona görə gözlərimi silə bilmirdim. Sağ gözümdə isə ağrı daha kəskin idi", - deyə həmin günü xatırlayan Azər deyir ki, daha sonra tankın içi alışmağa başlayıb və onun formasına keçib. Ağır yaralanmasına baxmayaraq, həmin an çölə çıxmaq üçün tankın lükunu açıb, amma vurulacağını, ya da əsir düşəcəyini düşünərək tankdan çıxmayıb. Çox qan itirdiyinə görə huşu gedir, gözləri görmür, düşmənə əsir düşməmək üçün özünü silahı ilə öldürmək istəyir. Bu zaman tanış səs eşidir.

"Bu vaxt yaxınlıqdan səs gəldi. Kimsə deyirdi ki, lüku aç. Ağrıdan hərəkət edə bilmirdim, çətinliklə olsa da, açdım. Gözlərim görmürdü, səsindən bildim ki, bizim mexanik sürücüdür. O məni yanan tankın içindən çıxartdı, paltarım, demək olar ki, yanmışdı. Məni tez düşürüb yerə uzatdı, üstümü torpaqla örtdü ki, paltarımdakı yanğın sönsün. Sonra məni yerlə bir neçə metr sürüyüb döyüş yerindən çıxartdı".

Çox qan itirdiyindən huşu gedən Azəri əvvəlcə Füzulidəki Əhmədbəyli hospitalına aparıblar. İlk əməliyyatı burada baş tutan əsgərin vəziyyəti ağır olduğundan Bakıya təxliyə olunub. Dörd gün komada qalan Azər Abdullazadə yaddaşını itirdiyindən və gözündən aldığı zədələrdən dolayı başqa hospitala köçürülüb. Göz və üz əməliyyatı keçirib. Sağ gözündən ağır yaralandığı üçün görmə qabiliyyətini itirib.

Azər gözündən, aldığı qəlpə yaralarına görə müxtəlif nahiyələrdən, ümumilikdə, 8-9 dəfə əməliyyat keçirib. Onun sözlərinə görə, müalicə müddətində Birinci vitse-prezident Mehriban Əliyevanın böyük diqqət və qayğısını hiss edib: "Mehriban xanım davamlı olaraq bizim vəziyyətimizlə maraqlanırdı. Müalicəmizi şəxsi nəzarətinə götürərək, bütün lazımi tədbirləri görürdü. 2020-ci ilin dekabrında hospitaldan evə buraxıldım".



### Vətən Müharibəsi Qəhrəmanı

Azər Vətən Müharibəsi Qəhrəmanı adı alması xəbəri ilə də bağlı təəssüratlarını bölüşdü. Deyir, dekabrın 9-da axşam saatlarında komandiri, polkovnik-leytenant Firdovsi Bəyovla danışıb, şad xəbəri də elə ondan alıb: "Komandirimə zəng etdim. Səsindən hiss etdim ki, çox sevinclidir. Məni təbrik etdi və dedi ki, Ali Baş Komandan İlham Əliyev sənə "Vətən Müharibəsi Qəhrəmanı" adı verib. Həmin an çox qürurlandım".



Göstərdiyi şücaətə və qəhrəmanlığa görə Azər həm də "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunub.

Elə gənc əsgərimizin dediyi kimi, bu, əsl şücaətdir, hətta qəhrəmanlıq nümunəsidir. 19 yaşda heç nədən qorxmadan, aldığı yaralara baxmayaraq, yenidən döyüşə qayıtmaq istəyi, cəsarətliliyi əsl vətən sevgisi, eşqidir.

Onda vətənə sevgini aşılayan həm də atasının və əmisinin Birinci Qarabağ müharibəsində iştirakıdır. Azər danışır: "Atam Rizvan Abdullayev Birinci Qarabağ müharibəsində iştirak edib, birinci qrup əlildir. Əmim leytenant Natiq Abdullayev isə Ağdərə istiqamətində şəhid olub, o, hərbi həkim idi. Mən də hər zaman onlar kimi olmaq istəyirdim".

Azər 44 günlük savaşda iştirak edərək göstərdiyi igidliyə, döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə görə ən ali hərbi təltif alan üç gənc əsgərdən biridir.

19 yaşlı Azər Abdullazadənin döyüş yolu, Vətən sevgisi gənc nəslə nümunədir. Vətənimizin keşiyində belə oğullar durur. Qorxmaz, ərən, düşməni lərzəyə salan, bir qarış torpağı üçün canından keçməyə hazır olan igidlər...

Bu, vətənpərvərlik ruhunda yetişdirilən gənc nəsildir. O gənc nəsil ki dədə-babalarından miras qalan torpaqları göz bəbəkləri kimi qorumağı özlərinə borc bilirlər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# Qələbəyə gedən yol əngəl tanımır

"Hər gecə bayrağımızı öpüb alnıma qoyub, qalib olacağım anı, onu qələbə sevinci ilə başımın üzərinə qaldıracağımı düşünərək, babama verdiyim sözü tutmaq xəyalları qururdum..."



Bunu "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl və gümüş medallar qazanan Lamiyə Vəliyeva deyir. Üçrəngli dövlət bayrağımızı uzaq gündoğan ölkədə zirvəyə ucaldan, tək əzizlərinin deyil, bütün azərbaycanlı idmansevərlərin arzusunu gerçəkləşdirən, xalqımıza qürur, iftixar hissləri yaşadan bu qız adını elə o zamandan tariximizə həkk edib.

Fiziki baxımdan problemlə üzləşənlərin istər həyat, istərsə də idman mübarizəsində qalib gəlməsi çətindir. Amma həm həyat, həm də idman mübarizəsində sona kimi döyüşüb qəhrəmana çevrilənlər də az deyil. Elə Lamiyə də gözündəki görmə probleminə rəğmən çətinliklərdən usanmayıb, qarşısına qoyduğu məqsədlərə müvəffəqiyyətlə nail olub.

Lamiyə deyir ki, uşaqlıqdan televiziyada müxtəlif idman yarışlarını həvəslə izləyirmiş. Günlərin birində isə məktəbdə voleybol dərnəyinin fəaliyyətə başladığını eşidəndə çox sevinir. Evdə babasına deyir ki, onu da dərnəyə yazdırsın. Bir il voleybolla məşğul olduqdan sonra məşqçisi ailəsinə bildirir ki, Lamiyənin qaçışı olduqca yaxşıdır, yüngül atletika ilə məşğul olsa, daha yaxşı nəticələr əldə edə bilər.

Yenə də babası ilə birlikdə idman mərkəzlərindən birinə üz tutur. İlk dərs günü 60 metrə qaçışını yoxlayan məşqçi Tofiq Əliyev heyrətqarışıq sevinclə üzünü yanındakılara tutub: "Bu uşaq çempion olacaq", - deyir.

### İdmançımız 9 illik paralimpiya rekordunu qırır

Lamiyə o gündən həyatını idmana həsr edir. Amma atletikaya yeni başlayanda maddi çətinliklər ucbatından lazım olan idman geyimini və ayaqqabısını ala bilməmişdi. Ucuz olduğu və o da yalnız bir cüt qaldığı üçün 36 ölçü əvəzinə 41 ölçülü ayaqqabı ala bilmişdi. Yaxşı bilirdi ki, peşəkar idmançı olmaq üçün yalnız fiziki yox, mental gücə sahib olub, ən əvvəl özünə qalib gəlməyi bacarmalısan və Lamiyə prinsipiallığı ilə buna da nail olur.

2009-cu ildən başlayaraq paralimpiyaçı kimi ölkədaxili və beynəlxalq yarışlarda Azərbaycanı uğurla təmsil edən Lamiyə Vəliyeva ən böyük nailiyyətini Tokioda keçirilən Yay Paralimpiya Oyunlarında qazanıb. Və həm də 400 metr məsafəyə qaçışın final mərhələsində 55 saniyəyə finişə çatmaqla 9 illik paralimpiya rekordunu qırıb. Bununla o, özünün ikinci qızıl medalını qazanıb.

O zamana qədər müxtəlif yarışlarda iştirak etsə də, bu yarışın onun üçün tam fərqli olduğunu söyləyir gənc idmançı. "2020-ci il Paralimpiya Oyunları həyatım boyu unutmayacağım parlaq bir hadisə oldu. Oradakı ab-hava tamam fərqli idi. Bircə ona təəssüf edirdim ki, pandemiya ilə əlaqədar stadionda tamaşaçılar yox idi, ailə üzvlərim Vətəndə idilər. Ən önəmlisi isə babam bütün bunları görə bilməmişdi. Onun çempionluğumu görməsini, mənimlə qürur duymasını çox istəyərdim. Yarışa elə o fikirlə də getmişdim ki, babamın əziyyətini yerdə qoymayacam", - deyir Lamiyə. Amma təəssüf olsun ki, bu qismət olmur. Babası Şahbaz Vəliyevin ən böyük istəyi nəvəsini bu yarışda qalib görmək olsa da, ömrü vəfa etməyib. Yarışdan bir neçə ay öncə dünyasını dəyişib.

### "O an hiss etdiklərimi sözlə ifadə etmək mümkünsüzdür"

Rəqabətin böyük olduğunun fərqində olan Lamiyə deyir ki, 100 metrə qaçışda 2-ci yer tutmağı ona çox böyük stimul verdi: "Bayrağımızı yüksəltmək, himnimizin sədalarını eşitməyin xoşbəxtliyini yaşamaq başqa hissdir, həyəcandır. Bu mənə də nəsib oldu. O an hiss etdiklərimi sözlə ifadə etmək mümkünsüzdür. O anı yaşamayanlara həmin məqamda ürəyinin necə döyündüyünü, gözlərinin qürurdan dolduğunu, hiss etdiklərini ifadə etmək çox çətindir. Bu səadəti gərək yaşayasan".

Hazırda gününün bir neçə saatını məşqlərdə keçirən idmançı nəticələrinin daha da yaxşılaşması üçün fiziki cəhətdən özündən üstün olanlarla məşq etməyə çalışır. Bu il ilk hədəfinin dünya çempionatının olduğunu söyləyən Lamiyə deyir ki, onu idmana gətirən, özünü tapmaqda kömək edən, həyatda yön göstərən babasına söz veribmiş ki, mütləq nə vaxtsa çempion olacaq.

### İnsanın əzmi, iradəsi ilə fəth olunmayan zirvə yoxdur

İdmanda qələbə qazanmaq, uğurlar əldə etmək üçün əzmkarlıq, yorğunluğa məhəl qoymadan məşq etmək lazımdır. Seçdiyi sahədə uğur qazanmaq istəyən hər bir idmançı iradəli olmalı, qarşıya çıxacaq çətinlikləri aşmaq üçün özünü psixoloji və fiziki baxımdan hazırlamalıdır. Bunun üçün insana təkcə işinin ustası olmaq kifayət etmir. Daim öz üzərində işləmək, yeniliklərə açıq olmaq, zirvəyə can atmaq önəmlidir. Bütün bunlarla yanaşı, kiməsə verdiyin sözü tutmaq istəyi də səni qələbəyə aparır.

Lamiyə Vəliyeva elə bu amallarla idmanda zirvəyə ucalıb. O, özü kimi gənclərə və bütün dünyaya sübut etdi ki, məqsədin, niyyətin haradırsa, mənzilin, uğurun, nailiyyətlərin də ordadır. Bir də həyatda insanın əzmi, iradəsi ilə fəth olunmayan zirvə yoxdur və belə yüksəklikdə dayanan qəhrəmanları hər kəs görür, hər kəs duyur...

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## 2 Fevral Gənclər Günüdür



# Zəfər gəncləri

*Əvvəli 1-ci səh.*

O yerdə ki, "Vətən dardadır" deyilir, çoxlarının hələ uşaq kimi baxdıqları, nazını çəkib, qayğısına qaldıqları gənclərin o zaman hərəsi bir qəhrəman olur. Sinələrini düşmən güllələrinə sipər edirlər. 2020-ci ilin payızında, 44 gün davam edən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusunun döyüşçüləri bütün dünya tarixində belə bir nümunə göstərdilər.

Fəxr etdiyimiz gənclərimiz bu gün də ayıq-sayıqdırlar. Bilirlər ki, müharibə bitsə də, düşmənlər məkrli planlarını davam etdirirlər. Görünür, Qarabağda, Şərqi Zəngəzurda qəhrəman Azərbaycan Ordusunun uğratdığı məğlubiyyət Ermənistana dərs olmayıb. Ona görə də nəzərlərini Azərbaycanın torpaqlarından çəkməyib. Yağı düşmən hələ də sərvətlərimizə göz dikib. Ancaq unutmamalıdırlar ki, Azərbaycan xalqı, Azərbaycan dövləti onları hər zaman məğlub etmək, öz haqqını tələb etmək gücündədir. Və bu yolda hər zaman Azərbaycanın könüllüsü olan gəncləri var.

Qeyd edək ki, ölkəmizdə könüllülər hərəkatı ildən-ilə genişlənir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında sərəncamında bildirilib: "Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir". Sərəncamda qeyd olunduğu kimi, könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Sevindirici haldır ki, gənclərimiz fəal, təşəbbüskar və mübarizdirlər. Onların bir qrupu ötən ilin 12 dekabrından başlayaraq ermənilərin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə "Dəmirli" və "Qızılbulaq" mədənlərinin qanunsuz istismarına qarşı Azərbaycan vətəndaş cəmiyyəti üzvləri, ekofəallarla birgə dinc etiraz aksiyası keçirirlər.

Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində aksiya keçirən etirazçılar ilk günlərdən humanitar məqsədlər üçün istifadə etmək istəyənlərə yolun açıq olduğunu bəyan ediblər. Bu yolla hər gün Rusiya sülhməramlılarına məxsus maşın karvanları, Beynəlxalq Qızıl Xaç Təşkilatına aid avtomobillər hər iki istiqamət üzrə rahat hərəkət edir. Çünki Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı söylədiyi kimi, bizim məqsədimiz blokada deyil: "Bizim haqlı tələblərimiz var və bu aksiyanın tarixçəsini də indi hər kəs bilir. Bizi faktiki olaraq qanunsuz istismar edilən o mədənlərə buraxmayıblar. Orada da şou düzəltmişdilər, guya ki, hansısa etirazçılar çıxmışdı. Bizim oraya çıxışımız olmayana qədər yəqin ki, bu aksiya da davam edəcək. Bizim tələblərimiz də tam ədalətlidir. Monitorinq, təftiş, qanunsuz istismarın dayandırılması tələb edilir və biz buna nail olacağıq".

Aksiyada fəal iştirak edən azərbaycanlı gənclər qətiyyətlə bildirirlər ki, bundan sonra sərvətimizin talanmasına, torpaqlarımızda yaşayıb Azərbaycan qanunlarını pozanlara qarşı mübariz olacaqlar. Qış günlərinin kəskin soyuğu, havaların qarlı, şaxtalı keçməsi qətiyyətli Azərbaycan gənclərini çəkindirmir. Əksinə, mübarizə əzmləri gündən-günə yüksəlir. İştirakçılar bəyan edirlər ki, haqlı tələbləri yerinə yetməyənə qədər aksiya davam edəcək.

Hər zaman milli maraqları, dövlətimizin gücünü, qüdrətini, Vətənimizin bütövlüyünü düşünən, bu böyük məqsəd və amallar naminə həmrəylik və fəallıq nümayiş etdirən Azərbaycan könüllüləri bir daha göstərirlər ki, onlar ölkənin sərvətlərinin talanmasına, təbiətinin məhv edilməsi ilə barışmazdırlar.

Azərbaycan gəncləri arzuları, ümidləri, xəyalları, cəsarətləri, bir də doğma xalqın onlarla duyduğu fəxr, qürur hissləri ilə, dövlətimizin inamı, güvənci ilə güclüdürlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Gənclərin böyük hamisi

Xalqa xidmətləri və dövlət quruculuğu sahəsində misilsiz fəaliyyətləri ilə əbədiyaşarlıq qazanmış elə şəxsiyyətlər olub ki, onların həyatları, əməlləri cəmiyyət üçün örnək olub. Belə şəxsiyyətlərdən biri də xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir.

Ulu Öndər demişdir: "Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır". Bu mənada Ulu Öndər ölkəmizdə siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan gənclərinin təhsilli olması üçün əlindən gələni etmişdir. Məhz bu məqsədlə Ulu Öndərin təşəbbüsü ilə 1970-ci ildən etibarən hər il 800-900 nəfər azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali təhsil məktəblərində oxumağa göndərilirdi. Beləliklə, ötən əsrin 70-80-ci illərində 15 mindən çox azərbaycanlı keçmiş SSRİ-nin universitlərində təhsil almışdır. Bu da müstəqilliyini bərpa edən zaman Azərbaycana güclü milli kadr potensialına malik olmağa imkan verdi.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xaricdə təhsil siyasəti Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Ölkəmizin dayanıqlı inkişafını təmin etmək məqsədilə insan kapitalının formalaşdırılması və ondan səmərəli istifadə prioritet istiqamətlərdən biri kimi daim diqqətdə saxlanılır. Dövlət başçısının fərman və sərəncamlarının tələbləri çərçivəsində "qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyası təhsillə əhatənin və ona əlçatanlığın artmasına, gənclərin xaricdə təhsilə cəlbinin müxtəlif proqramlarla dəstəklənməsinə mühüm imkanlar yaradır.

Gənc nəslin milli dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilməsi onun mənsub olduğu xalqın rifahı, eyni zamanda ölkənin inkişafının rəhnidir. Təsadüfi deyil ki, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qalxmasında Ulu Öndərin xidməti əvəzsizdir. Böyük rəhbər sovet dönəmində ölkəmizdə Azərbaycan dilinin dövlət dili kimi işlənməsinə geniş zəmin yaratdı, dilimizin qorunması və inkişaf etdirilməsi üçün sərəncamlar imzaladı. Onun gənclərə ən mühüm tövsiyələrindən biri də məhz, dilimizə hörmət və qayğı olmuşdur.

Gənclərin böyük hamisi Heydər Əliyev çıxışlarında həmişə vurğulayırdı ki, "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Zəngin dövləti idarəetmə təcrübəsinə malik Ulu Öndər hesab edirdi ki, gənclər hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Təsadüfi deyil ki, müasir dövrdə gənclər və idman sahəsində qazanılan uğurlar dövlətlərin ümumi inkişaf səviyyəsini, iqtisadi-siyasi potensialını müəyyənləşdirən vacib meyarlardan sayılır. Dünyanın bütün sivil cəmiyyətlərində gənc nəslin mənəvi-ideoloji tərbiyəsi, onların sağlamlığının qorunması baxımından bu strateji sahələrə xüsusi qayğı ilə yanaşılır.

Gəncləri Azərbaycanın gələcəyi, müasir Azərbaycanın qurucuları kimi dəyərləndirən Ulu Öndərin 1997-ci il 2 fevral fərmanına əsasən, ölkəmizdə Gənclər Gününün dövlət səviyyəsində qeyd edilməsi yeniyetmə oğlan və qızlarımıza əlavə güc verdi. Gənclərin ən sevimli məşğuliyyəti olan idmanla yanaşı, ictimai-siyasi işlərə geniş cəlb olunması bu strategiyanın təməl prinsiplərinə çevrildi.

Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, onların vətənpərvərlik ruhunda böyüməsini təmin etmək gənclərin elmi intelektual potensialının artması üçün təhsildə və mədəniyyət sahəsində islahatlar keçirmək, həmçinin gənclərin təşkilatlanmasını təmin etməklə onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək, nəhayət, gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq, habelə Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq Prezident İlham Əliyev tərəfindən 19 ildir uğurla davam etdirilir.

Ölkəmizdə əhalinin 60 faizdən çoxunu gənclər təşkil edir. Gənclərə diqqət və qayğının dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilməsi onlara olan etimaddan irəli gəlir. Bu uğurlu siyasətin bariz nümunəsi, dövlətin gənclərə, gənclərin isə dövlət başçısına olan inam və etimadı 2020-ci il İkinci Qarabağ savaşında özünü daha qabarıq büruzə verdi. Zəfəri əzəmətli edən milli dövlətçiliyə sədaqətli, Prezidentinə güvənli vətənpərvər gənclər nəslinin şücaəti hamını heyran etdi. Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"unun zəfərində 30 ilə yaxın erməni əsarəti altında olan Azərbaycan torpaqlarının işğaldan azad edilməsində vətənpərvər gənclər birliyinin şahidi olduq. Azərbaycan gəncləri 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün çəkən Vətən müharibəsindən zəfərlə çıxdılar.

Görünən odur ki, dövlət səviyyəsində göstərilən diqqət və qayğıya rəğmən ölkəmizin gəncləri savadlı, sağlam və vətənpərvər ruhda böyüyür, onlara göstərilən etimadı layiqincə doğruldurlar.

***Şəhla HÜSEYNOVA,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***BDU-nun Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müəllimi***

# Vətənpərvərlik əzmi, azərbaycançılıq ruhu

Azərbaycan gəncliyinin inkişafına etibarlı zəmin hələ XX əsrin 70-ci illərində yaranmışdır. Ümummilli Lider Heydər Əliyevin böyük səyləri nəticəsində gənclərin təhsili, mədəni və məişət tələbatının ödənilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər görülmüşdür.

Əsrin sonlarında isə xalqımızın milli azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən mübarizədə də gənclər fəal iştirak etmiş, dövlət müstəqilliyinin əldə edilməsi üçün həyat və sağlamlıqlarını əsirgəməmişlər.

Ümummilli Lider Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra gənclər daim dövlətin diqqət mərkəzində olmuşlar. Gənclər siyasətini tənzimləyən normativ hüquqi baza və onun həyata keçirilməsi üçün cavabdeh olan mərkəzi icra hakimiyyəti orqanı - Gənclər və İdman Nazirliyi yaradılmışdır. Gənclərin problemlərinin həlli üçün müxtəlif dövlət qurumlarının fəaliyyətlərinin əlaqələndirilməsinə, beynəlxalq təşkilatlarla əməkdaşlığa başlanmışdır. Gənclərin sağlamlığı, təhsili, məşğulluğu, sosial müdafiəsi və digər sahələrdə dövlət tərəfindən genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu diqqətin bariz nümunəsi olaraq 2 Fevral Azərbaycan Gəncləri Günü elan edilmişdir. Ən əsas nəticə isə odur ki, müstəqil Azərbaycanda gənclərin maraqlarını təmin edən, beynəlxalq təcrübəyə əsaslanan dövlət gənclər siyasəti formalaşdırılıb və uğurla həyata keçirilir. Vətən savaşı bir daha onu göstərdi ki, ölkəmizin gələcəyi əmin əllərdədir. İkinci Qarabağ müharibəsi Azərbaycan gənclərində torpaq, Vətən sevgisinin sonsuz olduğunu göstərdi. Gənclərimiz həm döyüş meydanında, həm də informasiya müharibəsində vətənpərvərlik hisslərini mərdliklə nümayiş etdirdilər. Dövlət başçısı İlham Əliyevin çağırışına cavab verən gənclərimiz böyük ruh yüksəkliyi ilə silaha sarılaraq doğma torpaqlarımızı işğaldan azad etdilər. Üçrəngli dövlət bayrağımız tarixi torpağımız olan Qarabağda dalğalandırıldı. Azərbaycan əsgəri yazdığı yeni qəhrəmanlıq salnaməsi ilə xalqımızın qürurunu özünə qaytardı.

Bu il öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət, müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilib. Bu baxımdan Azərbaycan gənclərinin üzərinə böyük məsuliyyət düşür. Çünki Heydər Əliyev bizə gənclərin vətəndaşlıq tərbiyəsinin, mənəvi ucalığının bütün aspektlərini özündə birləşdirən bütöv bir elmi nəzəriyyə, zəngin irs qoyub getmişdir. O, gənclərin tərbiyəsində milli ənənələrin, mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə vəhdətdə götürülməsi, bunun gənclərimizin mənəvi kodeksini təşkil etməsini, gənclərlə işin bu istiqamətdə aparılmasını tövsiyə edirdi. Ümummilli Lider milli vətənpərvərliyin Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyat prinsipinə çevrilməsini, xüsusən ölkəmizdə yeni müstəqil, hüquqi dövlət, yeni iqtisadi-siyasi sistem quruculuğu dövründə xüsusi önəm daşıdığını qeyd edirdi. Ulu Öndərin zəngin və çoxşaxəli irsini qoruyub saxlamaq hər bir Azərbaycan gəncinin şərəfli vəzifəsidir.

31 dekabr 2022-ci ildə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində belə bir fikir səsləndirdi: "Avqustun 26-da - nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl biz Laçın şəhərini də azad etdik və eyni zamanda Laçın rayonunun Zabux və Sus kəndlərinə də qayıtdıq. Bu da böyük nailiyyətdir. Artıq Laçın şəhərində çox genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. Əminəm ki, biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq, ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar". Laçınlı bir gənc olaraq bu fikirlər məni də hədsiz qürurlandırır. Böyük qələbə sevincini xalqımıza yaşadan Müzəffər Ali Baş Komandanımızla doğma Laçında görüşmək və heç vaxt öz ata-baba yurdunu görməyən mənim kimi minlərlə gəncə bu sevinci yaşatdığına görə təşəkkür etmək ən böyük arzumdur. İnşallah ki, bu arzumuza da çatarıq.

***Yusif CƏFƏRBƏYLİ,***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistri,***
***Laçın sakini***

# Gənc kulinarın uğur yolu

Onlar öz aralarında yaxşı kulinar o kəsə deyirlər ki, onun hazırladığı omleti nəinki acqarına, lap elə tox olanda da iştahla yeyəsən və dadından doymayasan. Gənc kulinar Mikayıl Həsənov da təsdiqləyir ki, yumurtanın tavada rəngini və formasını dəyişməsi onu bişirənin hələ aşpaz olması mənasını vermir.

Əgər qayğanaqdan ikinci porsiya sifariş etmək müştərinin ağlından keçmirsə, deməli, aşpazın hələ özünü təkmilləşdirməsinə ehtiyac var. Qaldı ki, əgər kulinar əsl kulinardırsa, onun ətə, balığa ehtiyacı yoxdur, lazım gəlsə, öz bacarığını elə bir yumurta ilə də sübut edər, öz imzasını qayğanağa ata bilər.



23 yaşlı Mikayıl Həsənov Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin "Aşpazlıq" ixtisasının məzunudur. O, milli və xarici mətbəx, soyuq və isti bölümlər üzrə ixtisaslaşıb. Elə peşə təhsilinin təcrübə müddətindən etibarən Bakının ən məşhur beşulduzlu hotellərindən biri olan "Fairmont"da baş aşpazın köməkçisi kimi çalışır. Deyir, ilk iş təcrübəsinə belə böyük hoteldə başlamaq, yerli və xarici qonaqlar üçün hər çeşiddə yeməklər hazırlamaq zəngin təcrübə qazandırır. Yeri gəlmişkən, söhbət zamanı tez-tez "şefimin yaxşı bir sözü var", - deyir. Elə sözündən-söhbətindən də bilinir ki, görübgötürməyə, öyrənməyə olduqca meyillidir.

"Kulinariyaya həvəsim ta uşaqlıqdan bəri olub. Hərbi xidmətdən qayıtdıqdan sonra da bu sahəni seçib öyrənməyə başladım. Düşündüm ki, niyə də olmasın?! Azərbaycan mətbəxi o qədər zəngindir ki, sanki, bir elmdir. Hər gün yemək bişirsən, yenə də kəşf edilməmiş nəsə qalacaq. Ona görə seçimimdən çox məmnunam", - deyə Mikayıl qeyd edir.

## "Hər işə sevgi ilə başlamaq şərtdir"

Kulinarın sözlərinə görə, ölkədə gənclərin əksəriyyəti ixtisas sahibi olmaq, ali təhsil almaq arzusundadırlar: "Sözsüz ki, mənim də belə bir arzum olsaydı, ardınca gedərdim. Amma şükürlər olsun, peşəmdən çox razıyam. Düşünürəm ki, bir sıra peşələrlə bağlı ölkədə boşluqlar çoxdur. Gənclər də həmin boşluqlardan düzgün faydalana və uğuru özləri üçün əlçatan edə bilərlər. Necə ki mən etdim! Bunun üçün bir az istək, bir az motivasiya, cəhd və nəticəyə inam lazımdır. Əgər belə olarsa, alınacaq, nəticə əla olacaq. Təsəvvür edin, sanki, yeməyi düzgün texnika ilə bişirirsən, duzu-istiotu da yerində, o yemək necə dadsız olsun ki?! Bu da eynən onun kimi… İnanmaq, hər işə sevgi ilə başlamaq şərtdir".

Mikayıl bildirir ki, ölkədə aşpazlar arasında müsabiqələrin keçirilməsi, müxtəlif layihələrin təşkil edilməsi yaxşı olardı: "Fikrimcə, bu, gənclərin kulinariyaya marağını da artırar. Belə olan halda, biz daha yeni texnikalar öyrənməyə, bildiklərimizi təcrübədə sınamağa daha həvəsli olarıq. Belə layihələrə hətta məktəb yaşlı uşaqlar da cəlb oluna bilər. Həmin uşaqlar arasında kulinariyaya həvəsi olanları əvvəlcədən müəyyən etmək olar".

Əlbəttə ki, kulinariyadan söz düşmüşkən milli mətbəximiz barədə danışmamaq günah olardı. Kulinarlar təsdiq edirlər ki, Azərbaycan mətbəxinə dərindən bələd olmaq üçün uzun illər iş təcrübəsi lazımdır. Gərək, yorulmadan işləyib, yeni texnikalar öyrənəsən ki, zəngin mətbəximizdən azdan-çoxdan məlumatlı olasan.

Təsadüfi deyil ki, turistlər də milli mətbəximizi çox bəyənir, fərqli çeşiddə olan yeməklərimizdən hər zaman ağızdolusu danışırlar. Müsahibimiz bildirir ki, bu mənada qəribə bir tendensiya var: "Turistlər burada bir öz ölkələrinə, bir də Azərbaycana məxsus yeməkləri görəndə sevinir, onlardan dadmaq istəyirlər. Əcnəbilər bizim dolmaları, plovları, kababları çox bəyənirlər. Onları razı salmaq bizi çox sevindirir. Lap elə mahnıda deyildiyi kimi, gərək nuş olsun ki, əhvalın da xoş olsun".

## "Nə qədər yaradıcısansa, bir o qədər irəlidə olacaqsan"

Müsahibimiz gənc həmkarları ilə tövsiyələrini də bölüşür. Deyir ki, hər nə qədər təcrübəyə əsaslanan sahə olsa da, kulinariya üzrə peşə təhsili almaq işi daha da asanlaşdırır.

"Peşə məktəbində oxumadan nələrsə öyrənənlər böyük mətbəxlərə düşəndə vəziyyət onlar üçün çətin olur. Belə gənclər, adətən, hansı sahədə - milli, yoxsa xarici mətbəx, isti bölüm, soyuq bölüm və ya qənnadıda uğurlu olacaqlarını bilmirlər. Bunu müəyyən etmək də onların vaxtını alır. Şefimin yaxşı bir sözü var: "əgər işinin peşəkarı olmaq istəyirsənsə, lap elə aşpaz da olsan, təhsilini almalısan. Doğrudan da belədir".

Mikayıl Həsənov onu da bildirir ki, bu sahədə fərqlənmək üçün fantaziya önəmlidir: "Nə qədər yaradıcısansa, deməli, bir o qədər irəlidə olacaqsan. Aşpaz olmaqla deyil ki, gərək bu sahədə də innovativ olub zəmanəyə ayaq uydurasan. Yoxsa köhnə üslubda təqdim etdiyin xörəyə yaxın duran da olmaz".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

## İran özünün terror əməllərinin qurbanına çevrilir

Azərbaycanın İrandakı səfirliyinə hücum, törədilən terror hadisəsi hamıda ikrah hissi yaratmışdır. Səfirliyimizdəki terrorla bağlı, demək olar ki, eyni vaxtda İsrailin Yerusəlim şəhərində dini məbəd olan sinaqoqa da hücum olmuşdur. Nəticədə 8 nəfər ölmüş, 10 nəfər müxtəlif dərəcəli ağır bədən xəsarətləri almışdır. Bütün bu şok hadisələr dünya ictimaiyyətinin diqqət mərkəzindədir. İranın bu kimi terror əməllərindən tərəqqipərvər ictimaiyyət təəssüf hissi keçirir.




Təəccüblü deyil ki, başqasına quyu qazan, özgənin pis gününü arzulayan İran son günlər özünün terror əməllərinin qurbanına çevrilib. Yanvarın 28-i axşam saatlarında İranın bir neçə şəhərinə dron hücumları reallaşıb. Nəticədə, Təbrizdəki dron zavodu da daxil olmaqla, bir neçə hərbi obyekt, həmçinin neft emalı zavodu dağıdılıb. Hücumların gözlənilmədən və yüksək peşəkarlıqla təşkili İranı dronlar qarşısında müdafiəsiz qoyub.

İranı neçə illərdir bir sıra ölkələr, hərbi ekspertlər terrorçu dövlət hesab edirlər. Artıq on illərdir ki, başda ABŞ olmaqla, bəzi Avropa ölkələri İranı "terrorçu dövlət", "terrora dəstək verən, maliyyələşdirən rejim" kimi tanıyırlar.

Ekspertlər hesab edirlər ki, İran bu işə aktiv şəkildə islam inqilabından sonra qoşulub. İnqilab liderləri tezliklə bu qərara gəliblər ki, daxili və xarici düşmənlərin öhdəsindən gəlmək üçün onlara qarşı sərt və gizli şəkildə, öz üzərinə məsuliyyət götürmədən davranmaq lazımdır.

Bundan ötrü İranda məxfi xidmətlər, gizli briqadalar yaradılıb və onların sərəncamına döyüşkən kadrlar, lazımi silah, avadanlıq, cihazlar verilib, xarici ölkələrdə koordinatorlar müəyyənləşdirilib. Bütün bunları dövlət təşkil edib, bu "sektor"un fəaliyyəti birbaşa ali dövlət rəhbərlərinin nəzarətində və himayəsində olub.

Lakin terror yolu ilə mübarizə elə bir qalmaqallı məsələdir ki, onu uzun müddət gizli saxlamaq, ört-basdır etmək mümkün deyil. Çünki peşəkar və təcrübəli kəşfiyyat strukturları terror təşkilatlarını, onların arxasında duranları, təşkilatın əsas rəhbərlərini, "killerlər"ini, koordinatorlarını, plan və niyyətlərini lazım gəldikcə üzə çıxarırlar. İrana məxsus terror təşkilatları da çoxdan ifşa olunublar və beynəlxalq təşkilatlarla yanaşı, bir sıra böyük dövlətlərin qara siyahısına salınıblar.

Bütün dünya dövlətlərinə məlumdur ki, İranda fəaliyyət göstərən İslam İnqilabı Keşikçiləri Korpusu belə təşkilatlardan biridir. İİKK "məxfi briqadalar"dan fərqli olaraq, rəsmi dövlət qurumudur, leqaldır, dövlət büdcəsindən maliyyələşir. Bu korpusu "terrorçu təşkilatlar"ın siyahısına ABŞ salıb. 2020-ci ilin aprelində ABŞ prezidenti Donald Tramp çıxışlarının birində İİKK haqqında danışaraq deyib ki, Dövlət Departamentinin bu presedentsiz tədbiri İranın təkcə terrorizmin sponsoru olması anlamına gəlmir, eyni zamanda onu göstərir ki, İİKK terrorizmin dəstəklənməsində və maliyyələşdirilməsində İran dövlətinin rıçaqı, əsas aləti kimi aktiv iştirak edir, qlobal terrorçuluq kampaniyası aparır. Həmin siyahıda İranın yaxından əməkdaşlıq etdiyi "Hizbulla", "Həmas", "Fələsin islami cihad", "Kataib Hizbulla" və s. qurumlar da diqqətə çatdırılır.

Xatırladaq ki, İİKK 1979-cu ildə yaradılıb, İran ali dini liderinin birbaşa rəhbərliyi altında fəaliyyət göstərməyə başlayıb. Onun tərkibinə daxil olan "Qüds qüvvələri"nin xarici ölkələrdə destablizasiya və qlobal terror kampaniyası apardığı iddia olunur. O da məlumdur ki, həmin təşkilatın son illərdə Almaniya, Bosniya, Bolqarıstan, Keniya, Bəhreyn, Səudiyyə Ərəbistanı və Türkiyədə törətdiyi terror aktılarının üstü açılmaqla bu cəhdlərin qarşısı alınıb.

Beynəlxalq müşahidəçilərin, eləcə də qlobal kəşfiyyat qurumlarının qənaətinə görə, hələ islam inqilabının ilk illərində həm İİKK, həm də İrana bağlı başqa məxfi strukturlar devrilmiş şahın komandasının üzvlərini xarici ölkələrdə təqib ediblər və bir çoxunu öldürüblər. Bunların içində ən qalmaqallısı Pəhləvi hökumətinin sonuncu baş naziri Şapur Bəxtiyarın 1981-ci ildə Fransada üç cəhddən sonra qətlə yetirilməsidir. Onun haqqında dövlət rəhbərliyi tərəfindən qiyabi ölüm hökmü çıxarılıb və bu adamı öldürüblər.

Bundan başqa, İİKK Xomeynidən İranın ilk prezidenti Əbülhəsən Bənisədri öldürmək barədə əmr alsa da, bir neçə gün öncə impiçment iddiası ilə vəzifəsindən götürülmüş eks-prezidentin ehtiyatlı tərpənərək ölkədən qaçması üzündən terror aktı baş tutmayıb və o, ömrünün axırına kimi Fransada ciddi mühafizə altında yaşayıb. Daha sonra şah ailəsinin üzvü sayılan şəxslər qətlə yetirilib.

1979-cu ildə ABŞ-nin İrandakı səfirliyinin 400 gündən artıq girovluqda saxlanması bu dövlətin terror aktını mübarizə vasitəsinə çevirməsinin bariz göstəricisidir.

Prezident İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə edilən terror aktı ilə bağlı tviter hesabındakı paylaşımında bildirilir: "Bu terror aktının tezliklə araşdırılmasını və terrorçuların cəzalandırılmasını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir". Azərbaycan hökuməti, ölkə ictimaiyyəti şübhə etmir ki, bu terror aktının niyə və nə səbəbdən törədildiyi yaxın zamanlarda peşəkarlıqla üzə çıxarılacaq.

Azərbaycan Prezidentinin mövqeyini dəstəkləyən dünyanın bir sıra dövləti, o cümlədən, Türkiyə, Rusiya, Belarus, İsrail, Ukrayna, Gürcüstan, Səudiyyə Ərəbistanı, Slovakiya, Birləşmiş Ərəb Əmirlikləri, Moldova, Estoniya, Niderland, Misir, Özbəkistan, Şimali Kipr, Qazaxıstan, Bolqarıstan, Qırğızıstan və digər ölkələrin Xarici İşlər nazirlikləri və rəsmi şəxsləri də diplomatik nümayəndəliyə silahlı hücumu pisləyən açıqlamalarla çıxış ediblər. Ölkəmizdəki ABŞ, Əfqanıstan, İtaliya, İsrail, Belarus, İraq, Xorvatiya, Yaponiya, Polşa, Rusiya, Litva, Fələstin, Argentina, Mərakeş, Fransa, Böyük Britaniya səfirlikləri bu terror aktını beynəlxalq hüquq üçün təhdid adlandırıblar. Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, həmçinin GUAM və Türk Dövlətləri Təşkilatı diplomatik missiyaya qarşı bu cinayəti qəti şəkildə qınadıqlarını açıqlayıblar.

İranda baş verən terror hadisələri və iğtişaşlar onu deməyə əsas verir ki, artıq İran özünün terror əməllərinin qurbanına çevrilir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## UNESCO Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücumu pisləyib




UNESCO rəhbərliyi Azərbaycanın Tehrandakı səfirliyinə edilmiş silahlı hücumu pisləyib.

AZƏRTAC xəbər verir ki, bu barədə UNESCO rəhbərliyinin Azərbaycanın təşkilat yanındakı daimi nümayəndəliyinə ünvanlandığı rəsmi məktubda bildirilib.

UNESCO-nun baş direktorunun adından göndərilən məktubda Azərbaycan hökumətinə və xalqına rəğbət ifadə olunaraq başsağlığı ifadə edilib. Həlak olan şəxsin ailəsinə dərin hüznlə başsağlığı verilib və xəsarət alanların tezliklə sağalması dilənilib.

BMT-nin Azərbaycanın və onun xalqının yanında olduğu bildirilib, diplomatik nümayəndəliklərə qarşı bu cür hərəkətlərin beynəlxalq hüquqa əsasən qəti şəkildə qadağan olunduğu vurğulanıb. Məktubda həmçinin qeyd edilib ki, indiki çətin vəziyyətdə Azərbaycan UNESCO Katibliyinin dəstəyinə tam əmin ola bilər.

## İran AQEM-də Azərbaycan səfirliyinə terror hücumu ilə bağlı sənədlərin qəbuluna mane olub

Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə qarşı həyata keçirilmiş terror hücumunun beynəlxalq səviyyədə pislənməsi, terror aktını təşkil edənlərin və törədənlərin müəyyənləşdirilərək tezliklə cəzalandırılması, eləcə də Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi barədə çağırışların yer aldığı müvafiq sənədlər qəbul edilmək məqsədilə aidiyyəti beynəlxalq təşkilatlar və platformalara təqdim edilib.



Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, sözügedən terror aktı törədiləndən indiyə qədər səfirliyimizə qarşı silahlı hücum ayrı-ayrılıqda 100-ə yaxın ölkə və bir sıra beynəlxalq təşkilatların katiblikləri tərəfindən pislənib və bu aktı törədənlərin cəzalandırılmasının zəruriliyi verilmiş bəyanatlarda vurğulanıb.

İran tərəfi üzvü olduğu və qərarların konsensusla qəbul edildiyi beynəlxalq təşkilatlarda terror hücumunun beynəlxalq müstəvidə geniş şəkildə ifşa olunmasının qarşısının alınmasına çalışıb. Bu xüsusda hücumdan dərhal sonra Qoşulmama Hərəkatının (QH) Əlaqələndirici Bürosuna və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) Azərbaycan tərəfindən təqdim edilmiş kommünike və bəyanat layihələrinə İran tərəfi etiraz edib və bu sənədlərin qəbuluna mane olub.

İran tərəfi bununla yanaşı, sözügedən təşkilatlarda öz mövqeyinə dəstək məqsədilə bir çox ölkələrə müraciət etsə də, Qoşulmama Hərəkatında 120 ölkə arasından İranın mövqeyinə dəstək verən yalnız Suriya və Hindistan olub. Bu üç ölkə sözügedən sənədlərin qəbuluna qarşı çıxan zaman səsləndirdiyi əsas iddia, guya, əvvəllər Qoşulmama Hərəkatında ayrı-ayrı ölkələrdə terror hücumlarının pislənmədiyi və bu ölkələr arasında ikitərəfli məsələlərin Qoşulmama Hərəkatı kimi beynəlxalq platformalara gətirilmədiyi olub. Halbuki Qoşulmama Hərəkatı bir çox hallarda üzv ölkələrində baş vermiş terror hücumlarını pisləyən, diplomatik missiyaların mühafizəsinə vurğu edən bir sıra sənədlər qəbul edib.

"İran tərəfinin bu təxribatçı addımını pisləyir və beynəlxalq öhdəliklərinə riayət etməsinin zəruri olduğunu bildiririk. Azərbaycan tərəfi səfirliyinə qarşı terror aktının geniş şəkildə pislənməsi və terror aktını törədənlərin cəzalandırılması üçün bütün müvafiq beynəlxalq platformalardan istifadə edəcək", - deyə məlumatda qeyd edilib.

## Terrorçu rejimin sonu yaxınlaşır

### İran həmişə islami dəyərlərə zərbə vurmuşdur

İranla Ermənistan müttəfiqdirlər, dostdurlar, qardaşdırlar. Mahiyyət etibarilə bir-birilərinə ruh əkizləri qədər bənzərlikləri var. Bəzən adama elə gəlir ki, İranla Ermənistan bir mərkəzdən idarə olunur. Hər iki dövlət birmənalı olaraq terroru dəstəkləyir. Hər iki dövlət din pərdəsi ilə maskalanaraq iyrənc niyyətlərini həyata keçirir. Ermənistanda hazırlanan məkrli planların ideya müəllifləri erməni katalikosları, keşişlər - Eçmiədzindir. Terroru həyata keçirən təşkilat isə əsasən ASALA-dır.






ASALA-nın erməni kilsəsi ilə bağlılığını inkar etmək mümkün olmadığı kimi, bugünkü Ermənistan dövləti ilə bağlılığını isbat etmək o qədər də asan məsələ deyil. İran bu sahədə dostu, müttəfiqi, qardaşı Ermənistandan xeyli qabağa gedib. Beynəlxalq hesabatlarda İranın adı birbaşa terroru maliyyələşdirən dövlət kimi keçir. Terroru isə əsasən SEPAH-ın, İran İslam İnqilabının Keşikçiləri Korpusunun həyata keçirdiyi qeyd edilir. Xatırladaq ki, 1979-cu ildə "İslamçıların" hakimiyyətə gəlişindən sonra İranın ali dini liderinə birbaşa tabe olan İran İslam İnqliabı Keşikçiləri Korpusu yaradılır. Bu hərbi birləşmənin müxtəlif qoşun növlərində 350 min üzvü olduğu göstərilir. ABŞ Dövlət Departamenti tərəfindən 2019-cu ildə tərtib edilən "Terrorla bağlı Ölkələr Hesabatı"nda (Country Reports on Terrorism) bütöv bir fəsil İrana həsr edilib. Hesabatda göstərilir ki, İranın dövlət strukturlarının yönləndirməsi ilə dünyanın 5 qitəsində, 20-dən çox ölkəsində sui-qəsdlər və ya terror aktları təşkil olunub. Beynəlxalq hesabatlardan da göründüyü kimi, SEPAH-ın fəaliyyət coğrafiyası olduqca genişdir. İran İslam İnqilabi Keşikçiləri Korpusuna daxil olan "Qüds qüvvələri"nin xarici ölkələrdə destablizasiya və qlobal terror kampaniyası apardığı vurğulanır. Son illərdə həmin təşkilatın Almaniya, Bosniya, Bolqarıstan, Keniya, Bəhreyn, Səudiyyə Ərəbistanı və Türkiyədə törətdiyi terror aktlarının üstü açılıb və ya bu cəhdlərin qarşısı alınıb. Afinada, Vyanada, Parisdə, Berlində terror aktları törədib, rejimin əleyhdarlarını oğurlayaraq qətlə yetirib.

ABŞ Dövlət Departamenti tərəfindən tərtib edilən 48 səhifəlik hesabatda göstərilir ki, İran hər il Suriyada, Yəməndə və İraqda terror aktlarının gerçəkləşdirilməsi üçün 16 milyard dollar vəsait xərcləyir. Həmin hesabatda İranın hər il SEPAH-a yaxınlığı ilə tanınan "Hizbullah" üçün illik 700 milyon dollar, Suriyada Əsəd rejiminə 4,7 milyard dollar, Yəməndə husilərə 100 milyon dollar, İraqda "Şiə keşikçiləri" adlı təşkilata 100 milyon dollar ödədiyi bildirilir.

İran terrorçularının əsas hədəfi əsasən səfirliklər olub. İndiyə kimi dünyanın bir sıra ölkələrində yerləşən diplomatik korpuslarda törədilən terror aktlarında İranın adı keçir. Xüsusilə ABŞ-nin müsəlman dövlətlərində olan elçiliklərində törədilən terror hadisələrində İranın adı daha çox hallanır. Molla rejimi öz ölkəsində olan bütün diplomatik korpusun nümayəndələrini özünün potensial girovu hesab edir. Ortada olan faktlar sübut edir ki, İranın maraqlarına uyğun olmayan istənilən dövlətin diplomatlarının təhlükəsizliyinə bu ölkədə təminat yoxdur. Necə ki aylarladır İranın "ruhaniləri", yüksəkrütbəli zabitləri ölkəmizi açıq təhdid etməkdən çəkinmirdilər. Nəticə də göz qabağındadır. Məncə, əlavə şərhə ehtiyac yoxdur. Yanvarın 27-də İrandakı səfirliyimizin binasında İran xüsusi xidmət orqanları tərəfindən hazırlanan xain terror hücumu baş verdi. Dini rejim məsuliyyətdən yayınmaq məqsədilə terror hadisəsini məişət zəminində baş vermiş hadisə kimi qiymətləndirməyə hələ də cəhd edir. Müşahidə kameralarına düşən videogörüntülərdən göründüyü kimi, "arvadını səfirlikdə axtaran" terrorçu çox sakit, səbirlə, sərbəst hərəkət edir. Hətta o, tək də deyil. Terror hadisəsindən az əvvəl səfirliyin önündə "Molotov kokteyl"indən də istifadə edilir. Tehran polisi isə hər hansı təhlükəsizlik tədbiri görməyə tələsmir.

Xatırladaq ki, 2022-ci ilin avqust ayının əvvəllərində Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyi də bir qrup radikal dini dəstənin hücumuna məruz qalmışdı. Səfirlik binasına daxil olan həmin şəxslər bəzi əşyaları yararsız hala salıb, binanın üzərində olan Azərbaycanın üçrəngli bayrağını endirmişdilər. Göründüyü kimi, hansı daşı qaldırırsan altından İranın barmağı çıxır. Səfirliyimizə basqın edən həmin radikal dini qruplaşmada İranın maliyyələşdirdiyi terrorçu təşkilatla öz yaxınlığı ilə seçilir.

İranın ölkəmizə olan düşmənçilik münasibəti zatən hər kəsə bəllidi. Uşaqdan-böyüyə hamı bilir ki, bu ölkənin xüsusi xidmət orqanları İrana səfər edən azərbaycanlılarla "fərdi söhbət"lər aparır, onlardan "informator" kimi istifadə edib özünün burada geniş casus şəbəkəsini yaradır. Çox təəssüfedici faktdır ki, İrana səfər edən vətəndaşlarımızdan İran Xüsusi Xidmət Orqanlarının toruna düşənlər də var. Ən pisi də budur ki, vaxtaşırı olaraq DTX tərəfindən deşifrə olunan İranın "dostlarının" yeri boş qalmır, ETTELAT əməkdaşlığa yeni-yeni soydaşlarımızı cəlb edə bilir. Mətbuatda gedən informasiyanın dəqiqliyinə inansaq, indiyə kimi İran Xüsusi Xidmət Orqanları ilə əməkdaşlıq edən 3500 Azərbaycan vətəndaşının deşifrə olduğunu qeyd edə bilərik.

Vətəndaşlarımız olduqca diqqətli olmalıdırlar. İranın ölkəmizə qarşı düşmənçilik etməsi tam çılpaqlığı ilə ortadadır. Bu ölkə Ermənistanla müttəfiqdir. Birinci Qarabağ müharibəsi zamanı İran hərbçilərinin, SEPAH əsgərlərinin Qarabağda ermənilər tərəfindən döyüşməsi barədə ortalıqda kifayət qədər fakt var. 44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə İranın Ermənistana "pilotsuz uçuş aparatları", tank əleyhinə raketlər, hərbi mütəxəssislər ötürməsi barədə məlumatlar açıqlanıb. İran generallarının ölkəmizi hədəfə almaları, təhdid etmələri artıq gündəlik normaya çevrilib. İran Xüsusi Xidmət Orqanları əməkdaşlığa cəlb etdiyi casuslardan topladığı məlumatları birbaşa Ermənistana ötürür.

Birinci Qarabağ müharibəsi zamanı da, sonrakı dövrlərdə, eləcə də 44 günlük zəfər müharibəsi zamanı İranın Ermənistana verdiyi hərbi məlumatlar günahsız insanların şəhid olmalarına səbəb olub.

İranın Azərbaycanla düşmənçiliyinin kökündə duran əsas səbəb Cənubi Azərbaycanda yaşayan həmvətənlərimizin çoxluq təşkil etməsidir. Dünyanın harasında yaşamasından asılı olmayaraq, Müstəqil Azərbaycan Dövlətini azərbaycanlılar öz vətəni bilir. Molla rejimi doğru düşünür ki, vaxt gələcək xalq ayağa qalxıb birləşmək arzusunu reallaşdıracaqdır.

Molla rejimi azərbaycanlılara qarşı, dövlətimizə qarşı kininin, nifrətinin əsas səbəbini örtbasdır etmək üçün İsrail-Azərbaycan dostluğu faktorunu şişirdir. Və əslində, səfirliyimizdə törədilən terror aktının bir səbəbi də Azərbaycanın İsraildə səfirlik açmasıdır. Molla rejimi zənn edir ki, Azərbaycana terrorla təsir edə bilər. Yanılırlar!

İran illərdir soydaşlarımızı, qan qardaşlarımızı əsarətdə saxlayır. Orada məhdud sayda yaşayan ermənilərin öz dillərində məktəbləri, dərslikləri var, amma 40 milyon azərbaycanlının öz dilində hələ də məktəbi yoxdur. İranın səfirliyimizdə törətdiyi terror aktı, 40 milyon azərbaycanlı soydaşımızla hesablaşmamağın, onları heçə saymağın, milli hissləri ilə oynamağın təzahürdür.

Özünü islam dövləti adlandıran İran nəinki islami dəyərlərə əməl edir, hətta insanlığa yaraşmayan hərəkətlər etməkdən belə çəkinmir. İranda zəlzələdən zərərçəkmiş soydaşlarımıza olan ayrı-seçkilik, azyaşlı uşaqların bu soyuq havada çəkdiyi əzablara, aclığa, iztiraba biganə münasibət molla rejiminin illərdir azərbaycanlılara olan nifrətinin ifadəsidir.

Bu qanlı hadisəni törətməklə İranın məqsədi cənublu soydaşlarımıza mesaj vermək, onların gözünü qorxutmaq niyyəti güdürdü. Orxan Əsgərova atılan güllə Cənubi Azərbaycanda yaşayan 40 milyonluq soydaşımızın azadlıq arzusuna atılan güllə idi. İnanırıq ki, soydaşlarımız molla rejiminə layiq olduğu cavabı verəcəklər. Onsuz da çürüməkdə olan rejim ömrünü başa vurmaq üzrədir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Azərbaycanı öz yolundan döndərmək mümkün deyil

## Ölkəmizin inkişafı, güclənməsi, qlobal məsələlərdəki rolu və Vətən müharibəsi bunun ən bariz nümunələridir

Gənclərin, qeyri-hökumət təşkilatlarının, könüllülərin iştirakı ilə Xankəndi yolunda 47 gündür keçirilən etiraz aksiyası bir daha xalqımızın öz milli haqqı uğrunda mübarizəsinin təcəssümünə çevrildi. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərimizdəki separatçılar tərəfindən təbii sərvətlərimizin talan edilməsinə etirazla başlayan bu aksiya Vətən müharibəsində zəfər qazanmış xalqımızın əzmini, həmrəyliyini və qətiyyətini bir daha dünyaya nümayiş etdirir.




### Bir vaxtlar işğala dəstək verənlər indi yenidən əl-ayağa düşüblər

Bu aksiya eyni zamanda Qərbdə bəzi dövlətlər və təşkilatlar tərəfindən hələ də Azərbaycana qarşı qərəzli münasibətin və ikili standartların davam etdirildiyini göstərir. Onlar əsl həqiqətin nədən ibarət olduqlarını bildikləri halda, sadəcə, yenidən öz riyakarlıqlarını göstərdilər. Avropa Parlamenti kimi siyasi mərkəzlər isə bir daha təsdiq etdilər ki, erməni lobbisinin əlində alətə çevrilmiş bir vasitədirlər. Azərbaycanın bir dövlət kimi bu gün böyük uğurlar qazanması, Cənubi Qafqazın liderinə çevrilməsi, müstəqil siyasət yürütməsi, qlobal məsələlərdə söz sahibi kimi çıxış etməsi onlar üçün sanki qorxulu bir yuxudur.

Əslində, Ermənistanın 30 ilə yaxın davam edən işğalı dövründə də bu siyasi mərkəzlərin demək olar ki, hamısı indiki kimi riyakarlıqlarını davam etdirmiş, açıq və dolayı şəkildə erməni məkrinə, torpaqlarımızın qəsb olunmasına dəstək vermişdilər. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etsə də, müxtəlif vaxtlarda Avropa Şurası və digər təşkilatlar tərəfindən Azərbaycan torpaqlarının işğalını pisləyən sənədlər qəbul olunsa da, onların heç biri Ermənistandan təcavüzə son qoymağı tələb etməmişdi. Bu siyasi mərkəzlər 1975-ci ildə imzaladıqları Helsinki Yekun Aktının sülh və təhlükəsizliyin qorunmasına xidmət edən 10 fundamental prinsipini elə özləri kobudcasına tapdaladılar.

Bir vaxtlar Azərbaycan torpaqlarının işğalını görməzdən gələnlər indi birdən-birə Qarabağdakı ermənilərdən "narahat" olmağa başlayıblar. 30 ilə yaxın müddət ərzində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün barədə bir kəlmə danışmayanlar indi bir ovuc erməniyə görə hay-həşir salırlar.

Amma iş orasındadır ki, iddia etdikləri humanitar fəlakətlə bağlı bir fakt, bir nümunə belə ortaya qoya bilmirlər. Çünki bu aksiya dinc xarakterlidir, humanitar problem yaratmağa xidmət etmir. Yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinkenlə telefon söhbəti zamanı Prezident İlham Əliyev Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını qeyd edərək, 2022-ci il 12 dekabr tarixdən etibarən 980-nə yaxın nəqliyyat vasitəsinin bu yoldan keçidinin təmin olunduğunu vurğulayaraq, onların 850-dən çoxunun Rusiya sülhməramlılarına, 120-dən artığının isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olduğunu deyib. Eyni zamanda Azərbaycan Prezidenti Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə Ermənistana aparılmasının təmin edildiyini vurğulayıb.

Bütün bunlar göstərir ki, Laçın yolu Azərbaycan tərəfindən bağlanılmayıb.

### Qətiyyətli siyasətin nəticəsi

Əvvəldə qeyd etdiyimiz kimi, 30 ilə yaxın işğal dövründə bir sıra Qərb siyasi mərkəzləri qərəzli və riyakar mövqe ortaya qoydular. Ən yaxşı halda "problem sülh yolu ilə həllini tapmalıdır", "problem beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində həll olunmalıdır" kimi növbətçi ifadələrdən istifadə etdilər. Bununla belə, söylədiklərinin reallığa çevrilməsi üçün bir mexanizm də təklif edə bilmədilər.

Həmin illər ərzində Azərbaycana təzyiqlər də olurdu. Fransa kimi siyasi mərkəzlərin fikrincə, zaman ötdükcə Azərbaycan vəziyyətlə barışacaq. Amma yanılırdılar. Xalqımız əmin idi ki, Ulu Öndər Heydər Əliyevlə başlanan, Prezident İlham Əliyevlə davam edən inkişaf siyasəti nəticəsində dövlətimiz qarşıya qoyulmuş bütün hədəflərə inamla çatdığı kimi, yeganə ağrılı problemimiz olan işğal altındakı topaqlarımızı da azad edəcək. Bu inamı və əminliyi artıran ən böyük faktor əlbəttə ki, Prezident İlham Əliyevin qətiyyətli və milli maraqlara söykənən siyasəti, tarixi torpaqlarımızda ikinci erməni dövlətinin qurulmasına heç vaxt imkan verilməyəcəyini daim bəyan etməsi idi.

Prezident İlham Əliyevin həyata keçirdiyi kompleks inkişaf kursu və qətiyyətli siyasəti torpaqlarımızın azad ediləcəyi günü sürətlə yaxınlaşdırdı. Bu siyasət hər bir uğuru ilə torpaqlarımızın azad edilməsi üçün tarixi şəraitin formalaşmasını təmin etdi, ərazi bütövlüyümüzün bərpa olunmasının konturlarını cızdı. İlham Əliyevin yürütdüyü qətiyyətli siyasət 30 ilə yaxın torpaqlarımızı işğalda saxlayan Ermənistanı döyüş meydanında cəzalandıraraq ərazi bütövlüyümüzü təmin etdi.

### Riyakarlıqlar Azərbaycanın qarşısını ala bilməyəcək

Azərbaycan öz torpaqlarını beynəlxalq ədalətsizliklər, ölkəmizə qarşı olan ikili standartlar, Ermənistanın işğal siyasətinin dəstəkləndiyi bir şəraitdə azad etdi. İlham Əliyev işğalçını dünya erməniliyinin, himayədarlarının gözü qarşısında cəzalandırdı və dövlətimizin milli haqqını qətiyyətlə təmin etdi. Bu qələbə, torpaqlarımızın azad olunması bütün dünyada qəbul edildi. Reallıqla barışa bilməyən Fransanın qanunverici orqanlarının Azərbaycanla bağlı qətnamələrinin mənasızlığını isə ermənilər də gözəl anlayırlar.

Bu gün isə eyni qətiyyətlə Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur. Prezident İlham Əliyevin yüksəliş siyasəti işğaldan azad olunmuş torpaqlarımızı yenidən həyata qaytarır. Bu siyasət 30 ilə yaxın məcburi köçkün vəziyyətində yaşamış vətəndaşlarımızın öz doğma evlərinə qayıdışını təmin edir və 2023-cü il bu istiqamətdə növbəti uğurlu mərhələ olacaq.

Bütün bunların fonunda Azərbaycanın Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərimizdəki erməni separatçılığına da son qoyacağı dəqiqdir. Dünya erməniliyinin, Ermənistanın təəssübkeşlərinin heç bir məkri və riyakarlığı Azərbaycanı öz yolundan dayandıra və ya döndərə bilməyəcək. Ölkəmizin inkişafı, güclənməsi, qlobal məsələlərdəki rolu və 2020-ci ilin 44 günlük Vətən müharibəsi artıq bunu təsdiq edib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# İctimai nəqliyyatdakı tarif dəyişikliyi qaçılmaz idi

Məlum olduğu kimi, ictimai nəqliyyat xidmətləri göstərən daşıyıcı şirkətlər sərnişindaşıma xidmətlərinin tariflərinə baxılması təklifi ilə Tarif (qiymət) Şurasına müraciət ediblər. Tarif Şurasının iclasında həmin müraciətə baxılıb və ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflərə qərar verilib.

Xatırladaq ki, sərnişindaşıma xidmətinin tarifləri ilə bağlı sonuncu qərar 2018-ci ilin avqust ayında, yəni 5 il əvvəl qüvvəyə minib. Bu müddət ərzində bütün dünyada mal və xidmətlərin qiymətləri dəyişib. Azərbaycan dünyanın ayrılmaz bir hissəsi olduğu üçün bu hal ölkəmizdən də yan keçməyib. O cümlədən ölkəyə gətirilən ehtiyat hissələrinin idxal qiymətləri artıb.

Təmir xərcləri, avtomobillər üçün yağ və digər zəruri materiallar, daşımada istifadə edilən avtobusların keyfiyyətinin yüksək olması, yanacağın qiymətinin artması və s. sərnişindaşıma xidmətinin maya dəyərinə ciddi təsir göstərib. Beləliklə, bu sahədə fəaliyyət göstərən şirkətlərin Tarif Şurasına müraciəti zərurətdən irəli gəlib. Başqa sözlə, istər metroda, istərsə də avtobuslarda mövcud tariflər sərnişin daşınmasının maya dəyərindən aşağıdır. Metroda hər sərnişinin daşınmasının maya dəyərinin bu il 82 qəpik olacağı gözlənilir, şəhərdaxili avtobus marşrutlarında isə amortizasiya xərci ilə birlikdə 33,5-57,4 qəpik arasında dəyişir.Yəni orta qiymət 40 qəpikdən artıqdır.

Maya dəyərinə üstəlik də sərnişin sayının pandemiyadan əvvəlki dövrlə müqayisədə əhəmiyyətli dərəcədə azalması təsir edir. Məsələn, pandemiya dövründə metroda bir sərnişinin daşınmasının maya dəyəri 1 manat 53 qəpik (2020-ci il) və 1 manat 40 qəpik (2021-ci il) olub. Tarifin 30 qəpik olduğunu nəzərə alsaq, bu iki il ərzində metropolitenin nə qədər ziyanla işlədiyi aydın görünər. İndinin özündə də sərnişindaşımada pandemiyadan əvvəlki dövrün göstəricilərinə dönmək mümkün olmayıb. Belə ki, 2022-ci il ərzində ictimai nəqliyyatdan istifadə edən sərnişinlərin sayı pandemiyadan əvvəlki dövrün cəmi 62 faizini təşkil edib.

Tarif artımından sonra metro üzrə 20 milyon manat, avtobus nəqliyyatı ilə daşımalar üzrə isə 200 milyon manat əlavə vəsaitin yaranacağı gözlənilir. Belə ki, metro ilə sərnişindaşıma tarifi 40 qəpik (əvvəlki tarif 30 qəpik idi) təşkil edəcək. Avtobus daşımalarında da dəyişiklik var. Müntəzəm şəhərdaxili marşrutlarda tarifin yuxarı həddi 40 qəpik olacaq (əvvəlki tarif 30 qəpik). Şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə tarif məsafədən asılı olaraq 40 qəpikdən 1 manata qədər təşkil edəcək(əvvəlki tarif 30-90 qəpik). Müntəzəm şəhərlərarası avtobus marşrutlarında tarifin yuxarı həddi 1 kilometr üçün 3 qəpik səviyyəsində müəyyənləşdiriləcək (əvvəlki tarif 2,4 qəpik idi). Bakı-Sumqayıt (Sumqayıt-Bakı) avtobus marşrutlarında isə tarif əvvəlki 50 qəpik əvəzinə 60 qəpik olacaq .

Qeyd edək ki, bu yeni tariflər bir çox şəhərlərdə, məsələn konkret olaraq Moskvada, Kiyevdə, Minskdə, Tbilisidə və İstanbulda olduğundan aşağıdır. Yeni tarifin qəbulundan sonra belə Bakıda sərnişindaşıma tarifləri əksər MDB ölkələri ilə müqayisədə ən aşağı qiymət hesab olunur. Avropa ölkələrində isə nəqliyyatda tariflər Azərbaycandakı göstəricilərdən dəfələrlə yüksəkdir.

Onu da deyək ki, yeni tariflərlə gündəlik metrodan və ya şəhərdaxili marşrutlardan istifadə edən bir vətəndaşın payına düşən aylıq artım 4-6 manat təşkil edəcək. Yəni Tarif (qiymət) Şurasının iclasında təklif olunan tarif dəyişikliyi modelləri arasında sosialyönümlülük nəzərə alınıb. Dövlətin sosial siyasətinə uyğun olaraq ən optimal variant seçilib, sərnişinlə xidmət göstərən şirkət arasında maraqlar balanslaşdırılıb.

Yeri gəlmişkən, avtobuslarla və metro ilə daşımalar sahəsində son dövrə aid bir neçə yeniliyi xatırladaq. Son 7 ildə Azərbaycana 1466 avtobus gətirilib ki, bu da avtobus parkının 61 faiz yenilənməsi deməkdir. Təkcə keçən il ölkəyə 170-i dövlət investisiyası, 85-i daşıyıcılar tərəfindən olmaqla ümumilikdə 255 avtobus gətirilib. Hazırda 177 marşrut xətti üzrə xidmət göstərilir, onlardan 40 faizi şəhərdaxili, qalanı şəhərətrafı marşrut xətləridir. Ötən il paytaxtda, Bakıətrafı qəsəbə və kəndlərdə 8 yeni müntəzəm marşrut xətti yaradılıb. Bu yeni xətlərlə gündə orta hesabla 23 mindən artıq sərnişin daşınır. Bakıda marşrut xətlərinin 50 faizində, avtobusların isə 64 faizində nağdsız ödəmə sistemi tətbiq olunub.

2021-2022-ci illərdə 2 yeni metro stansiyası ("8 Noyabr" və "Xocəsən") açılıb. Xətlərin cəmi uzunluğu 40,7 kilometrə, xətlərin sayı 3-ə, stansiyaların sayı 27-yə çatdırılıb. Dövlət proqramında yeraltı yolların ümumi uzunluğunun 119,1 kilometrə, stansiyaların sayının isə 77-yə çatdırılacağı nəzərdə tutulub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Ermənistanda hər 3 nəfərdən biri yoxsuldur

## Ölkənin iqtisadiyyatı çökür, investisiya qoyuluşu kəskin azalır

Ermənistandakı sosial-iqtisadi vəziyyət göstərir ki, ölkədə inflyasiya böyük sürətlə dərinləşməkdə davam edir və əhalinin gəlirlərində hansısa artım yoxdur. Yaranan fərq nisbəti insanların maddi durumunun daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olmaqdadır. Rəsmi dairələr inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin həddən artıq ağırlaşdığını etiraf edirlər.

İqtisadçılar 2023-cü ilin də Ermənistan üçün yaxşı heç nə vəd etmədiyini bildirirlər. Məsələ bundadır ki, bu ölkədə ötən il sosial-iqtisadi vəziyyətdə müsbətə doğru heç bir dəyişiklik olmayıb. Ermənistanın rəsmi statistikasına görə, ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə, bu göstərici Ermənistanda hər 3 nəfərdən birinə aiddir. Rəsmi statistikaya əsasən, həm də hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

Bütün problemlərin fonunda Ermənistan 2022-ci ildə iqtisadi artım tempinin 14,2 faiz olduğunu iddia edib. Ölkənin "1in.am" nəşri yazır ki, iqtisadi artımın rekord göstəricisi hökumətin gördüyü işin nəticəsi deyil, Rusiyaya qarşı sanksiyaların və bunun fonunda "köçürmə" deyilən prosesin hesabınadır: "Müxtəlif qeyri-rəsmi və dəqiq hesablamalara görə, həmin proses sayəsində Rusiyadan Ermənistana 3 milyard dollara yaxın vəsait köçürülüb. Ermənistanda dolların məzənnəsinin aşağı düşməsi də bundan irəli gəlir. Amma bu yerli istehsalçıların məhsullarının ixracatı üçün ciddi problemlər yaradıb. Qısa müddət ərzində ölkəyə külli miqdarda xarici valyuta daxil olarsa, onun iqtisadi statistik təsiri qaçılmazdır".

Vurğulanır ki, Rusiyadan pul köçürmələri və Rusiyaya qarşı sanksiyaların yaratdığı başqa problemlər olmasaydı, iqtisadi artım göstəricisinin necə olacağı hələ də böyük sual doğurur. "Bu problemlər Ermənistanı qapalı Rusiya iqtisadiyyatının "limanı"na çevirib. Bütövlükdə Rusiyaya yaxın ölkələr, o cümlədən Ermənistan Rusiyaya qarşı sanksiyalardan sonra öz iqtisadi itkiləri şəklində Moskvanın iqtisadi tənəzzülünün "təsirini" mütənasib şəkildə hiss edirlər. Bu, anormal bir vəziyyətdir. Anormal vəziyyətlər isə sabit və proqnozlaşdırıla bilməz, iqtisadi artımın sabit və institusional əsasına çevrilə bilməz", - deyə nəşr yazır.

Qeyd edilir ki, 2005-2007-ci illərdə də belə olmuşdu. O vaxtkı hökumət Ermənistan iqtisadiyyatını "pələng uçuşu" ilə xarakterizə edirdi, lakin xarici konyunktura dəyişdikdən sonra eniş çox ağrılı oldu.

Ermənistanda özəl investisiyaların tərkibi və strukturu da çox pis vəziyyətdədir. Xüsusilə 2022-ci ildə yatırılan xarici investisiyaların böyük hissəsi metal filizinin hasilatına və enerji sisteminin payına düşür. Maraqlıdır ki, birbaşa xarici investisiyaların təqribən 70 faizi hazırda iqtisadiyyatı ciddi problemlərlə üzləşən Rusiyadan gəlib. Odur ki, 2023-cü ildə Rusiya şirkətlərinin Ermənistan iqtisadiyyatına aktiv şəkildə sərmayə qoymaqda davam edəcəyi ehtimalı çox azdır.

Bütün sahələrdə iflasa uğrayan Ermənistanda işsizlik böhranı da yaşanır. Ölkədə gənclərin 42 faizi işsizdir. Həkimlər, tibb bacıları, mühəndislər, müəllimlər, digər peşə və sənət adamları arasında işsizlik hallarına daha çox rast gəlinir. Daha bir maraqlı məqam işsizlər arasında qadınların sayının getdikcə artmasıdır.

Hesab edilir ki, Ermənistanda işsizlər arasında kişilərin azlıq təşkil etməsi təəccüb doğurmamalıdır. Çünki kişilərin əksəriyyəti ailəsini dolandırmaq məqsədilə ölkəni tərk edərək Rusiyaya və digər ölkələrə üz tuturlar.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycanın Rus İcmasının və Rus Gəncləri Assosiasiyasının üzvləri Laçın yolunda ekofəallara qoşulublar

Azərbaycanın Rus İcmasının və Rus Gəncləri Assosiasiyasının üzvləri Laçın yolunda ekofəalların dinc aksiyasına qoşulublar.





Bu barədə AZƏRTAC-a Azərbaycanın Rus İcması sədrinin birinci müavini Anastasiya Lavrina bildirib.

"Aksiyanın ilk günündən Azərbaycanın Rus İcması Laçın yolunda azərbaycanlı ekofəalların hərəkətlərini və qanuni tələblərini dəstəkləyir. Dekabrın 12-dən bəri ekofəallar və Azərbaycan QHT-lərinin təmsilçiləri ölkənin Qarabağ bölgəsində yerləşən Laçın-Xankəndi yolunda dinc aksiya keçirir, bu regionda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını tələb edirlər. Bu gün biz şəxsən bu aksiyaya yataqların talanmasının, qarət etdiklərinin sonradan Ermənistana göndərilməsinin dayandırılması tələbi ilə qoşulduq. Bu, bizim torpağımızdır, Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləridir və bizim hərəkətlərimizi qınayanlar qoy özünə bu sualı versin: bəs onlar öz ərazilərində qanunsuz istismarı və ekologiyanın məhv olunmasına yol verərdilərmi? Əlbəttə, yox", - deyə A.Lavrina bildirib.

Ekofəalların aksiyasının 50 gündən çox davam etdiyini və bütün bu müddət ərzində yolun humanitar və təchizat yüklərinin daşınması, eləcə də mülki avtomobillərin hərəkəti üçün açıq olduğunu xatırladan A.Lavrina bu aksiyaya qoşulmanın səbəbini izah edərək deyib: "Bu gün mən və Rus İcmasından olan həmkarlarım bütün bunları gözlərimizlə görə bildik. Biz bu aksiyada iştirak etməklə Laçın yolundan qeyri-qanuni istifadəyə yol verməyəcəyik. Müharibədən sonrakı Azərbaycanın sülh barədə danışdığı dövrdə Ermənistan qanunsuz şəkildə Qarabağa, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi əraziyə mina və silah-sursat daşımaqda davam edirdi. Nəticədə minalar Azərbaycanın işğaldan azad olunan ərazilərində də diversantlar tərəfindən basdırılırdı. Bu, yeni qurbanlara səbəb olurdu. Buna bir daha yol verilməyəcək. Fransa prezidentinə namizəd Valeri Pekress və digər siyasi xadimlərin etdikləri kimi, özlərinə karyera qurmaq qərarı verən, müxtəlif ölkələrdən Qarabağa qanunsuz, Laçın yolu vasitəsilə keçən siyasətçilərin qanunsuz səfərlərinin də sonu çatıb. Qarabağa bir yol var - o da yalnız Azərbaycandandır. Hesab edirəm ki, Cənubi Qafqaz regionunda sülhün bərqərar olmasında maraqlı olan bütün ölkələr Azərbaycanı dəstəkləməlidirlər".

Lavrina hesab edir ki, Ruben Vardanyan kimi cinayətkarlar Qarabağ ermənilərini praktik olaraq girovluqda saxlayır, yalnız öz maraqlarını düşünürlər. "Bu insanların gələcəyi onu maraqlandırmır. Vardanyan üçün öz biznesini və siyasi karyerasını qurmaq fürsəti mühümdür. O, başa düşəndə ki, Azərbaycanın Qarabağ bölgəsində onun üçün gələcək yoxdur, nə vaxtsa Moskvadan qaçdığı kimi, sadəcə, buradan da qaçacaq", - deyə icma sədrinin birinci müavini bildirib.

# Xəzər İsayevin 60 illik yubileyi qeyd olunub

**Fevralın 1-də Milli Olimpiya Komitəsinin (MOK) Ədalətli Oyunlar Komissiyasının sədri, güləş üzrə Avropa və dünya çempionu Xəzər İsayevin 60 illik yubileyi qeyd olunub.**



AZƏRTAC xəbər verir ki, MOK-da keçirilən yubiley tədbirində əvvəlcə X.İsayevin həyatından və qazandığı uğurlardan bəhs edən videoçarx nümayiş etdirilib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə tədbirdə çıxış edərək yubilyarın yüksək insani keyfiyyətlərindən danışaraq





bildirib: "Hər ikimiz 1997-ci ildə Milli Olimpiya Komitəsinə vitse-prezident seçilmiş və 24 il çiyin-çiyinə idmanın inkişafı üçün çalışmışıq".

X.İsayevin Azərbaycanda idmanın inkişafına verdiyi töhfələrdən danışan Ç.Hüseynzadə yubilyara gələcək fəaliyyətində uğurlar arzulayıb.

Gənclər və idman naziri Fərid Qayıbov X.İsayevin idman karyerasını bitirdikdən sonra fəaliyyətini bu sahə üzrə davam etdirdiyini, perspektivli güləşçilərin yetişməsində mühüm rol oynadığını və idmanda ədalət prinsiplərinin təbliğini həmişə diqqət mərkəzində saxladığını diqqətə çatdırıb.

Yubilyarın səmimi və mehriban insan olduğunu vurğulayan nazir X.İsayevin təkcə Azərbaycanda deyil, ölkə xaricində də böyük nüfuza sahib olduğunu qeyd edib.

Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışaraq deyib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu idman siyasəti bu gün dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan idmançıları həmin uğurlu siyasəti dəstəkləyənlərdir. Məhz həmin idmançılar ölkəmizi dünyada layiqincə təmsil edir, qalib xalqın nümayəndələri olduqlarını sübut edirlər.

"X.İsayev gənclər üçün örnəkdir. Həmçinin o, Azərbaycan idmanı üçün dəyərli bir şəxsiyyətdir. Onunla tanışlığım 80-ci ilin sonlarına təsadüf edir. X.İsayevə hamı hörmətlə yanaşır və o da həmişə idmançıların yanında olur. Ölkəmizin güləş idman növündə əldə etdiyi uğurlarda məhz X.İsayevin də böyük payı var", - deyə A.Əliyev əlavə edib.

Milli Məclisin deputatları Rauf Əliyev, Könül Nurullayeva, tanınmış nasir və publisist Xeyrəddin Qoca, Bakı Şəhər Gənclər və İdman İdarəsinin rəisi Raqif Abbasov və digərləri çıxış edərək yubilyarın keçdiyi şərəfli həyat yolundan söz açıb, ona fəaliyyətində yeni uğurlar arzu ediblər.

Sonda çıxış edən X.İsayev göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Tədbirdə MOK-un baş katibi Azər Əliyev, idman federasiyalarının rəhbərləri, Olimpiya çempionları, idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

# AZAL Avropanın mədəni və tarixi mərkəzi - Vyana şəhərinə uçuşlar yerinə yetirməyə başlayır

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycanın milli aviadaşıyıcısı (AZAL) Avropa istiqamətlərini sürətlə inkişaf etdirməkdə davam edir və mayın 2-dən etibarən yeni Bakı-Vyana-Bakı marşrutuna start verir.




Avstriyanın paytaxtı Vyana yüksək turist cəlbediciliyinə malik bir şəhərdir və Avropanın mədəni və tarixi mərkəzi hesab olunur.

Bu marşrut üzrə uçuşlar həftədə iki dəfə - çərşənbə axşamı və cümə günü yerinə yetiriləcək.

Uçuş cədvəli ilə daha ətraflı aviaşirkətin rəsmi **azal.az** saytında tanış ola bilərsiniz. Biletləri həmçinin AZAL mobil tətbiqi vasitəsilə əldə etmək mümkündür.

# Sənaye zonaları ümidləri doğruldur

## İki il ərzində bu zonalarda 5,2 milyard manatlıq qeyri-neft məhsulları istehsal edilib

Məlum olduğu kimi, Azərbaycan yenidən müstəqilliyinə qovuşduqdan sonra sovetlər dönəminin inzibati idarəetmə sistemindən imtina edib liberal iqtisadiyyata keçmək barədə qərar qəbul etmişdir. Bununla iqtisadiyyatın yeni idarəetmə sisteminə keçməsi üçün islahatların aparılması zərurəti yaranmışdır. Odur ki, qanunvericilik, iqtisadi və sosial sahələrdə islahatların aparılmasına start verilmişdir.

Ötən dövr ərzində bu sahədə çox iş görsə də, proses dayanmayıb. Əsas səbəbi yeni çağırışlar və tələblərin idarəetmə mexanizminin təkmilləşdirilməsini tələb etməsidir. 2 il əvvəl İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) yaradılması da bu zərurətdən irəli gəlib. Xatırladaq ki, İZİA Prezidentin "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2021-ci il 22 yanvar tarixli Fərmanı ilə yaradılıb.

Fərmanda agentlik qarşısında qoyulan tələblərdən də aydın görünür ki, məqsəd ölkədə qeyri neft-qaz sənayesinin inkişafını təmin etməkdir. Çünki ölkənin hərtərəfli inkişafı, neft-qaz gəlirlərindən asılılığının azaldılması bu sektorun inkişafından asılıdır. Qeyri-neft-qaz sənayesinin inkişafı isə iki səbəbdən xüsusi əhəmiyyət daşıyır. Birincisi, yerli sənaye məhsullarının istehsalı ölkənin idxaldan asılılığını azaldır. İkincisi də bu növ məhsulların ixracı ölkənin gəlirlərinin sabitliyini təmin edir. İdxalın azalması, ixracın artması isə ölkənin inkişafını stimullaşdıran mühüm faktorlardır.

İZİA yaradılandan sonra bu sahəyə daha çox xarici və yerli sərmayənin qoyulması üçün müvafiq addımlar atılır. Son məlumata görə, İZİA fəaliyyətə başlayandan idarəçiliyində olan sənaye zonalarında investisiya həcmi 246 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bu rezidentlər tərəfindən həyata keçiriləcək layihələr üzrə 2800-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. 30 sahibkarlıq subyektindən 12-si Ağdam Sənaye Parkının, 2-si "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, 10-u Sumqayıt Kimya Sənaye Parkının, 1-i Pirallahı Sənaye Parkının, 3-ü Hacıqabul Sənaye Məhəlləsinin, 1-i Masallı Sənaye Məhəlləsinin, 1-i Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınmışdır. Həmin rezidentlər tərəfindən adları çəkilən sənaye zonalarında müxtəlif tonajlı yük və xüsusi təyinatlı avtomobillərin, elektrik cihaz və avadanlıqlarının, müxtəlif tikinti kimyəvilərin, yumşaq polimer qablaşdırma məhsullarının, havalandırma, yanğınsöndürmə avadanlıqları, həmçinin müxtəlif metal məmulatların, dam örtüklərinin, avtomatlaşdırma və telemexanika sistemlərinin, divar kağızlarının, qanda şəkəri təyin edən cihaz (qlükometr) və striplərin istehsalı layihələri həyata keçiriləcək.

Bunlar gözləntilərdir. Amma bunacan da sənaye zonaları boş durmayıb. İZİA-nın yarandığı iki il ərzində idarəçiliyində olan sənaye zonalarının rezidentləri tərəfindən təxminən 5,2 milyard manat dəyərində müxtəlif təyinatlı məhsullar istehsal edilib ki, onların da 1,9 milyad manatlığı "Made in Azerbaijan" brendi ilə dünyanın bir sıra ölkələrinə (ABŞ, Kanada, BƏƏ, Çin, Rusiya, Çexiya, İngiltərə, İsrail, İspaniya, Avstriya və s.) ixrac olunub. Ötən il isə sənaye zonalarının rezidentləri tərəfindən ümumilikdə 2,9 milyard manatlıq məhsul satışı həyata keçirilib. Onun da 1 milyard manatlığı ixracın payına düşüb. Bu isə 2021-ci illə müqayisədə satışda 20,6, ixracda 10,08 faiz artım deməkdir.

Ümumiyyətlə, sənaye zonaları ölkədə istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və təbii ki, yeni ixrac imkanlarının yaradılması baxımından əlverişli mexanizmdir. Bu səbəbdəndir ki, indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7 milyard manata yaxın 116 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və onlardan 65-i istehsal fəaliyyətinə başlayıb. Sahibkarlar sənaye zonalarına 6,46 milyard manatdan çox investisiya yatırıblar, 10400-dən artıq daimi iş yeri açıblar. Mövcud layihələr üzrə növbəti mərhələdə isə sənaye zonalarına əlavə 460 milyon manata yaxın investisiyanın yatırılması və 4200-dən artıq yeni iş yerinin yaradılması nəzərdə tutulur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İranlı narkobaronların ölkə daxilindəki havadarlarına qarşı əməliyyatlarda 36 nəfər saxlanılıb

İranlı narkobaronların ölkə daxilindəki havadarlarına qarşı əməliyyatlar keçirilib, 36 nəfər saxlanılıb, 114 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.





Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, "Pünhan", "Baba", "Peyman", "Araz" və s... şərti adları altında İrandan qaçaqmalçılıq yolu ilə ölkəmizə külli miqdarda narkotik vasitələr göndərən, sosial şəbəkələrdə gəncləri şirnikləndirici vədlərlə narkokuryerliyə cəlb edən mütəşəkkil cinayətkar dəstənin üzvləri saxlanılıblar.

Belə ki, DİN Baş Narkotiklərlə Mübarizə İdarəsi tərəfindən son 20 gündə paytaxt və bölgələrdə keçirilən silsilə əməliyyatlar zamanı qeyd edilən qanunsuz fəaliyyətlə məşğul olan ümumilikdə 36 nəfər saxlanılıb, qanunsuz dövriyyədən 114 kiloqram müxtəlif xassəli narkotik vasitə, psixotrop maddə, elektron tərəzilər və 3 min ədəd ekstazi və metadon həbi çıxarılıb.

Qeyd edilən şəxslərlə yanaşı, narkotik vasitələrin satışı və qanunsuz dövriyyəsi ilə məşğul olan əlavə 30 nəfər də saxlanılaraq istintaqa təqdim ediliblər. Onlardan Pənah Quliyev, Ceyhun Abdullayev, Anar Əsgərli, Kamran Nəzərli, Xəyal Xəlilov, Kənan və Kamran Aslanov qardaşları ölkə ərazisində narkotiklərin əsas tədarükçülərindən olublar.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb. Saxlanılanlar barəsində həbs qətimkan tədbiri seçilib. "Bu şəxslərin daxil olduqları narkoşəbəkənin ölkə daxilində və xaricindəki digər üzvlərinin saxlanılması istiqamətində əməliyyat tədbirləri davam etdirilir", - deyə məlumatda qeyd olunub. DİN İranda yaşayan şəxsiyyəti istintaqla müəyyən edilməyən yuxarıda qeyd olunan şərti adlar altında pərdələnən narkobaronların ölkə daxilindəki bəzi havadarlarının saxlanılmasının əməliyyat görüntülərini də açıqlayıb.

# Paytaxtda hava yağıntılı olacaq

Azərbaycanda fevralın 2-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Gündüz havanın çiskinli olacağı, gecəyə doğru isə yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Cənub-şərq küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-6°, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Axşam ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 6-9° isti, dağlarda gecə 10-15°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir. Gecə və səhər dağlıq rayonlarda yollar buz bağlayacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Axşam ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° şaxta, gündüz 0-5° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı proqnozlaşdırılır. Gecə və səhər yollar buz bağlayacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, dağlıq ərazilərdə 13°-dək şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı bildirilir. Gecə və səhər yollar buz bağlayacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 2-6° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-6° isti, dağlarda gecə 10-15°, gündüz 0-5° şaxta olacağı ehtimalı var. Gecə və səhər dağlıq rayonlarda yollar buz bağlayacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 6-9° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-5°, gündüz 6-8° isti, dağlarda gecə 0-2°, gündüz 2-4° isti olacağı gözlənilir.

# 20 kiloqramdan çox narkotik vasitənin İrandan Azərbaycana keçirilməsinin qarşısı alınıb

Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin əməkdaşları 20 kiloqram 400 qram narkotik vasitənin və 300 ədəd psixotrop tərkibli həblərin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısını alıb.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 30-da saat 14:10-da Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində iki ədəd bağlamada ümumi çəkisi 12 kiloqram 400 qram narkotik vasitə marixuana, saat 21:30-da İmişli rayon Bəhrəmtəpə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində bir ədəd bağlamada ümumi çəkisi 8 kiloqram narkotik vasitə marixuana və 300 ədəd psixotrop tərkibli "Metadon M-40" həbi aşkarlanaraq götürülüb.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**struktur idarələrə çoxfunksiyalı qurğuların satın alınması məqsədilə**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 08 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***

# Azercell abunəçilərinin nəzərinə!

**Təqdim edilən xidmətlərin keyfiyyətini daha da yüksəltmək və müştərilərə təklif olunan tariflərin optimallaşdırılması məqsədi ilə 04.03.2023-cü ildən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sisteminə aid nömrələrin abunəçilərinə təqdim edilən "SOCAR", "Biznes 200", "Hər yerə", "Elite" və "Special" tarif paketləri ləğv ediləcək. Qeyd olunan tarixdən etibarən növbəti faktura (müvafiq olaraq hər ayın 5-i və ya 25-i) dövrünədək digər tarif paketlərinə keçid etməyən abunəçilərin nömrələrində mövcud paket avtomatik olaraq (tarif dəyişikliyinə görə xidmət haqqı tutulmadan) aşağıdakı cədvəldə göstərildiyi kimi daha əlverişli tariflər ilə əvəz ediləcək:**

| № | Ləğv edilən Tarif Paketlərinin adı | Avtomatik qaydada əvəz ediləcək Tarif Paketlərinin adı |
|---|---|---|
| 1. | "Socar" | "Dövlətcell" |
| 2. | "Biznes 200" | "Sərbəst 15", "Sərbəst 25", "Sərbəst 50" Sərbəst 75", |
| 3. | "Hər Yerə" | "Sərbəst 15", "Sərbəst 25","Sərbəst 50","Sərbəst 75", "Standart" |
| 4. | "Elite" | "Standart" |
| 5. | "Special" | "Standart" |

"Biznes 200" tarif paketi üzrə dəyişikliklər abunəçilərin lüzumsuz, əlavə xərclərlə qarşılaşmamaları məqsədi ilə aşağıdakı xüsusiyyətlər nəzərə alınmaqla tətbiq ediləcək. Belə ki, "Biznes 200" tarif paketi üzrə aylıq abunə haqqı daxil olmaqla, abunəçilərin danışıq (tarifdaxili zəng və bonuslar istisna olmaqla) və internet (mobil internet paketləri və paketsiz istifadələr daxil olmaqla) istifadəsinin həcminə görə son 3 faktura dövrünün (oktyabr, noyabr, dekabr ayları üzrə) ortalama göstəriciləri nəzərə alınmaqla aşağıdakı qaydada dəyişiklik ediləcək:

| Danışıq və internet istifadə həcmi | Avtomatik qaydada əvəz ediləcək Tarif Paketlərinin adı |
|---|---|
| 19,99 manatadək | Sərbəst 15 |
| 20 manatdan - 37,49 manatadək | Sərbəst 25 |
| 37,5 manatdan - 62,49 manatadək | Sərbəst 50 |
| 62,5 manatdan yuxarı | Sərbəst 75 |

"Hər Yerə" tarif paketi üzrə dəyişikliklər abunəçilərin lüzumsuz, əlavə xərclərlə qarşılaşmamaları məqsədi ilə aşağıdakı xüsusiyyətlər nəzərə alınmaqla tətbiq ediləcək. "Hər Yerə" tarif paketi üzrə aylıq abunə haqqı daxil olmaqla, abunəçilərin danışıq (tarifdaxili zəng və bonuslar istisna olmaqla) və internet (mobil internet paketləri və paketsiz istifadələr daxil olmaqla) istifadəsinin həcminə görə son 3 faktura dövrünün (oktyabr, noyabr, dekabr ayları üzrə) ortalama göstəriciləri nəzərə alınmaqla aşağıdakı qaydada dəyişiklik ediləcək:

| Danışıq və internet istifadə həcmi | Avtomatik qaydada əvəz ediləcək Tarif Paketlərinin adı |
|---|---|
| 7,49 manatadək | Standart |
| 7,5 manatdan - 14,99 manatadək | Sərbəst 15 |
| 15 manatdan - 19,99 manatadək | Sərbəst 15 |
| 20 manatdan - 37,49 manatadək | Sərbəst 25 |
| 37,5 manatdan - 62,49 manatadək | Sərbəst 50 |
| 62,5 manatdan yuxarı | Sərbəst 75 |

***Qeyd:*** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin müştəri xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

**Avtomatik qaydada əvəz ediləcək Tarif Paketlərinin şərtləri:**

| "Standart" tarif paketi | |
|---|---|
| Aylıq abunə haqqı | 3 AZN (ƏDV daxil) |
| Bonus | 50 şəbəkədaxili dəqiqə |
| Şəbəkədaxili zənglər 1 ( bir) dəqiqə | 0,06 AZN (ƏDV daxil) |
| Ölkədaxili zənglər 1 ( bir) dəqiqə | 0,06 AZN (ƏDV daxil) |
| SMS ( tarifdaxili ) | 0,03 AZN (ƏDV daxil) |
| SMS (tarifxarici) | 0,06 AZN (ƏDV daxil) |
| Mobil İnternet paketi aktiv olmadığı halda hər 1 MB üçün | 0,40 AZN (ƏDV daxil) |
| Tarifdaxili zəngin hesablama intervalı – 60 saniyə, İnternet üçün – 51 KB. Tarifin qeyd olunan qiymətləri beynəlxalq istiqamətli, o cümlədən xüsusi kodlu (* ilə yığılan) və qısa nömrələrə edilən zəngləri əhatə etmir. | |

| "Dövlətcell" tarif paketi | |
|---|---|
| Aylıq abunə haqqı | 3 AZN (ƏDV daxil) |
| Bonus | 50 şəbəkədaxili dəqiqə |
| Tarifdaxili zənglər 1 ( bir) dəqiqə | 0,02 AZN (ƏDV daxil) |
| Ölkəboyu şəbəkədaxili zənglər 1 ( bir) dəqiqə | 0,06 AZN (ƏDV daxil) |
| Ölkəboyu şəbəkəxarici zənglər 1 ( bir) dəqiqə | 0,09 AZN (ƏDV daxil) |
| SMS | 0,05 AZN (ƏDV daxil) |
| Mobil İnternet paketi aktiv olmadığı halda hər 1 MB üçün | 0,40 AZN (ƏDV daxil) |
| Tarifdaxili zəngin hesablama intervalı – 60 saniyə, İnternet üçün – 51 KB. Tarifin qeyd olunan qiymətləri beynəlxalq istiqamətli, o cümlədən xüsusi kodlu (* ilə yığılan) və qısa nömrələrə edilən zəngləri əhatə etmir. | |

| "Sərbəst" tarif paketləri | | | | |
|---|---|---|---|---|
| | "Sərbəst 15" | "Sərbəst 25" | "Sərbəst 50" | "Sərbəst 75" |
| Aylıq abunə haqqı | 15 AZN (ƏDV daxil) | 25 AZN (ƏDV daxil) | 50 AZN (ƏDV daxil) | 75 AZN (ƏDV daxil) |
| Bonus | 500 ölkədaxili dəqiqə | 850 ölkədaxili dəqiqə | 2500 ölkədaxili dəqiqə | 4000 ölkədaxili dəqiqə |
| Bonus | 5GB ölkədaxili | 15GB ölkədaxili | 25GB ölkədaxili | 60GB ölkədaxili |
| Bonus | - | - | 1GB rouminq | 2GB rouminq |
| Bonus | 1GB ölkədaxili sosial şəbəkələr ("WhatsAəpp", "Messenger") yazışma | 1GB ölkədaxili sosial şəbəkələr ("WhatsAəpp", "Messenger") yazışma | 1GB ölkədaxili sosial şəbəkələr ("WhatsAəpp", "Messenger") yazışma | 1GB ölkədaxili sosial şəbəkələr ("WhatsAəpp", "Messenger") yazışma |
| Ölkədaxili zənglər 1 ( bir) dəqiqə | 0,06 AZN (ƏDV daxil) | 0,06 AZN (ƏDV daxil) | 0,06 AZN (ƏDV daxil) | 0,06 AZN (ƏDV daxil) |
| Mobil İnternet paketi aktiv olmadığı halda hər 1 MB üçün | 0,05 AZN (ƏDV daxil) | 0,05 AZN (ƏDV daxil) | 0,05 AZN (ƏDV daxil) | 0,05 AZN (ƏDV daxil) |
| SMS (tarifxarici) | 0,05 AZN (ƏDV daxil) | 0,05 AZN (ƏDV daxil) | 0,05 AZN (ƏDV daxil) | 0,05 AZN (ƏDV daxil) |
| Tarifdaxili zəngin hesablama intervalı – 60 saniyə, İnternet üçün – 51 KB. Tarifin qeyd olunan qiymətləri beynəlxalq istiqamətli, o cümlədən xüsusi kodlu (* ilə yığılan) və qısa nömrələrə edilən zəngləri əhatə etmir. | | | | |

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Mir Cəlal oğlu Paşayev və akademiyanın kollektivi rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamova əzizi

**SOFİYA ZƏKİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və xidmətin kollektivi Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Kamal Abdulla və Əlövsət Ağalarov yaxın dostları

**AZƏR MUSTAFAZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"B.EST Solutions" MMC-nin təsisçisi və direktoru Jana Krimpe Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Azər Badamova əzizi

**SOFİYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Nəşriyyatının kollektivi uzun illər "Azərnəşr"in direktoru olmuş

**AZƏR MUSTAFAZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5006
Sifariş 251

Qiyməti 40 qəpik